RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 5 (10025) 10 yanvar 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## Güc, balans və milli maraq

Azərbaycanın xarici siyasətində əsas prioritetlərdən biri məhz güc və məsuliyyət balansını qorumaqdır. Prezident bildirir ki, hərbi gücdən yalnız müdafiə və təhlükəsizliyin təminatı üçün istifadə olunur. Məlumdur ki, 2020-ci və 2023-cü illərdə regiondakı hərbi üstünlüyünə baxmayaraq, Azərbaycan öz gücünü yalnız strateji və diplomatik məqsədlər üçün tətbiq etdi. Prezident İlham Əliyev müsahibədə bu məsələ barədə dedi: "…Öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan. Heç bir ölkə, heç bir rəhbər nahaq iş görməməlidir, heç bir ölkənin ərazi bütövlüyünə göz dikməməlidir, heç bir ölkəni işğal etməməlidir. Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda məsuliyyətimiz göz önündədir". Belə bir mövqe isə həm regionda sabitliyin qorunmasına, həm də Azərbaycanın beynəlxalq nüfuzunun güclənməsinə xidmət göstərir.

Azərbaycanın xarici siyasət strategiyasında eyni zamanda çoxqütblülük və balans mühüm yer tutur. Həm ABŞ, həm Çin, həm də regional aktorlarla strateji əməkdaşlıq qurulur və inkişaf etdirilir. Bu münasibət Azərbaycanın regional və qlobal siyasətdə təsirli aktor kimi çıxış etməsinə imkan verir.

Prezident İlham Əliyev 2025-ci ilin ölkəmiz və xalqımız üçün uğurlu, tarixi bir il olduğunu xüsusi qeyd etdi: "Çünki məhz keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır. Müharibənin müxtəlif mərhələləri olub. Siz də bunu yaxşı xatırlayırsınız. Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu".

Dövlət başçısının müsahibəsindəki ən önəmli məqamlardan biri də Azərbaycan-ABŞ münasibətlərinə aiddir. İki ölkə arasında münasibətlər Azərbaycanın müstəqillik qazandığı 1991-ci ildən etibarən daim xüsusi diqqət mərkəzində olub. Lakin bu münasibətlər uzun illər bir sıra ciddi problemlərlə də üzləşib. Həmin problemlərin simvolik nümunəsi 1992-ci ildə ABŞ Konqresində "Azadlığa Dəstək Aktı"na qəbul edilmiş 907-ci düzəlişdir. Bu düzəliş Azərbaycanın Ermənistanla münaqişəsi, xüsusilə Dağlıq Qarabağ müharibəsi fonunda Amerika Birləşmiş Ştatlarının ölkəmizə sanksiyalar tətbiq etməsinə səbəb olmuş və gənc, müstəqil dövlətimiz üçün ciddi maneəyə çevrilmişdir. Ölkəmiz ABŞ kimi qlobal güclə münasibətlər qurmaq istəsə də, bu dövrdə beynəlxalq lobbiçilik və siyasi təsirlər nəticəsində tam potensialını reallaşdıra bilmirdi. Həmçinin erməni lobbisinin fəaliyyətləri ABŞ daxilində Azərbaycan üçün əlverişsiz qərarların verilməsinə gətirib çıxarmışdı. Xüsusilə Bayden administrasiyasının yol verdiyi ciddi yanlışlıqlar, qərəzli mövqe iki dövlət arasında münasibətləri böhran həddinə gətirmişdi.

5

## Azərbaycandan dünyaya mesajlar

### Ötən il də ölkəmiz beynəlxalq tədbirlərin etibarlı ünvanı kimi diqqət çəkdi



Bu gün Azərbaycan dünyada beynəlxalq tədbirlərin keçirildiyi, qlobal miqyaslı problemlərin dialoq yolu ilə həll edildiyi platforma kimi tanınır. Bu mənada ötən il də istisna olmadı və Azərbaycan nüfuzlu beynəlxalq tədbirlərə uğurla evsahibliyi edərək dünya birliyində etibarlı tərəfdaş olduğunu və ona olan etimadı layiqincə doğrultduğunu bir daha təsdiqlədi. Müxtəlif sahələri əhatə edən bu tədbirlər ölkəmizin təşkilatçılıq qabiliyyətinin yüksək səviyyədə olmasını ortaya qoymaqla yanaşı, artan siyasi, iqtisadi, mədəni nüfuzunu da nümayiş etdirdi.

6

## "Qarabağ"dan "qara qızıl" gözləyirik

### Prezident İlham ƏLİYEV: "Biz neft hasilatının sabitləşdirilməsi üzərində işləyirik"



Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, ölkəmizin əsas gəlir mənbəyi "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarıdır və bunu hamı bilməlidir. 1997-ci ilin payızından - "Çıraq" platformasından hasilata başlanandan bəri AÇG yataqlar bloku fasiləsiz olaraq neft verir. Məlumdur ki, bu yataqların hər biri öz hasilatının pik dövrünü yaşayıb və neftin azalması təbiidir. Bununla belə, hasilat davam edir. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) məlumatına görə, keçən ilin yanvar-sentyabr aylarında "Azəri-Çıraq-Günəşli"dən 6 milyard 183,9 milyon manat vəsait daxil olub.

8

## Xəzər artıq sərhəd deyil

### Ölkəmiz Cənubi Qafqazı və Mərkəzi Asiyanı vahid geosiyasi məkana çevirir




Azərbaycanın geosiyasi körpü rolu sadəcə, coğrafi təsadüf deyil, həm də son onilliklərdə yürüdülən məqsədyönlü strateji xəttin nəticəsidir. Bu mühüm məqama Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı da toxundu. Dövlət başçısı haqlı olaraq Azərbaycanın Mərkəzi Asiyanın Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsini xarici siyasətimizin ən önəmli nailiyyətlərindən biri kimi qələmə verdi və bunu nadir hadisə kimi qiymətləndirdi.

7

## Azərbaycan öz maraqlarını qorumaqda qətiyyətlidir



Xarici siyasətdə qazanılan uğurlar ilk növbədə Azərbaycanın sözünün keçərli olması ilə ölçülür. Bu gün Azərbaycan regional təhlükəsizlik, enerji əməkdaşlığı, nəqliyyat-kommunikasiya layihələri baxımından mühüm aktora çevrilib. Ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşan beynəlxalq layihələr yalnız iqtisadi deyil, həm də siyasi sabitliyə xidmət edir. Prezident müsahibəsində bu məqamların açıq və əsaslandırılmış şəkildə izah olunmasını, Azərbaycan diplomatiyasının hansı prinsiplər üzərində qurulduğunu aydın şəkildə ortaya qoydu.

Dövlətimizin diplomatik uğurlarından bəhs edən Prezident İlham Əliyev qeyd etmişdir: "Xarici siyasətlə bağlı digər önəmli nailiyyət Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimizdir. Hesab edirəm ki, bu da nadir hadisə sayıla bilər. Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik. Mən Prezident kimi artıq iki il ardıcıllıqla fəxri qonaq kimi Zirvə görüşlərinə dəvət olunurdum. Amma iştirakımla keçirilən üçüncü Zirvə görüşündə artıq tamhüquqlu üzv seçildik. Əlbəttə ki, bu gün təkcə bizim bölgəmiz üçün yox, dünya üçün Mərkəzi Asiya-Azərbaycan birliyi və C5-in C6-ya çevrilməsi böyük əhəmiyyət daşıyır. Çünki bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır".

7

## Azərbaycanın turizm siyasəti sistemli, çoxşaxəli və strateji baxışa əsaslanır



Yeni turizm istiqamətləri sırasında biznes və səhiyyə turizmi xüsusi perspektiv kimi qiymətləndirilir. Prezident İlham Əliyev bu barədə deyib: "Biz biznes turizmi və potensial qaydada sağlamlıq turizmi haqqında düşünə bilərik. Hazırda onun üzərində çalışırıq". Mövcud istirahət və müalicə mərkəzləri, Naftalan, Qalaaltı, Duzdağ və digər məkanlar bu istiqamətdə möhkəm baza yaradır.

İşğaldan azad edilmiş ərazilər Azərbaycanın turizm strategiyasında yeni mərhələnin əsas dayaqlarından biri kimi çıxış edir. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "təbii cənnət" adlandıraraq, bu bölgələrdə turizmin inkişafının prioritet istiqamət olduğunu vurğulayıb. İşğaldan azad edilmiş ərazilərdə mehmanxana infrastrukturunun yaradılması regional turizmin canlanmasına xidmət edir.

Xəzər sahilində həyata keçirilən "Sea Breeze" layihəsi isə müasir turizm imkanları təqdim edir. Dövlət başçısı qeyd edib ki, öz həcminə, miqyasına və gözəlliyinə görə nadir olan "Sea Breeze" böyük tikinti layihəsi həyata keçirilir. Dünyanın heç bir yerində buna oxşar layihə yoxdur. 6,5 kilometr sahil boyunca yerləşən, 40-dan çox binanı əhatə edən bu kompleks həm qonaqlama, həm əyləncə, həm də yaşayış funksiyalarını bir məkanda birləşdirərək ölkəmizin turizm konsepsiyasına yeni keyfiyyət gətirir.

10

## Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 6-cı, 10-cu, 12-ci, 14-cü, 15-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Əmək Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025, № 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608) 77-ci maddəsinin 8-ci hissəsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin hissədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 2.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13, № 4, maddələr 362, 367, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 12 (I kitab), maddə 1283; 2025, № 4 (I kitab), maddələr 308, 322, № 6, maddə 526, № 7, maddə 610, № 8, maddələr 736, 743, № 10, maddə 1011) 67-1.4.3-cü maddəsindən "valideynini itirmiş və ya" sözləri çıxarılsın.

**Maddə 3.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); 2024, № 5 (I kitab), maddə 484, № 6 (I kitab), maddə 637, № 7, maddələr 763, 765, 769, 772; 2025, № 2, maddə 98, № 4 (I kitab), maddə 322, № 6, maddə 523; Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 49.4-cü maddədə "Valideynlər olmadıqda, onlar valideynlik hüquqlarından məhrum olunduqda və ya uşaq valideyn himayəsini itirdiyi digər hallarda," sözləri "Valideyn himayəsindən məhrum olmuş" sözləri ilə əvəz edilsin;

3.2. 116.7-ci maddədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

3.3. 116-1-ci maddə üzrə:

3.3.1. adında "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

3.3.2. 116-1.1-ci maddədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

3.4. 119.9.3-cü maddədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

3.5. 136.4-cü maddədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

3.6. 140.2-ci maddədə "Valideyn himayəsini itirmiş" sözləri "Valideyn himayəsindən məhrum olmuş" sözləri ilə əvəz edilsin;

3.7. 145-2.2-ci maddədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

**Maddə 4.** Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 586 (Cild I); 2024, № 4, maddə 365, № 5 (I kitab), maddələr 489, 503, № 8, maddə 934; 2025, № 1, maddə 15, № 4 (I kitab), maddə 322, № 8, maddə 743, № 10, maddə 1011) 175.4-cü maddəsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

**Maddə 5.** Azərbaycan Respublikası Mənzil Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612 (Cild I); 2024, № 5, (I kitab), maddə 489; 2025, № 3, maddə 219, № 8, maddələr 738, 744) 56.2.2-ci maddəsindən hər iki halda "valideynlərini itirmiş və" sözləri çıxarılsın və həmin maddədə "uşaq" sözü "kiçik qrup" sözləri ilə əvəz edilsin.

**Maddə 6.** "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 88 (Cild I); 2025, № 6, maddə 523, № 7, maddə 629) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2-ci maddənin beşinci hissəsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin hissədən hər iki halda "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

6.2. 9-cu maddənin ikinci hissəsində və 10-cu maddənin beşinci hissəsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin hissələrdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 7.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477 (Cild I); 2024, № 5 (I kitab), maddə 501, № 12 (II kitab), maddə 1336; 2025, № 4 (I kitab), maddələr 310, 322, № 6, maddə 523; Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

7.1. adında "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.2. preambuladan "valideynlərini itirmiş və" və "23 yaşınadək" sözləri çıxarılsın;

7.3. 1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"Maddə 1. **Əsas anlayışlar**

1.1.Bu Qanunda istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.1.1. **valideyn himayəsindən məhrum olmuş uşaqlar** - bir valideyni vəfat etmiş və o biri valideyni orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxs olan və ya hər iki valideyni aşağıda qeyd edilən kateqoriyaların hər hansı birinə aid olan 18 yaşınadək şəxslər:

1.1.1.1.vəfat etmiş;

1.1.1.2. məlum olmayan;

1.1.1.3. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan;

1.1.1.4. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli şəxs hesab edilən;

1.1.1.5. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında xəbərsiz itkin düşmüş və ya ölmüş elan edilən;

1.1.1.6. cəzaçəkmə müəssisələrində cəzasını çəkən;

1.1.1.7. uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edən;

1.1.1.8. uşaqlarını uşaqlar üçün sosial xidmət müəssisələrindən götürməkdən imtina edən;

1.1.2. **valideyn himayəsindən məhrum olmuş uşaqlar arasından olan şəxslər** - valideyn himayəsindən məhrum olmuş ali, orta ixtisas və peşə təhsili müəssisələrində əyani formada təhsil alan 23 yaşınadək şəxslər;

1.1.3. **valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün müəssisələr** - valideyn himayəsindən məhrum olmuş uşaqların saxlanıldığı və təhsil aldığı təhsil müəssisələri, sosial xidmət müəssisələri (uşaq evləri, ailə tipli kiçik qrup evləri, əlilliyi olan uşaqlarüçün internat evləri, yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələri), səhiyyə sistemi müəssisələri və normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada yaradılan digər dövlət və qeyri-dövlət müəssisələri;

1.1.4. **qəyyumluq və himayə** - valideyn himayəsindən məhrum olmuş uşaqların saxlanılması, tərbiyə olunması və təhsili, habelə hüquq və mənafelərinin müdafiəsi məqsədilə onların yerləşdirilməsi forması;

1.1.5. **övladlığa götürən şəxs** - qanunla müəyyən edilmiş qaydada valideyn himayəsindən məhrum olmuş uşaqları övladlığa götürən ər-arvad və ya ayrı-ayrı şəxslər;

1.1.6. **himayədar valideyn (himayədar ailə)** - valideyn himayəsindən məhrum olmuş uşaqları Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyən edilmiş qaydada tərbiyə olunması üçün himayəyə götürən yetkinlik yaşına çatmış, hər iki cinsdən olan, azı ümumi orta təhsilli, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və Azərbaycan Respublikasının vətəndaşı olan şəxs (ər-arvad);

1.1.7. **valideyn himayəsindən məhrum olmuş uşaqların tam dövlət təminatı** - valideyn himayəsindən məhrum olmuş uşaqlara dövlət və ya bələdiyyə müəssisələrində, qəyyumun (himayəçinin), himayədar valideynin (himayədar ailənin) ailəsində olduqları müddətdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunmuş qaydada yemək, paltar və ayaqqabı dəsti verilməsi, həmin uşaqların yaşayışının, təhsil almasının təmin edilməsi, onlara tibbi xidmət göstərilməsi və ya qeyd edilənlərin tam dəyərinin dövlət büdcəsi hesabına ödənilməsi.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.";

7.4. 2-ci maddənin adında və mətnində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.5. 3-cü maddə üzrə:

7.5.1. adında "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.5.2. birinci hissədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.5.3. ikinci hissədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.5.4. üçüncü, dördüncü və beşinci hissələrdə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.5.5. altıncı hissədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.5.6. yeddinci hissədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.6. 4-cü maddənin adında və mətnində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.7. 5-ci maddə üzrə:

7.7.1. birinci hissədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.7.2. ikinci hissənin birinci və ikinci cümlələrində, üçüncü, dördüncü və altıncı hissələrdə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.7.3. beşinci hissənin birinci cümləsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.7.4. yeddinci hissədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.8. 6-cı maddənin birinci və ikinci hissələrində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.9. 7-ci maddə üzrə:

7.9.1. birinci hissənin birinci cümləsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.9.2. ikinci hissə üzrə:

7.9.2.1. birinci və ikinci cümlələrdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.9.2.2. üçüncü cümlədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.9.3. üçüncü hissədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.9.4. dördüncü hissədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin hissədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.9.5. beşinci və altıncı hissələrdə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.9.6. yeddinci hissədən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

7.9.7. səkkizinci hissədən hər üç halda "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.9.8. doqquzuncu və onuncu hissələrdə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.9.9. on birinci hissədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.9.10. on ikinci hissədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.10. 8-ci maddə üzrə:

7.10.1. birinci hissədən"valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.10.2. ikinci hissədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.10.3. üçüncü hissənin birinci cümləsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.10.4. dördüncü hissədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.10.5. beşinci və altıncı hissələrdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

7.10.6. yeddinci hissədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

7.11. 9-cu maddənin adında və mətnində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

**Maddə 8.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524,№ 7, maddə 626) 11.1.4-cü maddəsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin maddədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 9.** "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 231 (Cild I) 1.0.6-cı maddəsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 10.** Azərbaycan Respublikasının 2002-ci il 31 may tarixli 336-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 7, maddə 388 (Cild I); 2025, № 2, maddə 97) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"nin 5-ci maddəsinin birinci hissəsinin 3-cü, 9-cu, 10-cu və 25-ci (hər iki halda) bəndlərindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 11.** "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 8, maddə 417 (Cild I); 2024, № 4, maddə 365) 11.1-ci maddəsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

**Maddə 12.** "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 681 (Cild I); 2024, № 1, maddə 3; 2025, № 2, maddə 98, № 6, maddə 523, № 11, maddə 1004) aşağıdakı dəyişikliklər edilsin:

12.1. 11-ci maddə üzrə:

12.1.1. 11.2.1-ci maddədə"valideynlərinin və ya digər qanuni nümayəndələrinin" sözləri "valideyn" sözü ilə əvəz edilsin;

12.1.2. 11.2.4-cü və 11.8.1-ci maddələrdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

12.2. 14-cü maddə üzrə:

12.2.1. 14.1.1-ci maddədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

12.2.2. 14.1.2-ci maddədə "valideynlərini itirmiş, valideyn, yaxud digər qanuni nümayəndələrinin" sözləri "valideyn" sözü ilə əvəz edilsin;

12.3. 16.1.3 - 16.1.5-ci maddələrdə "valideynlərini itirmiş, valideynlərinin və ya digər qanuni nümayəndələrinin himayəsindən kənarda qalmış" sözləri "valideyn himayəsindən məhrum olmuş" sözləri ilə əvəz edilsin.

**Maddə 13.** "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 694 (Cild I); 2025, № 2, maddə 98) 16.6-cı maddəsinin ikinci cümləsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

**Maddə 14.** "Sosial müavinətlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 2, maddə 76 (Cild I); 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322)aşağıdakı dəyişikliklər edilsin:

14.1. 4.0.1.9-cu maddədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

14.2. 7-ci maddə üzrə:

14.2.1. 7.0.9-cu maddədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

14.2.2. 7.0.10-4-cü maddədən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

14.3. 9.1.8-ci və 11.1.7-ci maddələrdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 15.** "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 208 (Cild I); 2024, № 2, maddə 137, № 5 (I kitab), maddələr 489, 491, № 6 (I kitab), maddə 644; 2025, № 1, maddə 16, № 2, maddələr 96, 105, № 4 (I kitab), maddə 322, № 6, maddə 528) 8.1-ci maddəsində "Valideynlərini itirmiş və ya valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

**Maddə 16.** "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 710 (Cild I); 2025, № 6, maddə 523; Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanunu) 10.5-ci maddəsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

**Maddə 17.** "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 613 (Cild I); 2024, № 2, maddə 138, № 7, maddə 776) 58.3-cü maddəsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 18.** "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684 (Cild I); 2024, № 4, maddə 362, № 5 (I kitab), maddə 500; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 320, № 7, maddə 628) aşağıdakı dəyişikliklər edilsin:

18.1. 14.8-1.1-ci maddədən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

18.2. 29.0.41-ci və 36.4-cü maddələrdən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

**Maddə 19.** "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 191 (Cild I); 2024, № 4, maddə 365; 2025, № 5, maddə 437) 7.1.1-ci və 7.1.9-cu maddələrindən "valideynlərini itirməsi və ya" sözləri çıxarılsın.

**Maddə 20.** "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 4, maddə 360 (Cild I) 7.1-ci maddəsinin ikinci cümləsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 21.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152 (Cild I); 2024, № 5 (I kitab), maddə 501; 2025, № 4 (I kitab), maddə 320) 20.7-ci maddəsindən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

**Maddə 22.** "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386 (Cild I); 2024, № 5 (I kitab), maddələr 501, 503; 2025, № 1, maddə 16, № 4 (I kitab), maddə 322) 32.3-cü maddəsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 23.** "Ümumi təhsil haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 789 (Cild I); 2024, № 1, maddə 3) 26.5-ci maddəsindən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

**Maddə 24.** "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1419 (Cild I) 18.4-cü maddəsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 25.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (II kitab), maddə 1336) 2.2-ci maddəsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

**Maddə 26.** "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 310) 2-ci maddəsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 dekabr 2025-ci il*

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 1.1.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 1.1.7-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət rüsumu haqqında", "Gənclər siyasəti haqqında", "Uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Uşaqların icbari dispanserizasiyası haqqında", "Peşə təhsili haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Ümumi təhsil haqqında", "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli və "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 26 dekabr tarixli 324-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 14 iyun tarixli 493 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 2, maddə 89 (Cild I); 2025, № 6, maddə 542, № 11, maddə 1036) 2.5-1-ci və 2.6-cı bəndlərindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

4. "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 8, maddə 511 (Cild I); 2024, № 12 (II kitab), maddə 1368; 2025, № 2, maddə 125, № 6, maddə 542) 2-ci hissəsinin doqquzuncu abzasından "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

5. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260, № 7, maddə 815, № 8, maddələr 937, 947, № 10, maddə 1138; 2025, № 6, maddə 542, № 11, maddələr 1018, 1036; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 26 dekabr tarixli 559 nömrəli Fərmanı) 2.20-1-ci və 2.20-2-ci bəndlərindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

6. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 498 (Cild I); 2024, № 6 (I kitab), maddə 667, № 12 (II kitab), maddə 1362; 2025, № 4 (I kitab), maddə 326, № 6, maddə 542, № 11, maddə 1036) aşağıdakı dəyişikliklər edilsin:

6.1. adında və preambulada "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

6.2. 2-ci hissə üzrə:

6.2.1. 2.1-ci bənddə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz olunsun və həmin bəndə "Qanununun" sözündən sonra "1.1.7-ci maddəsində," sözləri əlavə edilsin;

6.2.2. 2.4-cü bənddən "1-ci maddəsinin iyirminci abzasında," sözləri çıxarılsın;

6.2.3. 2.4-1-ci bənd 2.4-2-ci bənd hesab olunsun və aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. həmin Qanunun 1.1.7-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

6.2.4. 2.4-2-ci və 2.7-2-ci bəndlərdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

7. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I); 2024, № 6 (I kitab), maddə 655, № 7, maddə 812, № 8, maddə 956; 2025, № 6, maddə 542, № 11, maddə 1035) 2.19-cu bəndindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

8. "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 609 (Cild I); 2024, № 7, maddə 790; 2025, № 6, maddə 542, № 8, maddə 746, № 11, maddə 1035) 3.2-1-ci və 3.15-1-ci bəndlərindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

9. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633, № 11, maddələr 1036, 1038) 2-ci hissəsinin on ikinci abzasından "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

10. "Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 388 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 611 (Cild I); 2024, № 8, maddə 943; 2025, № 11, maddə 1036) 3.20-ci bəndindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

11. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 noyabr tarixli 419 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 11, maddə 795 (Cild I); 2025, № 1, maddə 53, № 11, maddə 1036) ilə təsdiq edilmiş "Qaçqın" statusu verilməsi haqqında vəsatətə baxılması Qaydası"nın 1-ci hissəsinin ikinci və doqquzuncu abzaslarının ikinci cümlələrindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

12. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 avqust tarixli 272 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 704 (Cild I); 2025, № 11, maddə 1036) 2.11-ci bəndindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

13. "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 274 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 706 (Cild I); 2024, № 6 (I kitab), maddə 667; 2025, № 6, maddə 542, № 11, maddə 1036) 2.3-cü və 2.7-ci bəndlərindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

14. "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 3 iyul tarixli 606 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 7, maddə 713 (Cild I); 2025, № 6, maddə 542, № 11, maddə 1036) 2.6-1-ci və 2.7-ci bəndlərindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

15. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90 (Cild I); 2024, № 3, maddə 254, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 12 (II kitab), maddə 1369) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 3.1.57-6-3.1.57-8-ci yarımbəndlərindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

16. "İnsanın immun çatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 20 aprel tarixli 414 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 4, maddə 283 (Cild I); 2025, № 11, maddə 1035) 1.2-ci bəndindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

17. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 5, maddə 419 (Cild I); 2024, № 1, maddə 21, № 4, maddə 393, № 6 (I kitab), maddə 667, № 12 (II kitab), maddə 1370; 2025, № 4 (I kitab), maddə 345, № 11, maddə 1036) ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

17.1. 2.3-cü bənd üzrə:

17.1.1. 2.3.5-ci yarımbənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

17.1.2. 2.3.8-ci yarımbənddə "valideynlərini itirmiş və valideyn himayəsindən məhrum" sözləri "valideyn himayəsindən məhrum olmuş" sözləri ilə əvəz edilsin;

17.2. 2.4.4-cü yarımbənddə "valideynlərini itirmiş, valideynlərinin və ya digər qanuni nümayəndələrinin himayəsindən kənarda qalmış" sözləri "valideyn himayəsindən məhrum olmuş" sözləri ilə əvəz edilsin;

17.3. 2.5.18 - 2.5.21-ci yarımbəndlərdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

17.4. 2.7-ci bənd üzrə:

17.4.1. 2.7.13-cü yarımbənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

17.4.2. 2.7.14-cü yarımbənddə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin yarımbənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

17.5. 2.8-ci bənd üzrə:

17.5.1. 2.8.2-ci və 2.8.11-ci yarımbəndlərdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

17.5.2. 2.8.12-ci yarımbənddə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin və həmin yarımbənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

17.5.3. 2.8.14-cü yarımbənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

18. "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 noyabr tarixli 758 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1118 (Cild I); 2025, № 5, maddə 447)1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

18.1. 1.2.1-ci yarımbənddən "valideynlərini itirmiş və ya" və "valideynlərini itirdiyinə və ya" sözləri çıxarılsın;

18.2. 1.4-cü bənd üzrə:

18.2.1. 1.4.1-ci yarımbənddən "valideynlərini itirdiyinə və ya" sözləri çıxarılsın;

18.2.2. 1.4.2-ci yarımbənddən "valideynlərini itirmiş," sözləri çıxarılsın;

18.2.3. 1.4.3-cü yarımbənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

18.2.4.1.4.4-cü yarımbənddən "valideynlərini itirmiş," sözləri çıxarılsın.

19. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916 (Cild I); 2025, № 3, maddə 226, № 4 (I kitab), maddə 345,№ 6, maddə 548) 1.1.9-cu yarımbəndindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

20. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1624 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1791 (Cild I); 2024, № 4, maddə 393, № 10, maddə 1120) ilə təsdiq edilmiş "Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi"nin 2.2.12-ci yarımbəndindən "valideynlərini itirməsinə və ya" sözləri çıxarılsın.

21. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (I kitab), maddə 2544 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 8, maddə 943, № 9, maddə 1000, № 12 (II kitab), maddə 1383; 2025, № 3, maddə 226, № 11, maddə 1022) ilə təsdiq edilmiş "DOST" mərkəzlərində göstərilən xidmətlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

21.1. 4.5-ci bənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

21.2. 5-ci hissə üzrə:

21.2.1. 5.6-cı və 5.11-ci bəndlərdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın;

21.2.2.5.16-cı bənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

21.3. 10.21-ci və 11.5-ci bəndlərdən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

22. "Mediasiya haqqında" Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1555-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli 607 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 607 (Cild I); 2025, № 11, maddə 1035) 2.3-cü bəndindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

23. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 fevral tarixli 946 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 2, maddə 104 (Cild I); 2025, № 4 (I kitab), maddə 341) ilə təsdiq edilmiş "Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi Qaydası"nın 1.3-cü bəndində və 2.27.3-cü yarımbəndində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718 (Cild I); 2024, № 6 (I kitab), maddə 660, № 12 (II kitab), maddə 1383; 2025, № 4 (I kitab), maddə 345, № 11, maddə 1022) ilə təsdiq edilmiş "Sosial Xidmətlər Agentliyinin Nizamnaməsi"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

24.1. 3.1.13-cü yarımbənddən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

24.2. 3.1.24-1-3.1.24-3-cü yarımbəndlərdən "valideynlərini itirmiş və"sözləri çıxarılsın.

25. "Şəhid ailəsi statusu almış şəxslərin və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin sosial-məişət şəraitinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 16 dekabr tarixli 1487 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1352 (Cild I) 4.1-ci bəndindən "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

26. "Uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 15 fevral tarixli 1599 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 2, maddə 110 (Cild I) 1-ci hissəsindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

27. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 oktyabr tarixli 2336 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1384 (Cild I); 2025, № 2, maddə 125) ilə təsdiq edilmiş "Xarici ölkədə çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayan Azərbaycan Respublikası vətəndaşlarının repatriasiyası və reabilitasiyası Qaydaları"nın 1.3-cü və 1.5-ci bəndlərində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

28. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 79-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 20 dekabr tarixli 256 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 12 (II kitab), maddə 1362) 2-ci hissəsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

29. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 151-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 aprel tarixli 359 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (I kitab), maddə 326) 2-ci hissəsində "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

30. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 12 avqust tarixli 472 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 8, maddə 757) ilə təsdiq edilmiş "Elektron Hökumət İnformasiya Sistemi haqqında Əsasnamə"nin 3.9-cu və 4.7-ci bəndlərindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

31. "Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 271 (Cild I) 1.5-ci bəndindən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

32. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 iyun tarixli 2073 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 723 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 4 (I kitab), maddə 345, № 11, maddə 1036) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası"nda aşağıdakı dəyişikliklər edilsin:

32.1. 2-ci hissə üzrə:

32.1.1. ikinci abzasda "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

32.1.2. on ikinci abzas üzrə:

32.1.2.1. birinci cümlədən "valideynlərini itirmiş," sözləri çıxarılsın;

32.1.2.2.üçüncü cümlədə "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

32.2. 4.3.7-ci yarımbənddən "valideynlərini itirmiş və" sözləri çıxarılsın.

33. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 790 (Cild I); 2024, № 4, maddə 393, № 5 (I kitab), maddə 529, № 6 (I kitab), maddələr 647, 654, № 12 (II kitab), maddə 1359; 2025, № 8, maddə 749, № 11, maddə 1018) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "7. Tədbirlər planı" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

33.1. 2.1.3-cü yarımbəndin 2-ci abzasının "Tədbirlər və layihələr" sütunundan "valideynlərini itirmiş," sözləri çıxarılsın;

33.2. 2.2.3-cü yarımbəndin 2-ci abzasının "Tədbirlər və layihələr" sütununda "Valideynlərini itirmiş və valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin.

34. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 avqust tarixli 4059 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (I kitab), maddə 1218 (Cild I); 2024, № 5 (I kitab), maddə 529; 2025, № 4 (I kitab), maddə 345) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

34.1. 3-cü hissə üzrə:

34.1.1.birinci abzasdan "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

34.1.2.yeddinci abzasda "Hər iki valideynini itirmiş və ya valideyn" sözləri "Valideyn" sözü ilə əvəz edilsin;

34.2. 6.1.3.1-ci, 6.1.3.2.2-ci, 6.1.3.3.2-ci və 6.1.3.4.1-ci abzaslardan "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın;

34.3."8. Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün Dövlət Proqramı"nın icrası ilə bağlı Tədbirlər Planı" hissəsinin 8.3.2-ci yarımbəndinin "Tədbirin adı", "ilkin nəticələr" və "yekun nəticələr" sütunlarından "valideynlərini itirmiş və ya" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 yanvar 2026-cı il*

# A.C.İsgəndərovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Anar Camal oğlu İsgəndərov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 yanvar 2026-cı il*

# "Dövlət rüsumu haqqında" və"Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024, № 1, maddələr 10, 16, № 6 (I kitab), maddə 637, № 7, maddələr 747, 751, 775, № 8, maddə 933, № 11, maddə 1187, № 12 (II kitab), maddə 1351; 2025, № 1, maddə 1, № 2, maddə 101, № 4 (I kitab), maddələr 318, 322, № 5, maddə 433, № 6, maddələr 521, 524, № 7, maddə 626; Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 297-VIIQD nömrəli və 16 dekabr tarixli 313-VIIQD nömrəli qanunları) aşağıdakı məzmunda 27.7-ci maddə əlavə edilsin:

"27.7. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini), o cümlədən Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirməklə əlaqədar əlilliyi müəyyən edilmiş, habelə şəhid ailəsi statusu almış şəxslərdən bu Qanunun 26-cı maddəsində göstərilən xidmətlər və hüquqi hərəkətlər üçün dövlət rüsumu tutulmur.".

**Maddə 2.** "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 8, maddə 603 (Cild I); 2025, № 1, maddə 16, № 2, maddə 100, № 6, maddə 536, № 7, maddə 630,№ 8, maddələr 738, 744) aşağıdakı məzmunda 6.2-1-ci maddə əlavə edilsin:

"6.2-1. Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar, həmçinin hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini), o cümlədən Çernobıl AES-də hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirməklə əlaqədar əlilliyi müəyyən edilmiş, habelə şəhid ailəsi statusu almış şəxslərin bu Qanunun 6.1-ci maddəsində göstərilən xidmətlər və hüquqi hərəkətlər üçün dövlət rüsumundan azad olunması məsələsi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun 27.7-ci maddəsi ilə tənzimlənir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 6** **Bakı şəhəri, 9 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 8, maddə 555 (Cild I); 2024, № 2, maddə 236, № 5 (II kitab), maddə 575, № 7, maddə 910; 2025, № 4 (II kitab), maddə 424, № 7, maddə 697) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Dünya əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı"nın "Memarlıq abidələri" bölməsinin 18-ci bəndinin "Yerləşdiyi ünvan" sütununda "Cuğa" sözü "Gülüstan" sözü ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin Siyahısı" üzrə:

2.1. "Memarlıq abidələri" bölməsinin "Yerləşdiyi ünvan" sütunu üzrə:

2.1.1."Xocavənd rayonu" hissəsi üzrə:

2.1.1.1. 228-ci bənddə "Traxtik" sözü "Zoğalbulaq" sözü ilə əvəz edilsin;

2.1.1.2. 230-cu bənddə "Sakuri" sözü "Hünərli" sözü ilə əvəz edilsin;

2.1.1.3. 231-ci və 232-ci bəndlərdə "Süsənlik" sözü "Susanlıq" sözü ilə əvəz edilsin;

2.1.1.4. 233-cü bənddə "Xsaberd" sözü "Çaylaqqala" sözü ilə əvəz edilsin;

2.1.1.5. 235-ci və236-cı bəndlərdə "Sur" sözü "Sor" sözü ilə əvəz edilsin;

2.1.1.6. 237-ci bənddə "Mestağlar" sözü "Böyük Tağlar" sözləri ilə əvəz edilsin;

2.1.1.7. 239-cu bənddə "Qavaxan" sözü "Gavahın" sözü ilə əvəz edilsin;

2.1.1.8. 241-245-ci bəndlərdə "Qatsi" sözü "Çörəkli" sözü ilə əvəz edilsin;

2.1.1.9. 246-cı bənddə "Maçqalaşen" sözü "Cütçü" sözü ilə əvəz edilsin;

2.1.1.10. 247-ci bənddə "Sitoraşen" sözü "Şıx Dursun" sözləri ilə əvəz edilsin;

2.1.1.11. 248-ci və 249-cu bəndlərdə "Tağavard" sözü "Tağaverd" sözü ilə əvəz edilsin;

2.1.1.12. 250-ci bənddə "Niki" sözü "Cəmiyyət" sözü ilə əvəz edilsin;

2.1.2."Xocalı rayonu" hissəsi üzrə:

2.1.2.1. 253-cü və 254-cü bəndlərdə "Çanaxçı" sözü "Çanaqçı" sözü ilə əvəz edilsin;

2.1.2.2. 256-cı bənddə "Xansıx" sözü "Xanyeri" sözü ilə əvəz edilsin;

2.1.2.3. 259-cu bənddə "Maşxmaat" sözü "Baharlı" sözü ilə əvəz edilsin;

2.1.2.4. 264-cü bənddə "Anabert" sözü "Xanabad" sözü ilə əvəz edilsin;

2.1.3."Tovuz rayonu" hissəsinin 381-ci bəndində "Kirzan" sözü "Hunanlar" sözü ilə əvəz edilsin;

2.1.4."Culfa rayonu" hissəsi üzrə:

2.1.4.1. 401-ci bənddə "Əbrəqunis" sözü "Əbrəqunus" sözü ilə əvəz edilsin;

2.1.4.2. 402-ci bənddə "Kirnə" sözü "Kırna" sözü ilə əvəz edilsin;

2.1.4.3. 405-ci bənddə "Camaldin" sözü "Camaldın" sözü ilə əvəz edilsin;

2.1.5. "Gülüstan" Tarix-Mədəniyyət Qoruğu" hissəsinin 406-409-cu bəndlərində "Cuğa" sözü "Gülüstan" sözü ilə əvəz edilsin;

2.1.6."Ordubad rayonu" hissəsinin 417-ci bəndində "Dər" sözü "Darkənd" sözü ilə əvəz edilsin;

2.2. "Arxeoloji abidələr" bölməsinin "Yerləşdiyi ünvan" sütunu üzrə:

2.2.1."Ağcabədi rayonu"hissəsinin 748-ci bəndində "Üzeyirkənd" sözü "Avşar" sözü ilə əvəz edilsin;

2.2.2."Cəlilabad rayonu" hissəsi üzrə:

2.2.2.1. 890-cı bənddə "Navtuluq" sözü "Söyüdlü" sözü ilə əvəz edilsin;

2.2.2.2. 903-cü bənddə "Allar" sözü "Alar" sözü ilə əvəz edilsin;

2.2.2.3. 910-cu bənddə "Svetlayazarya" sözləri "Muğan" sözü ilə əvəz edilsin;

2.2.3."Göygöl rayonu" hissəsi üzrə:

2.2.3.1. 1086-cı bənddə "Mirzik" sözü "Şəhriyar" sözü ilə əvəz edilsin;

2.2.3.2. 1088-ci bənddə "Bolçalı" sözü "Balçılı" sözü ilə əvəz edilsin;

2.2.3.3. 1090-cı bənddə "Yeni Əli Bayramlı" sözləri "Mollacəlilli" sözü ilə əvəz edilsin;

2.2.4."Xocalı rayonu" hissəsi üzrə:

2.2.4.1. 1124-cü bənddə "Seyidşən" sözü "Seyidbəyli" sözü ilə əvəz edilsin;

2.2.4.2. 1125-ci bənddə "İlis" sözü "Qarakötük" sözü ilə əvəz edilsin;

2.2.4.3. 1129-cu və 1130-cu bəndlərdə "Saruşen" sözü "Dağyurdu" sözü ilə əvəz edilsin;

2.2.5."Qazax rayonu" hissəsi üzrə:

2.2.5.1. 1239-cu və 1240-cı bəndlərdə "Əli Bayramlı" sözləri "Aslanbəyli" sözü ilə əvəz edilsin;

2.2.5.2. 1272-ci bənddə "Əzizbəyli" sözü "Hüseynbəyli" sözü ilə əvəz edilsin;

2.2.6. "Qusar rayonu" hissəsinin 1419-cu bəndində "İmamqulu" sözü "İmamqulukənd" sözü ilə əvəz edilsin;

2.2.7."Oğuz rayonu" hissəsinin 1641-ci və 1642-ci bəndlərində "Vardanlı" sözü "Kərimli" sözü ilə əvəz edilsin;

2.2.8."Şəki rayonu" hissəsinin 1731-1733-cü bəndlərində "Fazil" sözü "Fazıl" sözü ilə əvəz edilsin;

2.2.9. "Culfa rayonu" hissəsi üzrə:

2.2.9.1. 1882-ci və1883-cü bəndlərdə "Əbrəqunis" sözü "Əbrəqunus" sözü ilə əvəz edilsin;

2.2.9.2. 1898-ci və1899-cu bəndlərdə "Camaldin" sözü "Camaldın" sözü ilə əvəz edilsin;

2.2.9.3. 1900-cü bənddə "Noraşam" sözü "Göydərə" sözü ilə əvəz edilsin;

2.2.9.4. 1915-ci və1916-cı bəndlərdə "Kirnə" sözü "Kırna" sözü ilə əvəz edilsin;

2.2.9.5. 1919-1921-ci bəndlərdə "Cuğa" sözü "Gülüstan" sözü ilə əvəz edilsin;

2.2.10. "Şahbuz rayonu" hissəsi üzrə:

2.2.10.1. 2080-ci, 2081-ci və 2084-cü bəndlərdə "Yuxarı Remeşin" sözləri "Güney Qışlaq" sözləri ilə əvəz edilsin;

2.2.10.2. 2082-ci və2083-cü bəndlərdə "Aşağı Remeşin" sözləri "Qızıl Qışlaq" sözləri ilə əvəz edilsin;

2.2.10.3. 2091-ci bənddə "Arınc"sözü "Ayrınc" sözü ilə əvəz edilsin;

2.2.10.4. 2096-cı bənddə "Tırkeş" sözü "Türkeş" sözü ilə əvəz edilsin.

3. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı" üzrə:

3.1. "Memarlıq abidələri" bölməsinin "Yerləşdiyi ünvan" sütunu üzrə:

3.1.1."Cəlilabad rayonu" hissəsinin 4178-ci bəndində "Pokrovka" sözü "Günəşli" sözü ilə əvəz edilsin;

3.1.2."Gədəbəy rayonu" hissəsinin 4256-cı bəndində "Kilsəli" sözü "Turşsu" sözü ilə əvəz edilsin;

3.1.3."Xocavənd rayonu" hissəsi üzrə:

3.1.3.1. 4318-ci bənddə "Tağavard" sözü "Tağaverd" sözü ilə əvəz edilsin;

3.1.3.2. 4325-ci bənddə "Sakuri" sözü "Hünərli" sözü ilə əvəz edilsin;

3.1.3.3. 4326-cı bənddə "Sur" sözü "Sor" sözü ilə əvəz edilsin;

3.1.3.4. 4328-ci bənddə "Xsaberd" sözü "Çaylaqqala" sözü ilə əvəz edilsin;

3.1.3.5. 4331-ci bənddə "Domi" sözü "Binə" sözü ilə əvəz edilsin;

3.1.3.6. 4332-ci bənddə "Şaqah" sözü "Şahyeri" sözü ilə əvəz edilsin;

3.1.3.7. 4333-cü bənddə "Noraşen" sözü "Günəşli" sözü ilə əvəz edilsin;

3.1.3.8. 4334-cü bənddə "Banazur" sözü "Binədərəsi" sözü ilə əvəz edilsin;

3.1.3.9. 4335-ci bənddə "Kemraçuk" sözü "Qırmızıqaya" sözü ilə əvəz edilsin;

3.1.3.10. 4339-cu bənddə "Anaku" sözü "Ağdam" sözü ilə əvəz edilsin;

3.1.3.11. 4341-ci bənddə "Zamzur" sözü "Dərəkənd" sözü ilə əvəz edilsin;

3.1.4."Lerik rayonu" hissəsinin 4791-ci bəndində "Azərbaycan" sözü "Günəşli" sözü ilə əvəz edilsin;

3.1.5."Lənkəran rayonu" hissəsinin 4841-ci və 4842-ci bəndlərində "Viyan" sözü "Viyən" sözü ilə əvəz edilsin;

3.1.6."Neftçala rayonu" hissəsinin 4935-ci bəndində "Z.O.Kultuk qəsəbəsi" sözləri "Neftçala şəhəri" sözləri ilə əvəz edilsin;

3.1.7."Oğuz rayonu" hissəsinin 4943-cü bəndində "Vardanlı" sözü "Kərimli" sözü ilə əvəz edilsin;

3.1.8."Zaqatala rayonu" hissəsi üzrə:

3.1.8.1. 5225-ci bənddə "Verxiyan" sözü "Bəhmətli" sözü ilə əvəz edilsin;

3.1.8.2. 5263-cü bənddə "Oxoxdərə" sözü "Axaxdərə" sözü ilə əvəz edilsin;

3.1.9."Ordubad rayonu" hissəsinin 5342-ci bəndində "Dər kəndi (Dər türbəsinin yanında)" sözləri "Darkənd kəndi" sözləri ilə əvəz edilsin;

3.1.10. "Şahbuz rayonu" hissəsinin 5571-ci bəndində "Əzizbəyov" sözü "Daylaqlı" sözü ilə əvəz edilsin;

3.2. "Arxeoloji abidələr" bölməsinin "Yerləşdiyi ünvan" sütunu üzrə:

3.2.1."Culfa rayonu" hissəsinin 6071-ci bəndində "Əbrəqunis" sözü "Əbrəqunus" sözü ilə əvəz edilsin;

3.3. "Dekorativ-tətbiqi sənət nümunələri (Xalq daş heykəltəraşlıq abidələri)" bölməsinin "Yerləşdiyi ünvan" sütunu üzrə:

3.3.1."Lerik rayonu" hissəsinin 6248-ci bəndində "Azərbaycan" sözü "Günəşli" sözü ilə əvəz edilsin;

3.3.2."Şahbuz rayonu" hissəsinin 6290-cı və 6291-ci bəndlərində "Gecəzur" sözü "Ağbulaq" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 13 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə müqavilənin Nümunəvi Forması"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 4** **Bakı şəhəri, 9 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 dekabr tarixli 901 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 iyul tarixli 457 nömrəli Fərmanının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 13 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 70 (Cild I) ilə təsdiq edilmiş "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi üzrə müqavilənin Nümunəvi Forması"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4-cü bənddə "bank" sözü "xəzinə" sözü ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Dövlət sifarişi ilə təyinatlı tədbirlər publik hüquqi şəxsin tabe olduğu dövlət orqanının (qurumun) büdcədənkənar vəsaitləri hesabına həyata keçirilə bilər.".

3. 5.3-cü bənd ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 184-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 5** **Bakı şəhəri, 9 yanvar 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 184-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 383 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1537 (Cild I) ilə təsdiq edilmiş "Mediatorların hazırlığı və ixtisaslarının artırılması ilə bağlı təlim Qaydası"na aşağıdakı məzmunda 3.9-cu bənd əlavə edilsin:

"3.9. Mediatorların ilkin hazırlığı üzrə təlimi bitirmiş şəxslərə verilən sertifikatın qüvvədə olma müddəti beş ildir.".

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1539 (Cild I); 2024, № 4, maddə 481) ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 2.3.2-1-ci yarımbənd əlavə edilsin:

"2.3.2-1. Qanunun 36.7-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, mediasiya xərclərini ödəmək;";

2.2. 7-ci hissə üzrə:

2.2.1. 7.1-ci və 7.4-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"7.1. Mediasiya prosesi Qanunun 22-ci maddəsində nəzərdə tutulmuş "mediasiya prosesinin tətbiqi barədə müqavilə" bağlanıldığı, Qanunun 28-ci və 29-cu maddələrində nəzərdə tutulmuş hallarda isə tərəflərin və ya onlardan birinin ilkin mediasiya sessiyasında iştirak etdiyi andan başlanmış sayılır.";

"7.4. Qanunun 21.8-ci və 29.2-ci maddələrində nəzərdə tutulmuş hallarda tərəflər və ya onlardan biri mediasiya sessiyasında iştirak etmədikdə və ya iştirak etməkdən yazılı şəkildə imtina etdikdə müvafiq olaraq mediasiya prosesinə bu Qaydanın 12.1.3-cü yarımbəndinə əsasən avtomatik xitam verilir və ya mediator ilkin mediasiya sessiyasında iştirak edən və etməyən tərəfləri qeyd etməklə, "İlkin mediasiya sessiyasında iştirak edilməməsi" ilə bağlı arayışı iştirak edən tərəflərə təqdim edir.";

2.2.2. 7.2-ci bənd ləğv edilsin;

2.3. 12-ci hissə üzrə:

2.3.1. 12.1.8-ci yarımbəndə "çıxarıldıqda" sözündən sonra "və ya mediator və ya mediasiya təşkilatının mediasiya fəaliyyətini həyata keçirmək hüququ dayandırıldıqda" sözləri əlavə edilsin;

2.3.2. 12.1.9-cu yarımbənddən "21.8-ci," sözləri çıxarılsın;

2.3.3. 12.2-ci bəndin birinci cümləsində "11.1.2–11.1.8-ci" sözləri "12.1.2-12.1.8-ci" sözləri ilə əvəz edilsin və həmin bəndin ikinci cümləsinə "tərəfindən" sözündən sonra "müvafiq qeydlər edilməklə" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Baş prokuror paytaxtın Pirallahı rayonunda vətəndaşları qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırıqlarına uyğun olaraq prokurorluq orqanları tərəfindən vətəndaşların qəbulu daim diqqətdə saxlanılmaqla onların ərizə və şikayətlərinin yerində dinlənilərək həll olunması üçün müvafiq tədbirlər görülür.**

Yanvarın 9-da baş prokuror Kamran Əliyev Bakı şəhəri Pirallahı rayon prokurorluğunun inzibati binasında Pirallahı, Xəzər rayonları və digər bölgələrdən olan vətəndaşları qəbul edib.

Qəbulda iştirak edən 15 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

# Xarici xüsusi xidmət orqanlarının məxfi əməkdaşlığa cəlb etdiyi şəxs ifşa olunub



**Xarici xüsusi xidmət orqanlarının məxfi əməkdaşlığa cəlb etdiyi şəxs ifşa olunmuşdur.**

Xarici xüsusi xidmət orqanlarının Azərbaycan Respublikasının milli təhlükəsizliyinə yönələn kəşfiyyat-pozuculuq fəaliyyətinin aşkar edilərək qarşısının alınması istiqamətində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən davam etdirilən əməliyyat-istintaq tədbirləri zamanı Azərbaycan Respublikasının vətəndaşı, 1969-cu il təvəllüdlü Fərzəliyev Siyafət Heydər oğlunun dövlətə xəyanət etməsinə əsaslı şübhələr yaranmışdır.

Bu barədə DTX-nin Mətbuat xidmətindən məlumat verilib.

Araşdırmalarla müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikasının sakini Siyafət Fərzəliyev xarici ölkə ərazisində olarkən həmin dövlətin xüsusi xidmət orqanının nümayəndələri tərəfindən maddi maraq müqabilində məxfi əməkdaşlığa cəlb edilmiş, ölkəyə qayıtdıqdan sonra onların tapşırığı əsasında Naxçıvan şəhəri və Şahbuz rayonu ərazilərində yerləşən hərbi və digər strateji əhəmiyyətli obyektlərin videoçəkilişlərini apararaq xarici xüsusi xidmət orqanının nümayəndələrinə təqdim etmişdir.

Həmçinin qeyd olunan şəxsin yaşadığı mənzilə baxış keçirilərkən oradan "Kalaşnikov" tipli avtomat silahının ayrı-ayrı hissələri aşkarlanaraq götürülmüşdür.

Siyafət Fərzəliyev Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 228.1 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) və 274-cü (dövlətə xəyanət) maddələri ilə məsuliyyətə cəlb olunaraq, məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider



## Güc, balans və milli maraq

**Hər yeni il strateji hədəflərə doğru aparan yolda böyük bir başlanğıcdır. Yolun uğuru isə onun davamını düzgün müəyyənləşdirməkdən, risk və imkanlarını real qiymətləndirməkdən, hədəfləri aydın görə bilməkdən asılıdır. Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə ölkəmizin və ümumilikdə regionumuzun gələcəyinin mükəmməl inkişafına yönələn aydın xətt kimi həm Azərbaycanda, həm də beynəlxalq ictimaiyyətdə böyük maraq doğurdu.**

Dövlət başçısının müsahibəsində xarici siyasət məsələləri ilə bağlı bölüşdüyü məqamlar son dərəcə mühüm əhəmiyyət kəsb edirdi. Cənab İlham Əliyev toxunduğu bütün digər məsələlər kimi, bu sahənin də ən xırda detallarına qədər izahını verdi, qlobal və regional proseslərin sistemli təhlilini apardı, nəticə etibarilə regionun gələcək mənzərəsini ictimaiyyətə açıq şəkildə təqdim etdi.

Bu müsahibənin əsas xüsusiyyəti Prezidentin həm informativ, həm də analitik mövqe ortaya qoymasıdır. İlham Əliyev Azərbaycanın gələcəyi ilə bağlı aydın baxışa və strateji yanaşmaya malikdir, dünyada baş verən prosesləri obyektiv qiymətləndirir, təcrübəyə əsaslanan düzgün proqnozlar verir. Belə yanaşma Azərbaycanın xarici siyasətində qətiyyətli, eyni zamanda balanslı xəttin formalaşmasına imkan yaradır.

Prezidentin mövqeyinə görə, xarici siyasət yalnız diplomatiya və danışıqlardan ibarət deyil. O həm də iqtisadiyyat, nəqliyyat, hərbi və təhlükəsizlik sahələrini əhatə edən çoxşaxəli strategiyanı əks etdirir. Bu isə Azərbaycanın regional və qlobal nüfuzunu artırır, beynəlxalq forumlarda və təşkilatlarda aktiv iştirakını təmin edir, ölkəmizin xarici siyasəti həm prinsipial, həm praktik xarakter daşıyır, ölkə yalnız reaktiv şəkildə hərəkət etmir, eyni zamanda beynəlxalq gündəmin formalaşmasına töhfə verir.

Azərbaycanın xarici siyasətində əsas prioritetlərdən biri məhz güc və məsuliyyət balansını qorumaqdır. Prezident bildirir ki, hərbi gücdən yalnız müdafiə və təhlükəsizliyin təminatı üçün istifadə olunur. Məlumdur ki, 2020-ci və 2023-cü illərdə regiondakı hərbi üstünlüyünə baxmayaraq, Azərbaycan öz gücünü yalnız strateji və diplomatik məqsədlər üçün tətbiq etdi. Prezident İlham Əliyev müsahibədə bu məsələ barədə dedi: "…Öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan. Heç bir ölkə, heç bir rəhbər nahaq iş görməməlidir, heç bir ölkənin ərazi bütövlüyünə göz dikməməlidir, heç bir ölkəni işğal etməməlidir. Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda məsuliyyətimiz göz önündədir". Belə bir mövqe isə həm regionda sabitliyin qorunmasına, həm də Azərbaycanın beynəlxalq nüfuzunun güclənməsinə xidmət göstərir.

Azərbaycanın xarici siyasət strategiyasında eyni zamanda çoxqütblülük və balans mühüm yer tutur. Həm ABŞ, həm Çin, həm də regional aktorlarla strateji əməkdaşlıq qurulur və inkişaf etdirilir. Bu münasibət Azərbaycanın regional və qlobal siyasətdə təsirli aktor kimi çıxış etməsinə imkan verir.

Prezident İlham Əliyev 2025-ci ilin ölkəmiz və xalqımız üçün uğurlu, tarixi bir il olduğunu xüsusi qeyd etdi: "Çünki məhz keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır. Müharibənin müxtəlif mərhələləri olub. Siz də bunu yaxşı xatırlayırsınız. Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu".

### Azərbaycan-ABŞ münasibətləri

Dövlət başçısının müsahibəsindəki ən önəmli məqamlardan biri də Azərbaycan-ABŞ münasibətlərinə aiddir. İki ölkə arasında münasibətlər Azərbaycanın müstəqillik qazandığı 1991-ci ildən etibarən daim xüsusi diqqət mərkəzində olub. Lakin bu münasibətlər uzun illər bir sıra ciddi problemlərlə də üzləşib. Həmin problemlərin simvolik nümunəsi 1992-ci ildə ABŞ Konqresində "Azadlığa Dəstək Aktı"na qəbul edilmiş 907-ci düzəlişdir. Bu düzəliş Azərbaycanın Ermənistanla münaqişəsi, xüsusilə Dağlıq Qarabağ müharibəsi fonunda Amerika Birləşmiş Ştatlarının ölkəmizə sanksiyalar tətbiq etməsinə səbəb olmuş və gənc, müstəqil dövlətimiz üçün ciddi maneəyə çevrilmişdir. Ölkəmiz ABŞ kimi qlobal güclə münasibətlər qurmaq istəsə də, bu dövrdə beynəlxalq lobbiçilik və siyasi təsirlər nəticəsində tam potensialını reallaşdıra bilmirdi. Həmçinin erməni lobbisinin fəaliyyətləri ABŞ daxilində Azərbaycan üçün əlverişsiz qərarların verilməsinə gətirib çıxarmışdı. Xüsusilə Bayden administrasiyasının yol verdiyi ciddi yanlışlıqlar, qərəzli mövqe iki dövlət arasında münasibətləri böhran həddinə gətirmişdi.

Amma artıq vəziyyət tamamilə dəyişib və Azərbaycan-ABŞ münasibətlərində ciddi yaxınlaşmalar var. Bunun əsas səbəblərindən biri Ermənistan-Azərbaycan müharibəsinin rəsmən sona çatmasıdır. Münaqişənin bitməsi, bölgədə sabitliyin yaranması ABŞ-də Azərbaycanla genişmiqyaslı münasibətlərin inkişafına imkan yaradıb. Digər əsas faktor isə Prezident Donald Trampın administrasiyasının hakimiyyətə gəlməsidir. Bu administrasiya çox praqmatik və milli maraqları düzgün qiymətləndirən strukturdur və belə bir strukturun mövcudluğu ölkəmiz üçün regional güc və diplomatik nüfuzun artırılması baxımından böyük fürsətdir.

Tramp administrasiyasının hakimiyyətə gəlməsi ilə Ağ Evdə 907-ci düzəlişin rəmzi olaraq aradan qaldırılması Azərbaycanın ABŞ ilə münasibətlərində yeni bir səhifə açdı. Prezident İlham Əliyev bu addımı simvolik, amma strateji əhəmiyyətli hadisə kimi qiymətləndirir. Rəmzi xarakterinə baxmayaraq, bu addım Azərbaycanın ABŞ-yə etibarlı tərəfdaş kimi çıxış etməsini təsdiqləyir və Konqres tərəfindən düzəlişin tam aradan qaldırılması üçün zəmin yaradır.

Bundan əlavə, Azərbaycan və ABŞ arasında strateji işçi qrupunun yaradılması münasibətlərin yalnız diplomatik sahədə deyil, həm də iqtisadi, nəqliyyat, hərbi-sənaye və sərmayə sahələrində inkişafını təmin edir. Bu qrupun əsas məqsədi strateji tərəfdaşlıq xartiyasının hazırlanmasıdır və artıq oktyabr ayından bəri müxtəlif rəsmi heyətlər bu istiqamətdə fəal iş aparmaqdadırlar. Qarşılıqlı sərmayə qoyuluşu, iqtisadi əməkdaşlıq və ticarət əlaqələrinin genişləndirilməsi Azərbaycan üçün xüsusi önəm daşıyır.

Zəngəzur dəhlizinin (TRIPP) açılmasına doğru atılan addımlar da ABŞ-Azərbaycan münasibətlərində strateji uğurdur. Bu, regional nəqliyyat və logistika infrastrukturunda tarixi addım kimi Amerika Birləşmiş Ştatları tərəfindən də dəstəklənən qlobal təşəbbüsdür.

Azərbaycan-ABŞ münasibətləri yalnız iqtisadi və nəqliyyat sahəsi ilə məhdudlaşmır, diplomatik və hərbi əməkdaşlıq da inkişaf edir. Prezident İlham Əliyev müsahibədə bildirdi ki, ölkəmiz tərəfindən oktyabr ayından bəri ABŞ-yə dörd yüksəksəviyyəli nümayəndə heyəti ezam edilmişdir. Bu heyətlər strateji tərəfdaşlıq xartiyasının hazırlanması, sərmayə qoyuluşu və münasibətlərin müxtəlif sahələrdə koordinasiyası üzrə müzakirələr aparmışlar. Bu addımlar da 2025-ci ili ABŞ ilə münasibətlərin inkişafı baxımından tarixi və uğurlu il kimi qiymətləndirməyə imkan verir.

D.Tramp administrasiyası ilə əməkdaşlıq eyni zamanda ABŞ Konqresinə təsir imkanlarını artırır. 907-ci düzəlişin formal səbəbi olan blokada artıq mövcud deyil. Əksinə, Azərbaycanın ərazisindən Ermənistana müxtəlif yüklər göndərilir, yollar açılıb və neft məhsulları ixrac olunur. Bu reallıq Konqres üzvlərini 907-ci düzəlişi tam aradan qaldırmağa sövq etməlidir. Prezidentin də vurğuladığı kimi, rəmzi addımların arxasında Azərbaycan üçün strateji əhəmiyyət daşıyan çox ciddi siyasi və iqtisadi maraqlar dayanır.

Beləliklə, ABŞ ilə münasibətlərin yeni səviyyəyə qalxması ölkəmizin regional və qlobal siyasətdə güclü tərəf kimi çıxış etməsinə, iqtisadi və hərbi sahələrdə strateji əməkdaşlığın möhkəmlənməsinə, həmçinin tranzit və nəqliyyat layihələrinin reallaşmasına imkan verir.

### Çinlə strateji tərəfdaşlıq və D-8 təşkilatına üzvlük

Azərbaycanın xarici siyasətində Çin Xalq Respublikası ilə əlaqələr də xüsusi yer tutur. Ötən il Prezident İlham Əliyevin Çinə dövlət səfəri zamanı Azərbaycan və Çin arasında hərtərəfli strateji tərəfdaşlığa dair Birgə Bəyanat imzalandı. Bu bəyanat yalnız rəmzi sənəd deyil, o həm diplomatik, həm iqtisadi, həm də hərbi-texniki əməkdaşlıq üçün geniş imkan deməkdir.

Məlumdur ki, Çin bu gün dünyada aparıcı qlobal aktorlardan hesab olunur. Bu baxımdan, Azərbaycanın Çinlə əməkdaşlığı yalnız ölkəmizin iqtisadi maraqlarını təmin etmir, strateji nüfuzunu da artırır. Birgə Bəyanat çərçivəsində diplomatik əlaqələrlə yanaşı, həmçinin biznes, investisiya, nəqliyyat və infrastruktur sahələrində əməkdaşlıq gücləndirilir. Bu, Çin şirkətlərinin Azərbaycana investisiya qoyuluşunu fəallaşdırması, bərpaolunan enerji layihələrinin icrası və digər strateji layihələrin həyata keçirilməsi ilə əyani şəkildə təsdiqlənir.

Xüsusi diqqətçəkən sahələrdən biri enerji və "yaşıl texnologiyalar"dır. Müsahibədə bildirildi ki, artıq Çin şirkətləri Azərbaycanda günəş və külək-elektrik stansiyalarının tikintisinə başlamışlar. Eyni zamanda günəş panellərinin istehsalı üzrə müəssisələrin yaradılması və elektrik avtobuslarının istehsalı üzrə layihələr həyata keçirilir. Bu, ekoloji və iqtisadi layihə olmaqdan əlavə, eyni zamanda Azərbaycanın enerji müstəqilliyinin gücləndirilməsi və texnoloji inkişafının təzahürüdür.

Nəqliyyat sahəsində də Çinlə əməkdaşlıq strateji əhəmiyyət kəsb edir. Xəzər dənizinə və Mərkəzi Asiya ölkələrinə çıxışı təmin edən dəmir yollarının tikintisi və maliyyələşdirilməsi, Zəngəzur dəhlizi (TRIPP) boyunca yükdaşımaların artırılması Azərbaycanın regional nəqliyyat mərkəzi kimi rolunu gücləndirir. Prezidentin sözlərinə görə, bu marşrut yalnız Azərbaycan üçün deyil, həm də Çin və digər regional aktorlar üçün strateji əhəmiyyət daşıyır. Çin və Mərkəzi Asiya ölkələrindən gələn yük axınları Zəngəzur dəhlizi (TRIPP) və Naxçıvan vasitəsilə Avropaya, Cənubi Qafqazdan isə Yaxın Şərq və Fars körfəzinə yönləndiriləcək. Bu, Azərbaycanın tranzit potensialını maksimum istifadə etməsinə imkan verir və iqtisadi mənfəəti artırır.

Hərbi-texniki əməkdaşlıq da strateji tərəfdaşlığın vacib elementidir. Çinlə əldə olunan razılaşmalar çərçivəsində Azərbaycan yeni hərbi texnika və avadanlıqlar alır. Bundan əlavə, birgə müəssisələrin yaradılması üçün işlərə başlanmışdır. Belə əməkdaşlıq iqtisadi və texnoloji sahədə də fayda gətirir. "Əminəm ki, yaxın gələcəkdə həm yeni müqavilələrin, həm də artıq prosesdəki layihələrin həyata keçirilməsinin şahidi olacağıq", - deyə Azərbaycan Prezidenti bildirib.

Daha bir əhəmiyyətli addım Azərbaycanın D-8 təşkilatına üzvlüyüdür. Bu təşkilat 30 ilə yaxın fəaliyyəti ərzində sıralarına yeni üzv qəbul etməmişdi. Azərbaycanın bu quruma yeni üzv olması isə bir tərəfdən ölkəmizin qlobal nüfuzunu, beynəlxalq siyasətdəki əhəmiyyətli rolunu nümayiş etdirdi, digər tərəfdən Azərbaycanın üzvlüyü bu təşkilata həm iqtisadi, həm siyasi baxımdan yeni nəfəs gətirdi. D-8 üzvlərinin ümumi əhalisi 1 milyarddan çox, iqtisadiyyatı 4 trilyon dollardan artıqdır. Bu çərçivədə Azərbaycanın seçilməsi ölkəmizin regional və beynəlxalq səviyyədə etibarlı tərəfdaş kimi tanınmasının göstəricisidir.

Azərbaycanın təşkilatda iştirakı praktik əhəmiyyət kəsb edir. Prezidentin xatırlatdığı kimi, təşkilatın media, iqlim, ekologiya, energetika və nəqliyyat sahələrində bir neçə mərkəzi Azərbaycanda yaradılıb. Bu, ölkəmizin beynəlxalq əməkdaşlıqda fəal rolunu və təşkilat daxilində strateji mövqeyini gücləndirir. Azərbaycan üzv ölkələrlə ikitərəfli və çoxtərəfli formatlarda fəal əməkdaşlıq aparır, layihələr həyata keçirir, regionda güclü iqtisadi və siyasi təsir göstərir.

Prezident İlham Əliyev inanır ki, Çinlə strateji tərəfdaşlıq və D-8 üzvlüyü Azərbaycan üçün uzunmüddətli perspektivdə həm iqtisadi, həm siyasi, həm də regional təhlükəsizlik baxımından mühüm rol oynayacaq. Bu yanaşma Azərbaycanın qlobal miqyasda təsirli aktor kimi çıxış etməsinə imkan yaradır, eyni zamanda regional əməkdaşlıq və inteqrasiyanın inkişafını təmin edir.

### Təhlükəsizlik siyasəti: sülh üçün güclü olmalısan

Azərbaycanın xarici siyasətində hərbi güc və təhlükəsizlik prioritetləri xüsusi yer tutur. Prezident İlham Əliyev müsahibəsində vurğuladığı kimi, bugünkü beynəlxalq vəziyyət gücün, təhlükəsizliyin və strateji əməkdaşlığın önəmini daha da artırır. "Kim güclüdür, o da haqlıdır" tezisi sadəcə, fəlsəfi məqam deyil, regiondakı gerçək geosiyasi proseslərin təsdiqlədiyi reallığı əks etdirir.

Belə bir reallıq fonunda Azərbaycan hər zaman güclü və hazırlıqlı dövlət imicini qoruyur. Bu, yalnız müdafiə sahəsində deyil, regional diplomatiyada və beynəlxalq tədbirlərdə də Azərbaycanın mövqeyinin gücləndirilməsi üçün strateji əhəmiyyət kəsb edir. Azərbaycan gücünü davamlı artırır, lakin bunu balanslı və məsuliyyətli şəkildə edir, hərbi güc yalnız qorunma və qarşılıqlı dayanıqlıq üçün istifadə olunur, ölkəmiz hücum xarakterli siyasətdən kənarda durur.

Türkiyə ilə hərbi müttəfiqlik Azərbaycanın strateji mövqeyini gücləndirir. İki ölkə bir-birinə hərbi yardım və texniki dəstək təmin edir, eyni zamanda birgə hərbi təlimlər keçirir. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatı çərçivəsində üzv ölkələr arasında birgə hərbi təlimlərin həyata keçirilməsi təşəbbüsündən də çıxış edir. Bu təşəbbüs həm rəmzi, həm də praktik əhəmiyyət daşıyır: üzv ölkələr arasında əməkdaşlığı gücləndirir, təcrübə mübadiləsini artırır və regional təhlükəsizliyə təminat yaradır.

Prezidentin vurğuladığı kimi, hərbi güc yalnız müdafiə məqsədi üçün vacib deyil, eyni zamanda diplomatik mövqeni də möhkəmləndirir. Azərbaycan öz gücünü regionda sabitliyin təmin olunması və münaqişələrin həllində konstruktiv rol oynamaq üçün istifadə edir. Hərbi gücün artırılması və müttəfiqlik siyasəti həm də beynəlxalq hüquq çərçivəsində həyata keçirilir. Prezident İlham Əliyev qeyd edir ki, Azərbaycanın hərbi addımları beynəlxalq hüquq və ərazi bütövlüyü prinsiplərinə sadiqlik əsasında aparılır. Heç bir ölkəyə qarşı təcavüz və işğal siyasəti mövcud deyil. Bu yanaşma Azərbaycanın regionda etibarlı tərəfdaş kimi qəbul edilməsinə səbəb olur.

Dövlət başçısı müsahibəsinin sonunda dedi: "Artıq sülh dövrüdür, quruculuq dövrüdür. Biz bu dövrü yaşayırıq. Biz hamımız cəmi beş ay əvvələdək bunu bəlkə də axıra qədər dərk etməmişik: sülh şəraitində yaşamaq nə deməkdir? Amma eyni zamanda yenə də qayıdıram danışdığımız məsələyə. Hər an ayıq olmalıyıq, güclü olmalıyıq. Hər an öz torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq, hazır olmalıyıq və əminəm ki, bundan sonra heç vaxt bir qarış torpağımız heç kimin tapdağı altına düşməyəcək. Bunun üçün həm güc var, həm iradə var, xalqın birliyi var. Güclü Azərbaycan dövləti var".

Bütün bu məqamlar Azərbaycanın xarici siyasətində son dərəcə məsuliyyətli və effektiv strategiyanın təzahürüdür. Bu siyasət ölkəmizin gücünün və diplomatik nüfuzunun artmasına xidmət edir, regional sabitliyin qorunmasına töhfə verir və beynəlxalq səviyyədə Azərbaycanın etibarlı tərəfdaş mövqeyini daha da möhkəmləndirir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Ucarda Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan məktəb istifadəyə verilib







**Ucar şəhər 2 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilib. Qeyd edək ki, təhsil müəssisəsinin 1958-1960-cı illərdə inşa olunan binası ötən müddət ərzində köhnəldiyindən istifadəyə yararsız vəziyyətə düşmüşdü.**

AZƏRTAC xəbər verir ki, bu səbəbdən Heydər Əliyev Fondunun təşəbbüsü ilə 720 şagirdlik yeni məktəb binasının inşasına başlanılıb.

Tikintisi 2025-ci ilin dekabrında başa çatan üçmərtəbəli məktəb 5 korpusdan ibarətdir. Təhsil ocağının fənn kabinetləri və laboratoriyaları zəruri mebel və avadanlıqla, əyani vasitələrlə təchiz edilib.

Şagird və müəllimlərin istifadəsinə verilən sinif otaqları, fizika, kimya, biologiya laboratoriyaları, kompüter, hərbi hazırlıq, tibb, əmək təlimi otaqları, kitabxana, bufet və yeməkxana, akt və idman zalları, açıq idman meydançası tədrisin yüksək səviyyədə həyata keçirilməsini təmin edəcək.

Məktəbin həyətyanı ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb.

## İtalyan ekspert: "Azərbaycan formalaşan əsas və əlverişli geosiyasi planda etibarlı tərəfdaşdır"



**"Azərbaycan bu gün Mərkəzi Asiyanı Qərblə birləşdirən, formalaşan əsas və əlverişli geosiyasi planda etibarlı tərəfdaşdır".**

Bu barədə AZƏRTAC-a açıqlamasında İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti, beynəlxalq ekspert Karlo Marino bildirib.

Onun sözlərinə görə, Azərbaycan qlobal geosiyasi qeyri-sabitlik fonunda getdikcə strateji əhəmiyyət kəsb edən və Orta dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas halqasıdır.

Ekspert qeyd edib ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi - Qafqazın kəsişməsində yerləşməsi, Xəzər dənizinə çıxışı və Gürcüstan və Türkiyə ilə sərhədlərinin olması Mərkəzi Asiya və Avropa bazarları arasında dayanıqlı logistika zəncirlərinin inkişafı üçün unikal şərait yaradır.

Karlo Marino vurğulayıb ki, Azərbaycan İtaliya və Türkiyə vasitəsilə Qərblə ticarət, logistika və enerji əməkdaşlığını fəal şəkildə təşviq edir. O qeyd edib ki, 2020-ci il müqavilələrinə uyğun olaraq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası və Türkiyə arasında birbaşa əlaqəni təmin edəcək Zəngəzur dəhlizinin həyata keçirilməsi xüsusilə vacibdir.

Ekspert həmçinin irimiqyaslı enerji layihələrinin həyata keçirilməsinin mümkünlüyünü artıq sübut edən Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi"nin uğurlu fəaliyyətini də qeyd edib.

"Siyasi məqsədəuyğunluq, təhlükəsizlik və aktiv infrastruktur inkişafı kimi meyarlara əsaslanaraq, Azərbaycan-Gürcüstan-Türkiyə oxunun hazırda alternativi yoxdur", - deyə Karlo Marino qeyd edib. O əlavə edib ki, digər marşrutların mövcudluğuna baxmayaraq, Azərbaycan hazırda Qərbin sanksiyalarla dolu və ya geosiyasi cəhətdən qeyri-sabit marşrutlara etibar etmədən Mərkəzi Asiyanı Avropaya inteqrasiya etmək strategiyasında əvəzsiz rol oynayır.




# Azərbaycandan dünyaya mesajlar

## Ötən il də ölkəmiz beynəlxalq tədbirlərin etibarlı ünvanı kimi diqqət çəkdi

*Əvvəli 1-ci səh.*

Bu tədbirlərin bir çoxunun həm də Azərbaycanın qüdrətinin, sülh təşəbbüslərinin, quruculuq və qayıdış zəfərlərinin rəmzi olan Qarabağda keçirilməsi isə xüsusi hal kimi vurğulanmalıdır. Ötən il Laçında üç qardaş ölkənin - Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Zirvə görüşünün, Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17- ci Zirvə görüşünün, Ağdamda ECO Gənclər Forumunun, Laçında ECO Qadınlar Forumu və Şuşada 6-cı ECO Biznes-Forumunun təşkil edilməsinin özü rəmzi məna daşıyırdı. Bu, ilk növbədə Azərbaycan həqiqətlərinin, Qarabağ zəfərinin beynəlxalq platformalar vasitəsilə bir daha dünyaya bəyanı demək idi.

### Quruculuq işləri, logistika imkanları, yüksəksəviyyəli şərait

Qarabağ və Şərqi Zəngəzura səfər edən xarici dövlət, hökumət başçıları və digər beynəlxalq qonaqlar həm işğal dövründə bu ərazilərdə törədilən vandalizm aktlarının şahidi oldular, həm də Azərbaycan dövlətinin qısa zaman ərzində bu yerlərdə həyata keçirdiyi mühüm quruculuq və bərpa işlərinin, logistika imkanlarının, yaradılan yüksəksəviyyəli şəraitin şahidinə çevrildilər.

Yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev bu məqama da xüsusi diqqət çəkdi: "Ölkəmizdə beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında təbii ki, Xankəndidə keçirilən ECO Zirvə Görüşünü qeyd etməliyəm. Əsas tədbir orada - Xankəndidə keçirilmişdir, amma işğaldan azad edilmiş digər şəhərlərdə - Şuşada, Laçında, Ağdamda bizim təşəbbüsümüzlə üç forum keçirilmişdir: Biznes-Forum, Gənclər Forumu, Qadınlar Forumu".

Dövlətimizin başçısı söylədi ki, biz istəyirdik ki, gələn qonaqlar azad edilmiş torpaqların bütün olmasa da, böyük hissəsini görsünlər və biz buna hazır idik: "Doqquz dövlət və hökumət başçısını biz Xankəndidə, Ağdamda, Şuşada qəbul etməyə hazır idik. Mövcud olan infrastruktur, konfrans zalları, hotellər və digər lazım olan amillər bu imkanı bizə yaratmışdır".

Ötən il 28 May - Müstəqillik Günündə həm strateji baxımdan mühüm əhəmiyyət kəsb edən Laçın Beynəlxalq Hava Limanının açılışı həyata keçirildi, həm də qardaş ölkələr olan Azərbaycan, Türkiyə və Pakistanın liderlərinin Laçında Zirvə görüşü keçirildi. Laçında Prezident İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan Baş naziri Məhəmməd Şahbaz Şərifin Zirvə görüşü dünyaya üç qardaş ölkənin sarsılmaz birliyinin, həmrəyliyinin nümayişi oldu.

Laçın Zirvə görüşündəki çıxışı zamanı Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan, Türkiyə və Pakistan hər zaman suverenlik, ərazi bütövlüyü və ədalət tərəfində olub: "2020-ci ildə 44 günlük Vətən müharibəsinin ilk günlərindən etibarən Türkiyənin və Pakistanın ölkəmizə göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığımızı bildiririk. Azərbaycan da öz növbəsində daim Türkiyənin və Pakistanın yanında olub. Bu gün biz bir daha xalqlarımızın birliyini təsdiqləyirik".

Sözügedən tarixdə Şərqi Zəngəzur torpağında Azərbaycan, Türkiyə və Pakistan liderlərinin iştirak etdikləri 28 May - Müstəqillik Gününə həsr olunmuş konsertdə Prezident İlham Əliyev onu da dedi ki, ikinci üçtərəfli Zirvə görüşündə bir daha bizim strateji əməkdaşlığımız təsdiqləndi.

### Xankəndi - yeni inkişaf və sülh mərkəzi

Ötən il iyulun 3-4 tarixlərində dünyanın gözü Azərbaycana, ölkəmizdə keçirilən növbəti beynəlxalq əhəmiyyətli tədbirə yönəlmişdi. Həmin tarixdə Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının "Davamlı və İqlimə dayanıqlı Gələcək naminə ECO-nun Yeni Baxışı" mövzusuna həsr edilmiş 17-ci Zirvə görüşü keçirildi. Bu görüşdən əvvəl isə - iyulun 1-də Ağdamda ECO Gənclər Forumu, iyulun 2-də isə Laçında ECO Qadınlar Forumu və Şuşada 6-cı ECO Biznes-Forumu təşkil edildi.

Türkiyə, Pakistan, Özbəkistan, İran, Qırğızıstan, Tacikistan, Şimali Kipr Türk Cümhuriyyəti liderlərinin və təşkilata üzv ölkələrin hökumət nümayəndələrinin iştirak etdiyi ECO-nun 17-ci Zirvə görüşündə mühüm fikirlər səsləndirildi, çağırışlar edildi.

Görüşdə ECO-ya üzv dövlətlərin liderləri və hökumət başçıları Azərbaycanın təşkilat daxilindəki mühüm rolunu, iqlim dəyişikliyi ilə mübarizədə səylərini vurğuladılar. Həmçinin ölkəmiz tərəfindən bu beynəlxalq əhəmiyyətli tədbirin yüksək səviyyədə təşkil edilməsi, göstərilən qonaqpərvərlik təqdir olundu və Zirvə görüşünün məhz azadlığına qovuşdurulan Xankəndidə keçirilməsinin xüsusi məna daşıdığı qeyd edildi.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Zirvə görüşünün keçirildiyi Xankəndi şəhərinin Qafqaz regionunda yeni inkişaf və sülh mərkəzinə çevriləcəyini vurğuladı: "Tədbirimizin işğaldan azad edilmiş bir şəhərdə - Xankəndidə keçirilməsi Zirvə görüşümüzə xüsusi bir əhəmiyyət və məna qazandırır. İlham qardaşımın uzaqgörən yanaşması ilə bu qədim şəhərin Qafqazın yeni inkişaf və sülh mərkəzi olacağına ürəkdən inanıram".

İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü nəticəsində qəbul edilmiş Xankəndi Kommünikesini eyni zamanda burada müzakirəsi aparılan məsələləri ECO-nun gələcək yol xəritəsi kimi dəyərləndirsək, yanılmarıq.

Xankəndi Kommünikesində Azərbaycanın işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı bərpa və quruculuq işləri yüksək qiymətləndirilib, Ermənistandan qovulmuş azərbaycanlıların öz doğma yurdlarına ləyaqətli qayıdış hüququ bir daha təsdiqlənib, Zirvə görüşünün mövzusuna uyğun olaraq, ECO-nun gələcək gündəliyində iqtisadi dayanıqlılıq və iqlimə davamlılıq əsas prioritetlər kimi müəyyən edilib və digər vacib məsələlər sənəddə öz yerini tutub.

Regional əməkdaşlığa, tərəqqiyə xidmət edən həmrəylik tədbiri kimi tarixə düşən ECO-nun 17-ci Zirvə görüşündə Prezident İlham Əliyev söylədi ki, Xankəndi Zirvə görüşü bizim dostluğumuzun daha bir bariz nümunəsinə çevrildi: "Əminəm ki, səsləndirilən fikirlər və təkliflər katiblik tərəfindən ümumiləşdiriləcək və ECO-nun gələcək fəaliyyətində, o cümlədən 2026-2035-ci illər üçün inkişaf sənədinin hazırlanmasında nəzərə alınacaq".

Yeri gəlmişkən bildirək ki, 2023-cü il oktyabrın 5-də İranın Ərdəbil şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin turizm nazirlərinin 5-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2026-cı il üçün "İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı" elan edilib. 2024-cü ildə Prezident "Şuşa şəhərinin 2026-cı il üçün "İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı" elan edilməsi ilə bağlı tədbirlər haqqında sərəncam" imzalayıb.

### Türk dünyasının birliyini əks etdirən Zirvə

Ötən il ölkə həyatında baş verən vacib hadisələrdən biri oktyabrın 7-də Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşünün keçirilməsi oldu. "Regional sülh və təhlükəsizlik" mövzusuna həsr edilən və qurumun üzv və müşahidəçi ölkələrinin dövlət və hökumət başçılarını, eləcə də onların nümayəndə heyətlərini bir araya gətirən Qəbələ Zirvəsi regionda, həmçinin qlobal səviyyədə aktual məsələlərin müzakirə edildiyi platforma kimi diqqət çəkdi. 12-ci Zirvə görüşü ölkələrimiz arasındakı əməkdaşlığı gücləndirməyə, həmçinin türk dünyasında birliyi, sülhü və tərəqqini daha da irəli aparmaq məqsədilə mühüm sənədləri təsdiq etməyə geniş imkan yaratdı. Toplantıda qəbul olunan sənədlər və Zirvə görüşünün Bəyannaməsi təşkilatın qarşıdakı fəaliyyəti üçün strateji istiqamət oldu.

Yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsində Prezident İlham Əliyev tarixi Zirvənin mühüm mahiyyəti barədə dedi: "Bu, bir daha türk dünyasının birliyini əks etdirən bir Zirvə idi və bildiyiniz kimi, bizim təşəbbüsümüzlə qeyri-rəsmi Zirvə görüşləri də keçirilməyə başlamışdır. Birinci qeyri-rəsmi Zirvə Şuşada keçirilmişdir, rəsmi Zirvə Qəbələdə və bu ənənəni indi digər ölkələr də davam etdirirlər".

Qarabağ Zəfərinin 5 illiyi ilə üst-üstə düşən TDT-nin Qəbələ Zirvə görüşündə Azərbaycan lideri 2026-cı ildə I Türkoloji Qurultayın keçirilməsinin 100 illik yubileyinin Türk Dövlətləri Təşkilatı çərçivəsində təntənəli şəkildə təşkil olunmasını təklif etdi. Ümumiyyətlə, dövlətimizin rəhbərinin toplantıdakı çıxışı zamanı səsləndirdiyi vacib əhəmiyyətli təkliflər türk birliyinin əbədi və sarsılmaz olmasına, türk irsinin qorunmasına xidmət edən təşəbbüslər kimi yadda qaldı.

Göründüyü kimi, Azərbaycan dünya əhəmiyyətli, qlobal miqyaslı tədbirlərə uğurla evsahibliyi edir və bütün bunlar ölkəmizin hərtərəfli inkişafından və beynəlxalq nüfuzundan xəbər verir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Azərbaycan-ABŞ əlaqələri hər iki dövlət üçün mühüm əhəmiyyət kəsb edir



*"Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əlaqələr hər iki dövlət üçün mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan hər zaman bu münasibətlərə xüsusi önəm verib, onların inkişafı istiqamətində ardıcıl səylər göstərib və münasibətlər tarixində ümumilikdə yüksələn xətt formalaşıb.*

*Lakin xüsusilə ABŞ prezidenti Barak Obama və onun vitse-prezidenti Co Bayden dövründə, daha sonra isə Co Baydenin prezidentliyi və dövlət katibi Blinkenin fəaliyyəti zamanı ABŞ-nin Azərbaycana münasibəti demək olar ki, köklü şəkildə dəyişib. ABŞ regionda tərəfkeş və qeyri-obyektiv mövqe tutub, nəticədə Azərbaycan-ABŞ münasibətləri faktiki olaraq sıfır səviyyəsinə enib. Aparılan destruktiv siyasət ABŞ-nin regiondakı nüfuzunun ciddi şəkildə zəifləməsinə səbəb olub".*

Bu barədə Milli Məclisin komitə sədri Səməd Seyidov AZƏRTAC-a açıqlama verib.

O bildirib ki, Azərbaycan öz müstəqil və prinsipial siyasətini davam etdirdiyi halda Bayden administrasiyası işğalçı tərəfin mövqeyini dəstəkləyib və separatizmə dəstək siyasətini pik həddə çatdırıb. Prezidentin müsahibələrində də qeyd edildiyi kimi, Co Bayden vaxtilə Azərbaycana qarşı tətbiq edilən 907-ci düzəlişi fəal şəkildə dəstəkləyib və onun müəlliflərindən biri olub.

"Donald Trampın hakimiyyətə gəlməsindən sonra ABŞ-də vəziyyət dəyişməyə başlayıb. Ondan əvvəlki dövrdə ABŞ-nin siyasəti təkcə Qafqazda deyil, ümumilikdə dünyada ciddi böhran içində idi. Zəif və səmərəsiz siyasət Yaxın Şərqdə, Rusiya-Ukrayna münaqişəsində, Avropada və digər regionlarda böyük problemlər yaradıb. Bu səbəbdən münasibətlərin yenilənməsi ABŞ-nin beynəlxalq arenada yenidən güclü və təsirli aktor kimi çıxış etməsi üçün zəruri olub.

Azərbaycan Prezidenti məhz bu mürəkkəb və gərgin dövrdə, ikili standartların və qərəzli yanaşmaların hökm sürdüyü bir şəraitdə prinsipial mövqeyini qoruyub saxlayıb. Azərbaycan beynəlxalq təşkilatlarda mübarizəni davam etdirib, öz mövqeyini açıq şəkildə ifadə edib, zaman göstərib ki, tutulan xətt tamamilə doğru olub", - deyə S.Seyidov vurğulayıb.

Deputatın sözlərinə görə, bu siyasətin Azərbaycan-ABŞ münasibətləri çərçivəsində zirvə nöqtəsi 2025-ci ildə baş verib. Həmin il iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və mövcud siyasi reallıq beynəlxalq səviyyədə təsdiqlənib. ABŞ-nin iştirakı ilə Ağ Evdə, Prezident Donald Trampın birbaşa şahidliyi ilə Ermənistanla sülh müqaviləsi paraflanıb, strateji tərəfdaşlıq xəritəsi hazırlanıb və 907-ci düzəlişin tətbiqi dayandırılıb. Bütün bunlar Azərbaycan Prezidentinin apardığı ardıcıl siyasətin məntiqi nəticəsi kimi qiymətləndirilir.

"907-ci düzəlişin icrası Prezident tərəfindən dayandırılıb, onun tam ləğvi ilə bağlı qərar isə Konqresin səlahiyyətində qalır. Konqresmen Paulina Luna 907-ci düzəlişin tam ləğvi ilə bağlı qanun layihəsi təqdim edib. Layihədə bu düzəlişin ABŞ-nin maraqlarına zidd olduğu, erməni lobbisinin təsiri ilə qəbul edildiyi və Azərbaycan-ABŞ münasibətlərinə ciddi zərər vurduğu açıq şəkildə göstərilib. Bu məsələ təkcə bir konqresmenin təşəbbüsü kimi qiymətləndirilməməlidir. Bu addım ABŞ-nin regionda yenidən nüfuzlu və əhəmiyyətli rol oynamaq niyyətinin göstəricisidir. Xüsusilə Tramp marşrutu (Zəngəzur dəhlizi) çərçivəsində planlaşdırılan layihələr siyasi baxımdan möhürlənmiş sülhün real təminatı kimi dəyərləndirilir. ABŞ bu prosesdə praqmatik siyasət aparır və atılan addımlar təsadüfi xarakter daşımır", - deyə Milli Məclisin komitə sədri vurğulayıb.

# Ağdərənin 4 kəndində sakinlərə evlərinin açarları təqdim olunub

**Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır, məcburi köçkünlər mərhələli şəkildə doğma yurda qayıdırlar. Ağdərə rayonunun təmir-bərpa işlərinin aparıldığı Aşağı Oratağ, Heyvalı, Çapar və Çıldıran kəndləri də daimi sakinlərini qəbul etməyə hazırdır.**









AZƏRTAC xəbər verir ki, yanvarın 9-da Tərtərdən Ağdərə rayonunun Çıldıran, Aşağı Oratağ, Heyvalı və Çapar kəndlərinə ilk köç yola salınıb. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir. İlk mərhələdə Ağdərə rayonunun 4 yaşayış məntəqəsinə 89 ailə (337 nəfər), o cümlədən Aşağı Oratağ kəndinə 31 ailə (119 nəfər), Çapar kəndinə 26 ailə (96 nəfər), Heyvalı kəndinə 19 ailə (74 nəfər), Çıldıran kəndinə isə 13 ailə (48 nəfər) köçürülür. Ağdərənin Aşağı Oratağ, Heyvalı, Çapar və Çıldıran kəndlərinə yola düşən ilk köç karvanı ünvana çatıb. Kəndlərə köçən 89 ailəyə evlərinin açarları təqdim olunub.

Ağdərə rayonuna çatan ailələri Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələrinin də iştirakı ilə onlara mənzillərin açarları təqdim edilib.

Xankəndi şəhərində, Xocalı və Ağdərə rayonlarında Prezidentin xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov və Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Telman Kərimli keçmiş məcburi köçkünləri təbrik edərək, onlara xoşbəxt və firavan həyat arzulayıblar.

Bildirilib ki, köç olan kəndlərdə yaşayış üçün bütün zəruri infrastruktur yaradılıb. Yaşayış evləri bərpa olunub, elektrik, qaz, içməli su, yol və rabitə xətləri istifadəyə verilib. Köçən ailələrin məşğulluq məsələsi isə daim diqqət mərkəzindədir.

Sonra ailələr sevinc hissi ilə yeni evlərində yerləşiblər.

## Keçmiş məcburi köçkünlər sevinc hissi keçirirlər







"Bizim üçün böyük gündür. İllərlə doğma yurdumuzdan uzaqda yaşamışıq, hər gün bu qayıdışın həsrətini çəkmişik. İndi Ağdərəyə qayıdırıq və elə bil yenidən həyata başlayırıq".

Bu sözləri AZƏRTAC-a Ağdərənin Heyvalı kəndinə köç edən keçmiş məcburi köçkün Nuridə Abbasova deyib.

"Bizi doğma torpaqlara qovuşduran Prezidentimizə, ordumuza minnətdarıq. Şəhidlərimizi heç vaxt unutmayacağıq, onların sayəsində bu günləri yaşayırıq", - deyə o bildirib.

Ağdərənin Çapar kəndinə köç edən keçmiş məcburi köçkün Zülfiyyə Əliyeva isə sevincini belə bölüşüb: "Yurdumuzdan uzun illər ayrı düşsək də, ürəyimiz həmişə o yerlərdə olub. Bu gün yenidən doğma torpaqlarımıza qayıdırıq. Sözlə ifadə oluna bilməyən sevinc hissi keçiririk".

"Artıq köçkünlük dövrü bitir, indi doğma torpaqlarda yeni həyata başlayacağıq. Buna görə hər zaman şəhidlərimizə borcluyuq. Ali Baş Komandana, ordumuza minnətdarıq", - deyə Ağdərə sakini bildirib.

# İlin uğurlu yekunları

## Azərbaycan öz maraqlarını qorumaqda qətiyyətlidir



**Yanvarın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə təkcə 2025-ci ildə görülən işlərə hesabat xarakteri daşımırdı. Bu çıxış həm də dövlət başçısının cəmiyyətlə açıq dialoqa, şəffaf idarəetməyə və milli maraqlara söykənən siyasi xəttinə verilən növbəti aydın mesajı idi. Prezident İlham Əliyevin media ilə mütəmadi təması, görülən işlər barədə birbaşa ictimaiyyətə açıqlamalar verməsi artıq Azərbaycanda formalaşmış siyasi ünsiyyət mədəniyyətinin ayrılmaz hissəsinə çevrilib.**

Bu ənənənin əsas mahiyyəti dövlət başçısının xalqla hesablaşması və görülən işlərin məsuliyyətini üzərinə götürməsidir. Məhz bu amil cənab İlham Əliyevi güclü lider kimi fərqləndirən başlıca xüsusiyyətdir. Müasir dünyada güclü siyasi liderlik təkcə qərar qəbul etmək bacarığı ilə deyil, həm də cəmiyyətin etimadını qazanmaq və onu qorumaqla ölçülür.

Müsahibədə Prezident 2025-ci ilin sosial-iqtisadi yekunlarını dəyərləndirərək vurğuladı ki, aparılan islahatlar ardıcıl və sistemli xarakter daşıyır. Sosial rifahın yüksəldilməsi, regionların inkişafı, infrastruktur layihələrin davam etdirilməsi və postmünaqişə dövründə azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işləri dövlət siyasətinin prioritet istiqamətləridir. Bu yanaşma göstərir ki, Azərbaycan dövləti qısamüddətli populist addımlardan deyil, uzunmüddətli strateji planlamadan çıxış edir.

Müsahibədə xüsusilə diqqətçəkən məqamlardan biri də xarici siyasət məsələlərinə geniş yer ayrılması oldu. Prezident İlham Əliyev Azərbaycanın müstəqil, balanslı və milli maraqlara əsaslanan xarici siyasət kursunu ardıcıl şəkildə davam etdirdiyini bir daha bəyan etdi. Regional və qlobal proseslər fonunda ölkəmizin prinsipial mövqeyi, beynəlxalq hüquqa söykənən yanaşması və etibarlı tərəfdaş kimi artan nüfuzu xüsusi vurğulandı.

Amerikadakı anti-Azərbaycan qüvvələrin, erməni lobbisinin fəaliyyəti nəticəsində qəbul olunan 907-ci düzəlişin ABŞ ilə Azərbaycan arasında genişmiqyaslı münasibətlərin qurulmasına imkan vermədiyini qeyd edən dövlət başçısı bu məhdudiyyətin də aradan qaldırıldığını bildirərək demişdir: "Azərbaycan-Amerika münasibətlərinin kontekstində də 2025-ci il tarixi il sayıla bilər. Çünki sirr deyil ki, Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra Amerika-Azərbaycan əlaqələrinin üzərində bir qara bulud kimi mənfur 907-ci düzəliş, necə deyərlər, fırlanırdı və Azərbaycan gənc, müstəqil ölkə olmasına baxmayaraq, Amerika kimi dünya miqyasında birnömrəli dövlətlə lazımi səviyyədə münasibətlər qura bilməmişdi - Amerikadakı anti-Azərbaycan qüvvələrin fəaliyyəti, erməni lobbisinin fəaliyyəti nəticəsində. Azərbaycan tərəfindən belə cəhdlər dəfələrlə göstərilmişdir. Müəyyən mərhələlərdə münasibətlər müsbət istiqamətdə inkişaf edirdi. Ancaq mövcud məhdudiyyətlər, xüsusilə Ermənistan-Azərbaycan müharibəsinin davam etməsi Amerikadakı söz sahiblərinə imkan vermirdi ki, Azərbaycanla genişmiqyaslı münasibətlər qurulsun. Artıq bu məhdudiyyət də yoxdur və bunun təbii ki, iki əsas səbəbi var: birincisi, Ermənistan-Azərbaycan müharibəsinin rəsmən sona çatması, ikincisi, Amerikada Prezident Tramp administrasiyasının hakimiyyətdə olması. Bu administrasiya çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir, Prezident başda olmaq şərti ilə. Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər. Ağ Evdə Prezident Tramp mənim orada iştirakımla keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı".

Dövlətimizin xarici siyasətdə qazandığı nailiyyətlərdən bəhs edən Prezident İlham Əliyev Azərbaycanın D-8 təşkilatına qəbul olunmasını xarici siyasətimizin uğuru kimi dəyərləndirmişdir: "...biz D-8 təşkilatına üzv olduq. Mən bunu da çox böyük nailiyyət kimi qiymətləndirirəm. Çünki bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir. Ona görə bu günə qədər adı da D-8-dir. Yeganə yeni üzv Azərbaycan olmuşdur. Nəzərə alsaq ki, bu təşkilatda müsəlman dünyasının ən böyük ölkələri birləşir, Azərbaycanı dəvət etmək və bizi seçmək, əgər belə demək mümkündürsə, əlbəttə ki, böyük uğur sayıla bilər. Təkcə onu demək kifayətdir ki, bu təşkilatda birləşən ölkələrin ümumi əhalisi bir milyarddan, ümumi iqtisadiyyatı dörd trilyondan çoxdur".

Xarici siyasətdə qazanılan uğurlar ilk növbədə Azərbaycanın sözünün keçərli olması ilə ölçülür. Bu gün Azərbaycan regional təhlükəsizlik, enerji əməkdaşlığı, nəqliyyat-kommunikasiya layihələri baxımından mühüm aktora çevrilib. Ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşan beynəlxalq layihələr yalnız iqtisadi deyil, həm də siyasi sabitliyə xidmət edir. Prezident müsahibəsində bu məqamların açıq və əsaslandırılmış şəkildə izah olunmasını, Azərbaycan diplomatiyasının hansı prinsiplər üzərində qurulduğunu aydın şəkildə ortaya qoydu.

Dövlətimizin diplomatik uğurlarından bəhs edən Prezident İlham Əliyev qeyd etmişdir: "Xarici siyasətlə bağlı digər önəmli nailiyyət Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimizdir. Hesab edirəm ki, bu da nadir hadisə sayıla bilər. Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik. Mən Prezident kimi artıq iki il ardıcıllıqla fəxri qonaq kimi Zirvə görüşlərinə dəvət olunurdum. Amma iştirakımla keçirilən üçüncü Zirvə görüşündə artıq tamhüquqlu üzv seçildik. Əlbəttə ki, bu gün təkcə bizim bölgəmiz üçün yox, dünya üçün Mərkəzi Asiya-Azərbaycan birliyi və C5-in C6-ya çevrilməsi böyük əhəmiyyət daşıyır. Çünki bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır".

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışında əsas diqqətçəkən mühüm cəhətlərdən biri də milli maraqlardan heç bir halda geri çəkilməmək prinsipinin qətiyyətlə ifadə olunması idi. Bu həm daxili auditoriya, həm də beynəlxalq ictimaiyyət üçün aydın mesajdır: Azərbaycan öz suverenliyini, müstəqilliyini və strateji maraqlarını qorumaqda qətiyyətlidir.

Qəzza zolağında mümkün beynəlxalq missiyalarda Azərbaycanın iştirakı ilə bağlı yayılan məlumatlara da münasibət bildirərək "Azərbaycanın hüdudlarından kənarda döyüşlərdə iştirak etmək mənim tərəfimdən, ümumiyyətlə, nəzərdə tutulmur" deyən dövlət başçısı bildirib ki, biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik: "Bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq. Heç kim bizi müdafiə etmirdi. O cümlədən Fələstinə bütün hörmətimə və dərdlərinə şərik olmağıma rəğmən. Axı Fələstin də bizi elə də müdafiə etmirdi. Bəli, İslam Əməkdaşlıq Təşkilatının hamının dəstəklədiyi qətnamələri var idi. Biz buna görə bütün ölkələrə minnətdarıq, eynilə Azərbaycan da həm BMT-də, həm Qoşulmama Hərəkatında, həm də İslam Əməkdaşlıq Təşkilatında həmişə Fələstini və Fələstin dövlətinin yaradılmasını dəstəkləyib. Azərbaycanda Fələstinin səfirliyi də fəaliyyət göstərir, həm də Azərbaycanın maliyyə yardımı sayəsində. Ona görə də mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir".

Nəticə etibarilə yanvarın 5-də verilən bu müsahibə Prezident-xalq ünsiyyətinin növbəti nümunəsi olmaqla yanaşı, Azərbaycan dövlətinin gücünü, siyasi sabitliyini və uğurlu inkişaf modelini bir daha nümayiş etdirdi. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin əsasında real nəticələr, milli maraqlara sədaqət və xalqın etimadı dayanır. Məhz bu vəhdət Azərbaycanın bu gününü sabit, sabahını isə daha güclü edir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Xəzər artıq sərhəd deyil

### Ölkəmiz Cənubi Qafqazı və Mərkəzi Asiyanı vahid geosiyasi məkana çevirir

**Azərbaycanın Mərkəzi Asiya regionu ilə strateji tərəfdaşlığı müasir xarici siyasətimizin ən mühüm istiqamətlərindən biridir. Ölkəmiz iki önəmli regionun - Cənubi Qafqaz və Mərkəzi Asiyanın vahid geosiyasi məkana çevrilməsi prosesinin təşəbbüskarı, lokomotiv gücü və böyük coğrafiyaları birləşdirən geostrateji körpüdür. Məhz Azərbaycanın müəllifi olduğu bu tərəfdaşlıq sayəsində Xəzər dənizi bir sərhəd deyil, regionları birləşdirən daxili gölə və təhlükəsizlik zonasına çevrilməkdədir. Bu, xüsusilə böyük güclərin rəqabət apardığı bir dövrdə region dövlətlərinin xarici təzyiqlərə qarşı kollektiv müqavimət gücünü artıran önəmli prosesdir.**

Bölgədə mühüm aktor kimi qəbul edilən Azərbaycan Mərkəzi Asiyanın ayrı-ayrı ölkələri ilə ikitərəfli əməkdaşlıq etməklə yanaşı, regional təşkilatlar çərçivəsində də sözügedən bölgə dövlətləri ilə qarşılıqlı iş birliyindədir. Azərbaycanın strateji məqsədlərə söykənən diplomatiyasının növbəti uğurlarından biri 2025-ci il noyabrın 16-da Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsi oldu. Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistandan ibarət Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Şurası (C5) Azərbaycanın da iştirakı ilə C6 platformasına çevrildi. Beləliklə, Azərbaycanın Mərkəzi Asiya regionuna açar və qapı rolunu oynayacaq yeganə etibarlı ölkə olması statusu rəsmən təsdiqləndi. Bu, coğrafi sərhədlərin siyasi inteqrasiya ilə aşılmasının, Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə çoxsaylı iqtisadi, enerji və nəqliyyat layihələrində fəal iştirakının göstəricisidir. Həmçinin Azərbaycanın regionun geosiyasi xəritəsində həm Qərb, həm də Şərqlə etibarlı və strateji tərəfdaş kimi çıxış etdiyinin bariz nümunəsidir. Cənubi Qafqaz dövləti olan Azərbaycanın bu şuraya daxil edilməsi o deməkdir ki, Mərkəzi Asiya liderləri Azərbaycanı "kənar tərəfdaş" deyil, regionun ayrılmaz parçası kimi qəbul edirlər.

Azərbaycanın geosiyasi körpü rolu sadəcə, coğrafi təsadüf deyil, həm də son onilliklərdə yürüdülən məqsədyönlü strateji xəttin nəticəsidir. Bu mühüm məqama Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı da toxundu. Dövlət başçısı haqlı olaraq Azərbaycanın Mərkəzi Asiyanın Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsini xarici siyasətimizin ən önəmli nailiyyətlərindən biri kimi qələmə verdi və bunu nadir hadisə kimi qiymətləndirdi: "Təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik. Mən Prezident kimi artıq iki il ardıcıllıqla fəxri qonaq kimi Zirvə görüşlərinə dəvət olunurdum. Amma iştirakımla keçirilən üçüncü Zirvə görüşündə artıq tamhüquqlu üzv seçildik. Əlbəttə ki, bu gün təkcə bizim bölgəmiz üçün yox, dünya üçün Mərkəzi Asiya-Azərbaycan birliyi və C5-in C6-ya çevrilməsi böyük əhəmiyyət daşıyır. Çünki bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır. Təbii ki, coğrafi nöqteyi-nəzərdən digər marşrutlardan da istifadə oluna bilər. Ancaq mövcud geosiyasi vəziyyəti nəzərə alaraq tam qətiyyətlə deyə bilərik ki, Qərb üçün alternativ marşrutlar məqbul sayıla bilməz. Ona görə bizim rolumuz, yəni canlı körpü və etibarlı tərəfdaş kimi, artıq böyük layihələri icra edə bilən ölkə kimi təbii ki, artacaq və biz bunu artıq praktik həyatda görürük".

Cənab Prezidentin qeyd etdiyi "canlı körpü" ifadəsi Orta dəhlizin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) effektivliyini təmin edən əsas halqaya işarədir. Azərbaycan dəniz, dəmir yolu və avtomobil yollarını vahid şəbəkədə birləşdirərək Mərkəzi Asiya ölkələri, xüsusilə Qazaxıstan və Özbəkistan üçün səmərəli çıxış yaradır. Xəritəyə nəzər salsaq, Avrasiya materikində Şərqlə Qərbi birləşdirən bir neçə marşrut var. Rusiya ərazisindən keçən Şimal marşrutu Rusiya-Ukrayna müharibəsi, sanksiyalar və siyasi gərginlik səbəbindən kifayət qədər riskli hesab olunur. İran və Əfqanıstan üzərindən keçən Cənub marşrutu da eyniylə qeyri-sabitlik və infrastruktur çatışmazlığı ilə üz-üzədir. Mərkəzi Asiya dövlətlərinin Avropaya, dünyaya ən etibarlı və təhlükəsiz çıxışı bölgənin təhlükəsizlik adası sayılan Azərbaycan üzərindəndir. Xəzər dənizini aşan hər bir yük mütləq şəkildə Azərbaycanın logistik qovşaqlarından keçməlidir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı və Bakı-Tbilisi-Qars dəmir yolu bu coğrafi üstünlüyü real iqtisadi alətə çevirən əsas elementlərdir. Məhz bu reallıq Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini artırır və digər regionlar üçün cəlbedici hala gətirir. Prezident müsahibəsində bu önəmli məqama da diqqət yönəldib: "Ərazimizdən keçən yüklərin sayı artır. İlk dəfə olaraq artıq 100 min konteyner Azərbaycan ərazisindən keçib. Bu ancaq başlanğıcdır, onların sayı dəfələrlə artacaq və hazırda biz öz nəqliyyat infrastrukturumuzu genişləndirmək üçün fəal işləyirik".

Mərkəzi Asiya ilə əlaqələr Azərbaycanın enerji diplomatiyasını da yeni səviyyəyə qaldırır. Artıq ölkəmiz öz resurslarını deyil, həm də Türkmənistan qazını, Qazaxıstan neftini və Özbəkistanın "yaşıl enerji" resurslarını da dünyaya çıxaran qlobal distribütor rolunda çıxış edir. Xəzərin dibi ilə çəkilən kabellər və boru kəmərləri Azərbaycanı həm də Mərkəzi Asiyanın "Qərbə açılan yeganə pəncərəsi" statusunda möhkəmləndirir. Strateji tərəfdaşlıq həm də "iqtisadi nüfuz dairəsi" deməkdir. Azərbaycanın Özbəkistan, Qazaxıstan və Qırğızıstan ilə yaratdığı birgə investisiya fondları ölkəmizin regional investor statusuna yüksəldiyini göstərir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda Mərkəzi Asiya ölkələrinin iştirakı bu tərəfdaşlığın həm də mənəvi-strateji bağlılığının və sadiqliyinin nümayişidir.

Şərqlə Qərb arasındakı yük axını Azərbaycan və Mərkəzi Asiya arasında logistik koordinasiya olmadan mümkün deyil. Bu tərəfdaşlıq Azərbaycanı tranzit ölkədən qlobal təchizat zəncirinin vazkeçilməz idarəçisinə də çevirir. Eyni zamanda Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə qurduğu hərbi, siyasi və mədəni bağlar türk dünyasının strateji dərinliyini formalaşdırır. Mərkəzi Asiyanın beş dövləti və Azərbaycanın bir blok kimi çıxış etməsi qlobal güclərlə münasibətlərdə daha əlverişli şərtlər diktə etməyə imkan verir. Bu, artıq "parçala və hökm sür" siyasətinə qarşı "birləş və inkişaf et" strategiyasının uğurudur.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

## "Prezident İlham Əliyevin kursu türk dünyasının möhkəmlənməsinə sanballı töhfədir"

**"Prezident İlham Əliyevin gələcəyə yönəlmiş siyasəti regionda kommunikasiyaların bərpası və Orta dəhlizin inkişafı səylərinin əsas tərkib hissəsidir. Bu baxımdan Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb bölgələri arasında marşrutun açılması xüsusilə əhəmiyyətlidir".**




Bu fikri Türkiyənin Azərbaycandakı sabiq səfiri və "İMZA" Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyədəki nümayəndəsi Hulusi Kılıç AZƏRTAC-a verdiyi müsahibədə bildirib.

Onun sözlərinə görə, gələcək marşrutun Zəngəzur dəhlizi, yoxsa Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) adlanması heç bir əhəmiyyət daşımır. "Əsas məsələ yeni marşrutdan Azərbaycanın maraqları nəzərə alınmaqla istifadə etməkdir. Azərbaycanın qərb bölgələri ilə Naxçıvan arasında yük və sərnişin daşınması heç bir maneə ilə üzləşməməlidir. Bu, dəmir yolu xidmətinə də aiddir", - deyə o vurğulayıb. Diplomat iki qardaş ölkə arasında davamlı bir sistem yaradacaq və qlobal ticarət, o cümlədən türk dövlətləri arasında yeni imkanlar açacaq Qars-Naxçıvan dəmir yolunun tikintisinin başlamasına da diqqət çəkib.

"İMZA"nın nümayəndəsi Orta dəhliz boyunca ticarət və iqtisadi əlaqələrin inkişafının türk dünyasının möhkəmlənməsinə və rifahın artmasına güclü təkan verəcəyinə əminliyini ifadə edib.

H.Kılıç qeyd edib ki, qlobal səhnədəki ciddi dəyişikliklər və beynəlxalq hüquq institutlarının virtual hərəkətsizliyi nəzərə alınmaqla, Türk Dövlətləri Təşkilatı (TDT) daxilində birliyin qorunması xüsusilə vacibdir.

O, Azərbaycan Prezidenti İlham Əliyevin türk dövlətləri arasında əməkdaşlığı dərinləşdirmək istiqamətində uzaqgörən təşəbbüslərini "tarixi" və "çox qiymətli" adlandırıb.

Sabiq səfir hesab edir ki, müdafiə TDT ölkələri arasında əməkdaşlığın prioritet sahəsi olmalıdır. "Hər il Azərbaycan ilə Türkiyə arasında çoxsaylı birgə hərbi təlim keçirilir ki, bu da digər türk ölkələri üçün uğurlu nümunədir. Əminəm ki, Ankaranın müdafiə sektorundakı təcrübəsinin regionun ən güclü ordularından biri kimi özünü təsdiq etmiş Azərbaycan Silahlı Qüvvələrinin qurulmasında və gücləndirilməsində faydalı olduğu artıq sübut edilib", - deyə o vurğulayıb.

H.Kılıç həmçinin əlavə edib ki, Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq və dostluq əlaqələri dünyada misilsizdir: "Ankaranın gücü Bakının gücüdür və əksinə. İki ölkənin birliyi hər iki dövlətin maraqlarına və təsirinin artmasına töhfə verir. Prezident İlham Əliyevin kursu Azərbaycanın inkişafı üçün yeganə doğru yoldur və bütün türk dünyasının mövqeyinin möhkəmləndirilməsinə sanballı töhfədir".

# İŞİMİZ, GÜZƏRANIMIZ



# "Qarabağ"dan "qara qızıl" gözləyirik

## Prezident İlham ƏLİYEV: "Biz neft hasilatının sabitləşdirilməsi üzərində işləyirik"

**Hazırda Azərbaycan iqtisadiyyatı güclü dayanıqlılıq nümayiş etdirir. Bunu iki aparıcı reytinq şirkətinin - "Moody's" və "Fitch" şirkətlərinin kredit reytinqimizi yeniləməsi də təsdiqləyir. Ölkəmiz iqtisadi cəhətdən tamamilə müstəqildir, hər hansı bir dəstəkdən, istənilən kreditdən asılı deyil, həmin səbəbdən də bugünkü vəziyyətin qaneedici olduğu qeyd edilir.**

Prezident İlham Əliyevin cari il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bunlar bir daha vurğulanıb. Dövlət başçısı bu barədə belə deyib: "Mən, ümumilikdə, iqtisadi inkişafdan razıyam. Bəli, bizim bir problemimiz var, bu da neft hasilatının təbii azalmasıdır. Bu amil ÜDM göstəricilərinə müəyyən mənfi təsir göstərir. Lakin əgər qeyri-neft və qeyri-qaz sektorunda ÜDM-ə baxsaq görərik ki, 11 ay ərzində 3,2 faiz artım qeydə alınıb, bu da pis göstərici deyil. Bu artım daha yüksək ola bilər və böyük ehtimalla olacaq. Eyni zamanda biz neft hasilatının sabitləşdirilməsi üzərində işləyirik, - bu mümkündür, - və təbii qaz hasilatının artırılması istiqamətində də addımlar atırıq. Bu da iqtisadiyyatımıza əlavə dinamika verəcək və onun böyüməsinə töhfə olacaq. Lakin artım təbii olmalıdır".

Ötən illərdəki çıxışlarında Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, ölkəmizin əsas gəlir mənbəyi "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarıdır və bunu hamı bilməlidir. 1997-ci ilin payızından - "Çıraq" platformasından hasilata başlanandan bəri AÇG yataqlar bloku fasiləsiz olaraq neft verir. Məlumdur ki, bu yataqların hər biri öz hasilatının pik dövrünü yaşayıb və neftin azalması təbiidir. Bununla belə, hasilat davam edir. Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) məlumatına görə, keçən ilin yanvar-sentyabr aylarında "Azəri-Çıraq-Günəşli"dən 6 milyard 183,9 milyon manat vəsait daxil olub.

Əlbəttə, digər neft yataqlarımızın da pik hasilat dövrü xeyli vaxtdır arxada qalıb. Məsələn, 77-ci ildir istismar olunan"Neft Daşları"nın.

Köhnə yataqlarda hasilatı sabit saxlamağın bir sıra yolları var. Yataqda geoloji-texniki tədbirlərin həyata keçirilməsi, ehtiyatlar imkan verərsə, yeni quyuların qazılması, köhnə quyularda cari və əsaslı təmirin aparılması və s. Əlbəttə, bu, mütəxəssislərin vəzifəsidir və istənilən yataqda aparılan işdir.

Hasilatın sabit saxlanılması dövlət başçısının ötən illərdə yenə də qarşıya qoyduğu vəzifədir. Təsadüfi deyil ki, AÇG yataqlarının işlənməsinin 2050-ci ilin əvvəlinədək uzadılması layihəsi - "Yeni əsrin müqaviləsi" də məhz Prezident İlham Əliyevin uzaqgörən enerji siyasətinin ayrılmaz hissəsidir. Bu layihə çərçivəsində 2024-cü ilin aprel ayından başlayaraq "Azəri Mərkəzi Şərqi" (ACE) platformasından neft hasil olunur.

Qeyd edək ki, ACE gündəlik 100 min barelədək neft hasilatı gücündə layihələndirilib. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil ediləcəyi proqnozlaşdırılır. AÇG-nin operatoru olan BP şirkətinin keçən ilin üçüncü rübünün yekunlarına aid məlumatına görə, ACE gündə orta hesabla 24 min barel neft verib.

Beləliklə, "Yeni əsrin müqaviləsi" ölkənin gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün böyük əhəmiyyət daşıyır. Sazişin bir hissəsi olaraq SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) AÇG-dəki iştirak payı yüksəldilib. Beynəlxalq tərəfdaş şirkətlər layihənin icrası dövründə ARDNF-yə 3,6 milyard dollar bonus ödəyəcəklər. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək.

Hasilatın sabit saxlanılmasının və artırılmasının ən başlıca yollarından biri də yeni yataqların istifadəyə verilməsidir. Bu istiqamətdə də yeni addımlar atılır. Məsələn, 2025-ci ilin iyun ayında BP "Qarabağ" neft yatağının işlənməsi üzrə mövcud Risk Xidməti Sazişinə (RXS) və "Əşrəfi-Dan ulduzu-Aypara" (ADUA) sahəsinə aid Hasilatın Pay Bölgüsü Sazişinə (HPBS) qoşuldu. BP bu sazişlərin - RXS və HPBS-in hər birində SOCAR-dan 35 faizlik iştirak payı olaraq hər iki müqavilə üzrə operatordur. Bu sazişlər Xəzərdə mövcud infrastrukturdan ən səmərəli şəkildə istifadə etməyə imkan yaradan yeni işlənmə variantlarını müəyyənləşdirmək istiqamətində BP-nin SOCAR-la əməkdaşlığında növbəti perspektivlər açıb.

Konkret olaraq "Qarabağ" neft yatağına gəldikdə, burada ilk addım kimi dənizdibi sensor qovşaqlarla (OBN) tədqiqat, eləcə də yüksək və ultra yüksəkdəqiqlikli tədqiqatlardan ibarət seysmik tədqiqat proqramının həyata keçirilməsi planlaşdırılır. Bu tədqiqatlar ümumilikdə bir neçə ay davam edəcək.

OBN tədqiqatının yataq haqqında bilgiləri artıracağı, quyuların planlaşdırılması işlərinə və yatağın işlənmə strategiyalarını optimallaşdırmağa kömək edəcəyi gözlənilir. Yüksək və ultra yüksəkdəqiqlikli seysmik tədqiqatda isə əsas məqsəd quyu bütövlüyünə təsir göstərə biləcək geoloji riskləri, eləcə də platformanın və digər infrastrukturun təhlükəsiz şəkildə quraşdırılmasına maneə yaradan yeraltı təhlükələri müəyyənləşdirməkdir.

Bu seysmik tədqiqat proqramına aid Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) sənədinin layihə variantı keçən ilin oktyabr ayında ictimaiyyətə açıqlanıb və nəzərdən keçirilmək üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilib.

Qayıdaq Prezident İlham Əliyevin sözügedən müsahibəsində neft hasilatının sabitləşdirilməsi haqqında söylədiyi növbəti fikrə. Dövlət başçısı indi xarici borcumuzun ÜDM-in 6+ faizini təşkil edərək tarixdə ən aşağı səviyyədə olduğunu bildirib və rəqəmlərlə bağlı daha bir məqamı da qeyd edərək deyib: "Rəqəmlər, əlbəttə ki, vacibdir, lakin ən önəmlisi insanların gündəlik həyatı və ölkənin iqtisadi imkanlarıdır. Həmçinin aydındır ki, iqtisadiyyat nə qədər böyükdürsə, hər bir faiz artımının dəyəri də bir o qədər yüksək olur. Belə ki, iqtisadiyyatın həcmi təxminən 70-80 milyard ABŞ dolları olduqda, hər bir faiz artımı demək olar ki, 1 milyard dollar edir. Bu 1 milyard dolları cəmi bir il ərzində əldə etmək isə asan məsələ deyil. Bununla belə mən hesab edirəm ki, göstəricilər daha yaxşı ola bilər. Neft hasilatı sabitləşdikdən sonra ÜDM üzrə daha yüksək rəqəmləri görəcəyimizi düşünürəm".

Prezidentimiz əsas məsələnin iqtisadiyyatın əhali üçün daha yaxşı yaşayış şəraiti yaratmağa, azad edilmiş ərazilərin bərpasına, müdafiə qabiliyyətinə investisiya qoymağa və ümumilikdə ölkəmizi daha da gücləndirməyə imkan verməsi olduğunu bildirib.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "Azərbaycan formalaşan əsas və əlverişli geosiyasi planda etibarlı tərəfdaşdır"

**"Azərbaycan bu gün Mərkəzi Asiyanı Qərblə birləşdirən, formalaşan əsas və əlverişli geosiyasi planda etibarlı tərəfdaşdır". Bu barədə AZƏRTAC-a açıqlamasında İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti, beynəlxalq ekspert Karlo Marino bildirib.**

Onun sözlərinə görə, Azərbaycan qlobal geosiyasi qeyri-sabitlik fonunda getdikcə strateji əhəmiyyət kəsb edən və Orta dəhliz kimi tanınan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun əsas halqasıdır.

Ekspert qeyd edib ki, Azərbaycanın əlverişli coğrafi mövqeyi - Qafqazın kəsişməsində yerləşməsi, Xəzər dənizinə çıxışı və Gürcüstan və Türkiyə ilə sərhədlərinin olması Mərkəzi Asiya və Avropa bazarları arasında dayanıqlı logistika zəncirlərinin inkişafı üçün unikal şərait yaradır.

Karlo Marino vurğulayıb ki, Azərbaycan İtaliya və Türkiyə vasitəsilə Qərblə ticarət, logistika və enerji əməkdaşlığını fəal şəkildə təşviq edir. O qeyd edib ki, 2020-ci il müqavilələrinə uyğun olaraq, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası və Türkiyə arasında birbaşa əlaqəni təmin edəcək Zəngəzur dəhlizinin həyata keçirilməsi xüsusilə vacibdir.

Ekspert həmçinin irimiqyaslı enerji layihələrinin həyata keçirilməsinin mümkünlüyünü artıq sübut edən Bakı-Tbilisi-Ceyhan neft kəməri və "Cənub qaz dəhlizi"nin uğurlu fəaliyyətini də qeyd edib.

"Siyasi məqsədəuyğunluq, təhlükəsizlik və aktiv infrastruktur inkişafı kimi meyarlara əsaslanaraq, Azərbaycan-Gürcüstan-Türkiyə oxunun hazırda alternativi yoxdur", - deyə Karlo Marino qeyd edib. O əlavə edib ki, digər marşrutların mövcudluğuna baxmayaraq, Azərbaycan hazırda Qərbin sanksiyalarla dolu və ya geosiyasi cəhətdən qeyri-sabit marşrutlara etibar etmədən Mərkəzi Asiyanı Avropaya inteqrasiya etmək strategiyasında əvəzsiz rol oynayır.

## DSMF-nin ötənilki xərcləri 7,5 milyard manatdan çox olub



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri 2025-ci ildə proqnozla müqayisədə 6 faiz və ya 471 milyon manat çox olmaqla 8 milyard 89 milyon manat təşkil edib.**

Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları ötən il proqnoza nisbətən 8 faiz və ya 455 milyon manat artaraq 6 milyard 453 milyon manat olub.

2025-ci ildə DSMF-nin xərcləri 7 milyard 518 milyon manat təşkil edib ki, bu da əvvəlki ilə nisbətən 9 faiz və ya 629 milyon manat çoxdur.

## Azərbaycanda aktiv ƏDV ödəyicilərinin sayı 10 faizdən çox artıb

**Bu il yanvarın 1-nə Azərbaycanda aktiv vergi ödəyiciləri 859,3 min nəfər olub. Bu barədə "Trend" İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə (DVX) istinadən xəbər verir.**

Məlumata görə, bu, illik müqayisədə 6,5 faiz çoxdur.

Eyni zamanda hesabat dövründə aktiv ƏDV ödəyicilərinin sayı 10,6 faiz artaraq 58,4 min təşkil edib.

Qeyd edilib ki, həmin tarixə aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 7,1 faiz artaraq 232,8 min olub.

## "Azərbaycandan Ermənistana neft məhsullarının tədarükü logistika əlaqələrinin qurulması üçün zəruri prosesin başlanğıcıdır"

**Azərbaycandan Ermənistana neft məhsullarının yeni partiyası göndərilib. Budəfəki partiyaya 1000 ton Aİ-92 markalı benzin, 1000 ton dizel yanacağı və 1800 ton Aİ-95 markalı benzin daxildir.**

İqtisadçı-ekspert İnqilab Əhmədov "Trend"-ə bildirib ki, bu cür tədarüklərdə əsas məqam onların müntəzəmliyi və uzunmüddətli perspektivləridir: "Bunun kifayət qədər qısa zaman kəsiyində baş verməsi müsbət haldır". Onun sözlərinə görə, ciddi və gözlənilməz hallar baş verməzsə, tədarük həcmləri artacaq və zamanla regionda sabit inkişaf edən ticarət balansı formalaşacaq.

İ.Əhmədov qeyd edib ki, bu, artıq logistikanın uzunmüddətli şəkildə yenidən qurulması və Ermənistanla ilk növbədə neft məhsullarının tədarükü sahəsində tərəfdaşlığın inkişafı perspektivləri barədə düşünməyə imkan verəcək.

"Əlbəttə, dəyişikliklər dərhal baş vermir. Azərbaycanın daxili yanacaq təminatının və Ermənistanın tələbatının sabitliyini pozmamaq üçün riayət edilməli olan yanacaq-enerji balansı mövcuddur. Ermənistan bazarı kiçikdir və buna baxmayaraq, yanacaq-enerji 'xəritəsinin' tez bir zamanda yenidən qurulmasından danışmaq hələ tezdir. Hazırda söhbət simvolik ilkin addımlardan gedir. Bütün bunlar vaxt tələb edəcək və regionda həm cənubda, həm də şimalda, eləcə də bütövlükdə Avrasiya məkanında mövcud olan 'tektonik' qeyri-sabitliyi nəzərə alaraq hadisələrin necə inkişaf edəcəyi hələ məlum deyil", - deyə o bildirib.

"Ticarət təkcə malların tədarükü deyil, həm də ölkələrin, hətta mövqeləri hələ tam dostyana olmasa belə, qarşılıqlı asılılığı və əməkdaşlığı əks etdirən daha geniş mənzərədir. Azərbaycan regionda əsas neft məhsulları təchizatçısı kimi tanınır. Hazırda biz simvolik yanacaq-enerji məhsullarının tədarükü ilə başlayırıq ki, bu da Ermənistan istiqamətində SSRİ-nin dağılmasından bəri fəaliyyət göstərməyən logistika xəttinin bərpasını tələb edir. Digər təchizatçıların, o cümlədən Rusiyanın qeyri-sabitliyi fonunda bu cür tədarüklər üçün zaman son dərəcə münasibdir. Bu isə tədarüklərin gələcəkdə genişləndirilməsi və ölkələr arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi perspektivini yaradır", - deyə ekspert vurğulayıb.

O əlavə edib ki, neft məhsullarının tədarükü üzrə ilk addımlar tədricən genişlənəcək və Ermənistan rəhbərliyinin bildirdiyi kimi, digər məhsullarla tamamlanacaq. İ.Əhmədovun sözlərinə görə, bu, xalqlar və dövlətlər arasında münasibətlərin qurulması istiqamətində mürəkkəb, lakin zəruri bir prosesin başlanğıcıdır.

Ekspert bildirib ki, proseslər məhz lazım olduğu kimi inkişaf edir və regionda yanacaq-enerji əməkdaşlığı üçün perspektivlər böyük vədlər verir.

Xatırladaq ki, 21 oktyabr 2025-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata birgə bəyanatda Azərbaycan işğal dövründən mövcud olan Ermənistana yük daşınmasına qoyulan bütün məhdudiyyətlərin aradan qaldırıldığını və ilk belə tranzit yükünün Qazaxıstan taxılının Ermənistana daşınması olduğunu bəyan etmişdi.

Dekabrın 18-də Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) Ermənistana yerli istehsal olunmuş ilk neft partiyasını göndərmişdir.

# Ötən il qeyri-neft sektorunda ixracın dəyəri 3,6 milyard dollara çatıb

## Bu, 8,5 faiz artım deməkdir

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "İxrac icmalı"nın yanvar sayını təqdim edib. İcmala əsasən, ötən il Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri 2024-cü illə müqayisədə 8,5 faiz artaraq 3,6 milyard dollar təşkil edib.**




Hesabat dövründə ixrac olunan şəkər ötən ilə nisbətən 57,4, meyvə-tərəvəz 27,4, alüminium və onlardan hazırlanan məmulatlar 24,2, pambıq iplik 19,3, kimya sənayesi məhsulları 8, çay 3, bitki və heyvan mənşəli piylər və yağlar 2 faiz artıb. Aqrar məhsullar üzrə ixracın dəyəri 26,7 faiz artaraq 1 milyard, aqrar sənaye məhsulları üzrə 314,7 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının dəyəri 1,3 milyard dolları ötüb ki, bu da 18,9 faiz artım deməkdir.

Ötən ilin 11 ayında ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci, pomidor (tomat) ikinci, karbamid üçüncü, noyabr ayı ərzində isə xurma birinci, meşə fındığı ikinci, emal olunmamış, aşqarlanmamış alüminium üçüncü olub. Həmin dövr Rusiya Federasiyasına, Türkiyəyə, İsveçrəyə, Gürcüstana, Ukraynaya ən çox qeyri-neft məhsulları ixrac edilib. Daha çox qeyri-neft məhsulları ixracatçıları sırasında qeyri-dövlət subyektlərinin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company" QSC, "Export Stream" Məhdud Məsuliyyətli Cəmiyyəti, "STP Alüminium" MMC,"TABATERRA"QSC, "UYTROP" Məhdud Məsuliyyətli Cəmiyyəti, "KHAN-EL" MMC ,"P-Aqro" MMC, dövlətə məxsus olan şirkətlərin siyahısında isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Bundan sonra bu siyahıda reytinq üzrə aşağıdakı şirkətlər qərarlaşıblar: "SOCAR Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi,"Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Socar-Dalğıc" MMC, "İstisu" mineral su zavodu MMC, "Azərbaycan Dəmir yolları" QSC, Naxçıvan MR Dövlət Energetika Xidməti təmsil olunublar.

2025-ci ilin yanvar-noyabr aylarında həmçinin Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") xarici ölkələrə 16,4 milyon dollar dəyərində telekommunikasiya xidmətləri göstərib. 41 ölkəyə ixrac olunan xidmətlərdən "Azərkosmos"un əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 66 faizini təşkil edib. Ötən ilin noyabr ayında isə "Azərkosmos" dünyanın 35 ölkəsinə 1,5 milyon dollar dəyərində xidmət ixrac edib.

Hesabat dövründə "Azərkosmos"un xidmətlərindən 4,2 milyon dollarla Birləşmiş Krallıq, 3,2 milyon dollarla Lüksemburq, 1,1 milyon dollarla İsveç, 772 min dollarla Türkiyə, 759,8 min dollarla Nigeriya yararlanıb.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Tarix yazan oğullar



**Vətənin azadlığı uğrunda gedən döyüşlərdə son nəfəsinədək vuruşaraq canından keçmiş şəhidlər heç vaxt unudulmur, həmişə hörmətlə anılır, ehtiramla xatırlanır. Çünki onlar adlarını qanları ilə qəhrəmanlıq tariximizin səhifələrinə yazıblar. Bu cəsur oğullar igidlikləri ilə xalqımızın qəlbində əbədi olaraq yaşayacaqlar.**

# "Cənab leytenant, sən qəlblərdə yaşayırsan"

Xalqımızın, vətənimizin parlaq gələcəyi, torpaqlarımızın erməni işğalından azad olunması naminə həmişə borclu olacağımız vətənpərvər, cəsur oğullarımızdan biri də həmişə adı qürurla, iftixarla çəkilən gənc zabit, 24 yaşında şəhidlik zirvəsinə ucalmış Mirzağa Məmmədbağır oğlu Əliyevdir.

## İki əsgərini xilas etdi, özü şəhid oldu

Doğmalarının, yaxınlarının igidliyi və qəhrəmanlığı ilə öyündüyü leytenant Mirzağa Əliyev qısa, amma şərəf dolu bir ömür yaşayıb. O, 1996-cı il iyunun 15-də Neftçala rayonunun Xıllı qəsəbəsində dünyaya göz açıb. 2002-2011-ci illərdə qəsəbədəki Rafiq Gözəlov adına



1 nömrəli tam orta məktəbdə oxuyub. Hələ kiçik yaşlarından hərbçi olmaq arzusu ilə yaşayan Mirzağa doqquzuncu sinfi bitirdikdən sonra valideynlərinin xeyir-duası ilə 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə üz tutub. Hazırlığı yüksək olduğuna görə ilk addımı uğurlu alınıb, arzusuna qovuşub. Liseyi uğurla başa vurduqdan sonra isə hərbi ali təhsil almaq istəyi ilə 2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olub. Dörd il ərzində bu ali təhsil ocağında hərbçi peşəsinin sirlərinə dərindən yiyələnib. 2018-ci ildə hərbi təhsilini yüksək göstəricilərlə başa vuraraq "leytenant" hərbi rütbəsi alıb. Elə həmin il də "N" hərbi hissəsində taqım komandiri kimi xidmətə başlayıb. Gənc zabit üzərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlib.

27 sentyabr 2020-ci ildə erməni işğalçılarının təxribatı nəticəsində İkinci Qarabağ müharibəsi başlayanda leytenant Mirzağa Əliyevin də komandiri olduğu taqım döyüşlərə atılıb. Onlar Füzuli və Cəbrayıl rayonlarının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə iştirak ediblər. Torpaqlarımızın hər qarışı uğrunda cəsarətlə vuruşublar. Müharibənin onuncu günü - oktyabrın 7-də Füzuli rayonunun Şükürbəyli istiqamətində gərgin keçən əməliyyatdan geri qayıdarkən düşmən onların döyüş maşınını vurub. Özü də ağır yaralanan taqım komandiri leytenant Mirzağa Əliyev iki əsgəri yanan maşından çıxardıb, amma özü şəhid olub. Onun ölümü zabit yoldaşlarını, əsgərlərini dərindən sarsıdıb. Ürəyi arzu və istəklərlə dolu olan Mirzağa Əliyev döyüşçü yoldaşlarının, yaxınlarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə doğulub boya-başa çatdığı Xıllı qəsəbəsində torpağa tapşırılıb.

## Ucalıq zirvəsindən enməyən oğul

Gənc zabitin qəhrəmanlığı layiqincə qiymətləndirilib. Yurdumuzun azadlığı uğrunda gedən döyüşlər zamanı göstərdiyi igidliyə, qəhrəmanlığa görə leytenant Mirzağa Məmmədbağır oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Bu günlərdə şəhidin ailə üzvləri ilə görüşüb söhbət etdik. Cəsur zabitlə bağlı acılı-şirinli xatirələr dilə gəldi. Atası Məmmədbağır kişi kədərli notlara köklənsə də, Mirzağa haqqında qürurla, iftixarla danışdı:

- Xalqımız vətənini, torpağını canından da çox sevir. Tarixin bütün dövrlərində bir-birindən cəsur olan oğulların vətənpərvərliyi, mərdliyi, igidliyi gələ-



cək nəsillərə nümunə olub. İnsanlara qürur və iftixar hissləri aşılayan tarixi ənənə indi də davam etməkdədir. Boyunu sevə-sevə böyütdüyüm oğlum da gələcək nəsillərə nümunə göstəriləcək belə cəsur oğullardan biri oldu. Torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlayan kimi erməni işğalçıları ilə vuruşmaq, yurdumuzu azad etmək üçün cəbhəyə yollandı. On gün erməni qəsbkarları ilə vuruşdu. Neçə-neçə yaşayış məntəqəsinin azad olunması uğrunda gedən döyüşlərdə iştirak etdi. Qəhrəmanlığı, igidliyi ilə ad çıxartdı. Bir payız günündə müdafiəsinə qalxdığı torpaq uğrunda şəhid oldu. Ondan təsəlli tapıram ki, Mirzağa bu gün yalnız mənim deyil, Azərbaycan xalqının övladıdır. Bir evin oğlundan bir elin oğluna çevrilib. Belə bir vətənpərvər övlad böyütdüyümə görə fəxr edirəm. Oğlum cəsarəti, qəhrəmanlığı ilə başımızı uca etdi. Mirzağa bu ucalıq zirvəsindən heç vaxt enməyəcək.

## Səsində bir qucaq sevinc olan igid

Şəhidin atası Məmmədbağır Əliyev İkinci Qarabağ müharibəsinin davam etdiyi günləri xatırlayaraq dedi ki, Mirzağa ilə telefonla danışarkən o böyük ruh yüksəkliyi ilə, sevinə-sevinə döyüşlərin uğurla getdiyini, tezliklə ordumuzun düşmən işğalında olan Qarabağı, eləcə də onun ətrafındakı bütün əraziləri azad edəcəyini bildirirdi: "Bu xəbərlərə o qədər sevinirdim ki! Çox şükürlər olsun ki, oğlumun dediklərinin hamısı gerçəkləşdi. Qarabağ da, onun ətrafındakı rayonlar da erməni qəsbkarlarının tapdağından azad olundu. Bir şeyə çox təəssüfləndim ki, Mirzağa o xoşbəxt günü görmədi. Amma təskinliyi onda tapıram ki, oğlumun ruhu şaddır".

Şəhid övladından yadigar qalmış əşyalara sığal-tumar çəkən, şəkillərini əzizləyib oxşayan Səadət ana oğlu haqqında kövrək səslə danışaraq dedi ki, hələ kiçik yaşlarından övladlarına Vətənin, torpağın müqəddəs olduğunu deyiblər. Onları vətənpərvər igid kimi böyütməyə çalışıblar. Qarabağın ermənilər tərəfindən işğal olunması, insanların amansız işgəncələrə məruz qalması, yurdlarından didərgin salınması onun düşmənə qarşı qisas hissini artırırdı: "Bu onu hərb sənətinə çəkirdi. Ordu sıralarında xidmətini başa vurub geri dönmüş yaxınlarımızın söhbətlərinə qulaq asmaqdan doymurdu. Mirzağa çox inadkar, sözünün üstündə dayanan gənc idi. Məqsədinə çatmaq üçün əziyyətə qatlaşmaqdan belə çəkinməzdi. Özü böyüdükcə ürəyindəki arzuları da böyüyürdü. Arzularına çatmaq üçün hərbi məktəblərə üz tutdu, oxuyub zabit oldu. Onun təhsildə, həyatda qazandığı uğurlar hamımızı sevindirirdi. Riyaziyyatı başqa fənlərdən yaxşı bilirdi. Döyüşçü yoldaşları danışırdılar ki, onun verdiyi koordinatların heç biri hədəfdən yayınmazmış. Xatırlayıram ki, müharibə başlamazdan bir müddət əvvəl keçirilən təlimdən sonra mənə zəng eləmişdi. Aman Allah, onun səsində bol-bol sevinc var idi. Oğlum qürur və iftixar dolu səslə "Ana, bəyəndilər, atışım tam dəqiq oldu" dedi".

## Mirzağa heç vaxt unudulmayacaq, həmişə xatırlanacaq

Bir az kövrələn şəhid anası daha sonra söhbətinə davam edərək dedi ki, ali hərbi təhsilini başa vuranda Mirzağanın buraxılış mərasimində iştirak ediblər. Həmin gün onun xəyalları reallığa çevrilmişdi.

Qardaşı Elçin Əliyev gözlərini Mirzağanın divardan asılmış şəklinə dikib fikrə gedir. Bu anlarda Elçinin gözlərinin dərinliyində qardaş itkisinin ağrı-acısını görməmək mümkün deyildi. Bu kədərli baxışlardan həm də bir məğrurluq və iftixar oxunurdu. Bu yerdə baxışlarımın ona dikildiyini hiss edən Elçin deyir ki, qardaş itirmək ağır dərddir, dözülməz ağrıdır. Yeganə təsəllimiz ondadır ki, Mirzağa torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olub. Erməni qəsbkarları üzərində qazanılan Zəfərdə o da iştirak edib, qan töküb. Canını Vətən uğrunda qurban verib.

Çox gözəl deyiblər ki, müqəddəs amallar uğrunda şəhid olanlar heç vaxt unudulmurlar. Mirzağa da, onun qəhrəmanlığı da heç vaxt unudulmayacaq, həmişə anılacaq, həmişə xatırlanacaq. Yaxınları, doğmaları şəhid Mirzağa Əliyevin qəhrəmanlığı ilə daim fəxr edir, adı ilə qürur duyurlar. Həm də deyirlər: "Cənab leytenant, sən qəlblərdə yaşayırsan".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Ölməzliyə qovuşanlar

# "Qələbə sadəcə, inamdır"

**Belə deyirdi Məhəmmədəli İbrahimli: "Qələbə sadəcə, inamdır"…**
**O, həyata sevgi ilə, gələcəyə ümidlə baxan gənc idi. Qələbəyə inam isə Məhəmmədəlinin ən böyük inancı, amalı, məqsədi idi. Məhəmmədəli İbrahimlinin qalibiyyət düşüncəsinin ön sırasında isə Vətən dayanırdı.**
**Məhəmmədəli İbrahimlinin atası Füzuli rayonunun Cuvarlı kəndindəndir. Ancaq Məhəmmədəli o kəndi, isti ata ocağını görməmişdi. Erməni quldurları 1993-cü ildə onun ata yurdunu işğal etmişdilər. Valideynləri məcburi köçkünlük həyatının məşəqqətlərinə qatlaşmalı olmuşdular.**



## Hamının sevimlisi…

Məhəmmədəli İbrahimlinin anası İlhamə xanım danışır: "Mən beyləqanlıyam. Ancaq qohumlarımızın çoxu Füzulidə yaşayırdı. Həyat yoldaşımla da bibinəvəsi, dayınəvəsiyik. 1992-ci ildə Füzuliyə gəlin köçdüm. Qarabağın ağır günləri idi. Silahlı ermənilər dinc azərbaycanlılara hücum edir, günahsız insanları qətlə yetirirdilər. Azərbaycanın mərd, qeyrətli övladları erməni vəhşiliklərindən, zülm və işgəncələrindən fəryad edən soydaşlarımızın harayına hay verir, torpaqlarımızın işğal olunmaması üçün sinəsini düşmən güllələrinə sipər edirdilər. Həyat yoldaşım Mütəllim Xəlilov da onlardan biri idi. O da könüllü olaraq vətənimizin müdafiəsinə qoşulmuşdu. İndiki kimi güclü, nizamlı ordumuz, silah-sursatımız yox idi. Odur ki, qəsbkar ermənilər Qarabağı işğal etdilər. Yağılar bizim də elimizi, obamızı ələ keçirdilər. Yurdumuzdan didərgin düşdük. Başqa yeri tanımadığımıza görə elə Beyləqanda məskunlaşdıq".

Məhəmmədəli İbrahimli 1996-cı il noyabrın 22-də Beyləqanda dünyaya gəlib. Məhəmmədəli bir yaş səkkiz aylıq olanda Bakıya köçüblər. O, bu şəhərdə uşaq bağçasına gedib. 2003-cü ildə isə Sabunçu rayonunda yerləşən 215 saylı tam məktəbdə təhsil almağa başlayıb.

Ailədə iki qardaş olublar. Məhəmmədəli və ondan iki yaş böyük olan Məhəmməd. Anası Məhəmmədəlinin uşaqlıq illərindən danışır: "Qardaşı ilə xasiyyətcə bir-birlərinə oxşamırdılar. Məhəmmədəli çox ərköyün, küsəyən idi. İstəyirdi ki, hamı onu sevsin, əzizləsin. Evimizin sonbeşiyi idi. Ancaq onu yalnız biz əzizləmirdik, bütün nəslin, qohum-əqrabanın sevimlisi idi Məhəmmədəli. Bu sevgini kiçik yaşlarından özü qazanmışdı".

Təhsil aldığı orta məktəbdə də çox tez fərqlənməyə başlayıb. Dərs əlaçısı, sinif nümayəndəsi olub. Məktəbdə Məhəmmədəliyə dərs deyən müəllimlərin hər biri əmin idi ki, o, hansı fənni, ixtisası seçsə, uğur qazanacaq, fərqlənəcək. Məhəmmədəli İbrahimli kiçik yaşlarından hərbçi olmaq arzusunda idi. O, hələ ibtidai sinifdə oxuyanda təhsil aldığı məktəbin əlaçı şagirdlərinin sırasında olub. Əlaçılardan bəhs edən kitab da çap olunub. Həmin kitabda Məhəmmədəlinin gələcəkdə hərbçi olacağı barədə fikirləri qeyd edilib. Hərbçi olacaq, atasının Birinci Qarabağ müharibəsində döyüşdüyü, yağıların ələ keçirdikləri dədə-baba yurdunu xilas edəcəkdi…

Ancaq anası ona başqa bir ixtisası seçməyi məsləhət görüb. Məhəmmədəli onun sözünü yerə salmayıb. 2014-cü ildə o, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə daxil olub. Ali təhsilini başa vurduqdan sonra universitetdə qalıb.

2018-ci ildə Azərbaycan Dövlət Texniki Universitetində magistr təhsili alıb. Və ixtisası üzrə işə başlayıb. Anası danışır ki, Məhəmmədəli iş yerində qısa müddətdə savadı, bacarığı ilə seçilib, ona etimad göstəriblər: "Amma Məhəmmədəli universitetdə çalışmaq, elmi fəaliyyət göstərmək istəmədi. Bilirəm ki, o, heç mühəndis də



işləməyəcəkdi. Çünki uşaqlıq arzusu qəlbindəydi. Hərbçi olmaq istəyirdi. Şəhid olmasaydı, hərbi xidmətdə qalacaqdı".

## Ən böyük arzusu Xocalının qisasını almaq idi

Uşaqlıqdan atasından çox eşitdiyi Füzulidə və başqa ərazilərimizdə düşmənin at oynatması Vətənin bütün qeyrətli övladları kimi, Məhəmmədəli İbrahimlinin də qüruruna toxunurdu. Ən böyük arzusu Xocalının qisasını almaq, Qarabağın, Şərqi Zəngəzurun bütün ərazilərini Ermənistan silahlı qüvvələrinin işğalından xilas etmək və ata yurdu Füzuliyə getmək idi.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda Məhəmmədəli İbrahimli üç ay idi ki, hərbi xidmətdə idi. Anası deyir ki, o, hələ universitetdə oxuduğu illərdə kəşfiyyatçı olmaq üçün kursa yazılmışdı: "Müharibənin başlaması xəbərini eşitdiyim gündən yuxum ərşə çəkildi. Gecə-gündüz cəbhədə döyüşən bütün əsgər və zabitlərimizə dua edirdim. Həyəcanla televiziya vasitəsi ilə yayımlanan xəbərləri izləyirdim. Məhəmmədəli telefon əlaqəsi saxlayırdı. Ancaq çox qısa danışırdı. Ölüm-dirim savaşında olduğunu, qızğın döyüşlərdə iştirak etdiyini mənə söyləmirdi. Ona ehtiyatlı olmağı tapşıranda cavab verirdi ki, mən heç hara getmirəm ki… Ya da deyirdi ki, ana, böyürtkən yeyirəm…"

Məhəmmədəli İbrahimli oktyabrın 3-də Suqovuşanın işğaldan azad edilməsi uğrunda gedən döyüşdə qolundan və ayağından yaralanır. Ailəsinin xəbər tutmasını, narahatlıq keçirməsini istəməyib. Anası deyir: "Yaxın dostu ilə telefonla danışanda deyib ki, yaralanmışam, hospitaldayam, qardaşıma demə. Dostunun gizlətməyə ürəyi gəlməyib. Bacımın həyat yoldaşına zəng edib. Deyib ki, Məhəmmədəli mənə and verdi, ona görə də qardaşına deyə bilmərəm… Məhəmmədəli yaralanıb… Məhəmmədəli Bərdədə xəstəxanada müalicə olunurdu. Oktyabrın 4-ü qardaşı getdi. Məhəmməd ora çatanda, telefonu Məhəmmədəliyə verdi. Onunla görüntülü danışanda huşumu itirdim. Mənə ürəkdirək verdi ki, bax, görürsən, sağam, narahat olma, gəl. Oktyabrın 5-də mən də Bərdəyə yollandım. Məhəmmədəli oktyabrın 18-dək xəstəxanada qalmalı idi. Amma 4 gündən sonra, oktyabrın 7-də cəbhəyə qayıdıb".

Oktyabrın 12-si axşam saat 8-in yarısı Məhəmmədəli zəng edib. Anası ilə danışanda onu arxayınlaşdırıb ki, üç gün sənə zəng etməyəcəyəm… Anası göz yaşları içində xatırlayır: "Tapşırdım ki, özünü gözlə… Son danışığında da dedi ki, ana, narahat olma, fikir eləmə, hər şey yaxşı olacaq, bircə üç gün məni gözlə, üç gün sonra xəbər alacaqsan… Oktyabrın 13-ü səhər saat 6 idi. Gördüm Məhəmməd ağlayır. Dedi ki, ana, gecə Məhəmmədəlini yuxuda görmüşəm, qardaşıma nəsə olub. Ona təsəlli verdim ki, nə olacaq Məhəmmədəliyə? Onu inandıra bilmədim. Cavab verdi ki, sən nə deyirsən de… Məhəmmədəliyə nəsə olub... İki qardaş əkiz kimi idilər. Bir-birləri ilə nəfəs alırdılar".

## İndi Vətəndir adın..

Məhəmmədəli İbrahimli müharibənin ilk günündən şiddətli döyüşlərdə iştirak edib. Talış kəndi yüksəkliyindən başlayan döyüş yolu oktyabrın 13-də Ağdərə istiqamətində ən uca məqamla sona çatıb. Məhəmmədəli İbrahimli şəhid olub. Dörd gün sonra onun ata yurdunu - Füzuli rayonunun Cuvarlı kəndini qəhrəman Azərbaycan Ordusu işğaldan azad edib.

Qəhrəman şəhidin nəşini döyüş ərazisindən götürmək mümkün olmayıb. Anası yana-yana danışır: "Altmış üç gün onu axtardılar. Oğlumun şəhid olduğu əraziyə döyüşçülərimiz girə bilmirmişlər. O müddətdə nələr çəkdim… Mənə balamın şəhid olduğunu demirdilər. Hamı bilirmiş. Mənə isə deyirdilər ki, Məhəmmədəli kəşfiyyatçı olduğu üçün danışa bilmir, hərbi sirdir. Mən onun sağ-salamat dönməsini gözləyirdim. Dekabrın 15-də oğlumun nəşini gətirdilər. Torpağa tapşırdılar. Ancaq dəfnini görsəm də, yasını saxlasam da, mən indi də onu sağ gözləyirəm. Məhəmmədəlidən sonra heç yerə getmirəm. Evdən, demək olar ki, çıxmıram. Günümün çox hissəsini onun muzeyinə çevirdiyimiz bu otaqda keçirirəm. Ancaq onun şəhid olduğu yerə getmək ən böyük arzum idi. Getdim… Qəbələdən olan döyüş yoldaşı ilə telefonla görüntülü əlaqə saxladıq, o, bizə isiqamət verdi. Ana üçün gedib balasının şəhid olduğu yeri görmək nə deməkdi… Məhəmmədəlinin və döyüş yoldaşlarının rabitə qurduqları, döyüşdükləri yeri öz gözlərimlə gördüm. Mənə demişdilər ki, onlar sonuncu tapşırığı yerinə yetirəndə ac-susuz olublar. Özümlə qablarda çoxlu su götürmüşdüm. Oğlumgilin əziyyətlə irəlilədikləri o yerlərə su səpdim. Dedim ki, mənim balam, döyüş yoldaşları burda susuz, vətənləri naminə vuruşublar. Onların 17-si də orda şəhid olub. Məhəmmədəli, Rövşən, İsmayıl, Azər, Adəm…"

Məhəmmədəli 23 yaşında şəhid olub. Ona toy qismət olmayıb. Qardaşının övladlarını görüb. Qardaşının ikinci oğlu dünyaya gələndə Məhəmmədəli İkinci Qarabağ müharibəsindəydi. Xəbəri alanda çox sevinib. Qardaşına uşağı görmək istədiyini söyləyib, xahiş edib ki, xəstəxanadan görüntülü telefon bağlantısı yaratsın. Onun arzusunu yerinə yetiriblər. Uşağın adını da əmisi - Məhəmmədəli Murad qoyub. Kim bilir bu adı qoyanda o, nələr xəyal edib, hansı arzularına, muradına çatmağı düşünürmüş…

İlhamə xanım danışır: "Oğlanlarımın - Məhəmmədin də, Məhəmmədəlinin də soyadları İbrahimli, atalarının və mənim soyadım isə Xəlilov idi. Bütün ailə üzvlərimiz onun adını özümüzə soyad götürdük. Artıq sənədlərimizdə soyadımız Məhəmmədəli yazılıb".

Kədər üstə köklənmiş söhbətimizə Məhəmmədin böyük oğlu Nihat gəlişi ilə sevinc qatır. Atası ilə əmisinin təhsil aldığı məktəbdə oxuyur. O da dərs əlaçısıdır. Nihat bizə gələcək arzularından danışır, idman kursunda öyrəndiyi fəndləri göstərir. Sonra bu evdə qəhrəman əmisinə ithaf olunmuş şeiri deyir balaca Nihat:

*Böyüyüb şəhid oldun.*
*Yolundan çəkdin yadı.*
*Nə vaxtsa, Məhəmmədəliydin.*
*İndi Vətəndir adın.*

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Zaqatalada şəhid Vüsal Ramazanovun xatirəsi anılıb

**44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəman oğullardan biri də Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndindən olan Vüsal Ramazanovdur.**

AZƏRTAC xəbər verir ki, şəhidin şəhadətə yüksəlməsinin ildönümü ilə əlaqədar yanvarın 8-də anım mərasimi keçirilib.



Rayon icra hakimiyyətinin məsul şəxsləri, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri və doğmaları, kənd sakinləri onun məzarını ziyarət edərək üzərinə gül dəstələri düzüb, ruhuna dualar oxuyublar. Şəhidin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olan Vüsal Ramazanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Qırmızı Bazar qəsəbəsi istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Onun nəşi Zaqatala rayonunun Yuxarı Çardaxlar kəndində torpağa tapşırılıb.

## 11 Yanvar Dünya Qoruqlar və Milli Parklar Günüdür

# Ekoloji "təhlükəsizlik zonaları"

## Milli parkların qorunması iqlim dəyişikliyinə qarşı mübarizənin ayrılmaz hissəsidir

**Təbiətin mühafizəsi, antropogen mənfi təsirlərdən qorunması məqsədilə müəyyən ərazilərdə milli parkların və qoruqların yaradılması bu gün biomüxtəlifliyin müdafiəsində ən effektli üsullardan biri hesab olunur. Xüsusi mühafizə olunan ərazilər həmçinin nadir heyvan və bitki növlərinin qorunması, yaşaması və çoxalması üçün təbii mühitdir.**

Bundan başqa, əksər ölkələrdə yaradılan milli parklar həm də yerli və xarici turistlər üçün rekreasiya məkanıdır. Təbii ki, ətraf mühitə ziyan vurmadan, onları korlamadan.

Dünyada ilk milli park 1917-ci il yanvarın 11-də Rusiyada nadir heyvanların qorunması məqsədilə yaradılmış, Baykal gölü üzərində yerləşən Barquzin Dövlət Qoruğudur.

Ölkəmizdə də ekosistemin qorunması üçün milli parkların və qoruqların yaradılmasına önəm verilir. Hazırda Azərbaycanda ölkə ərazisinin 5,3 faizini əhatə edən 12 milli park, 1,19 faizini əhatə edən 9 dövlət təbiət qoruğu var.

Azərbaycanda milli parkların yaradılmasına 2003-cü ildə başlanılıb. Təbii tarazlığın qorunmasına xidmət edən, xüsusi mühafizə olunan və əsasən elmi tədqiqatlar üçün nəzərdə tutulmuş qoruqların tarixi isə daha qədimdir. Belə ki, ölkəmizdə ilk qoruq



1925-ci ildə yaradılan Göygöl Dövlət Təbiət Qoruğudur.

### Elmi tədqiqatlar üçün canlı laboratoriyalar...

Milli parkların və qoruqların təbiətin mühafizəsindəki rolu, bu istiqamətdə ölkəmizdə görülən son işlərlə bağlı Elm və Təhsil Nazirliyinin H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun elmi işçisi, coğrafiya üzrə fəlsəfə doktoru Emil Cəbrayılov qəzetimizə açıqlamasında bildirdi ki, milli parkların və qoruqların əsas rolu biomüxtəlifliyin, təbii ekosistemlərin qorunması və ekoloji tarazlığın təmin edilməsidir: "Ekoloji baxımdan mühafizə olunan təbiət ərazilərində yerləşən meşələr, dağ landşaftları, çay hövzələri və yarımsəhra ekosistemləri iqlim tənzimlənməsi, su balansının saxlanılması, torpaq eroziyasının qarşısının alınması kimi həyati vacib funksiyaları yerinə yetirir. Xüsusilə iqlim dəyişmələri fonunda belə ərazilər ekoloji "təhlükəsizlik zonaları" kimi də çıxış edir. Bununla yanaşı, milli parklar və qoruqlar elmi tədqiqatlar üçün canlı laboratoriya rolunu oynayırlar. Uzunmüddətli müşahidələrin, monitorinqlərin aparılması və ya ekoloji modelləşdirmə məqsədilə elmi tədqiqat işləri məhz qorunan ərazilərdə daha obyektiv nəticələr verir. Tədqiqatlar nəticəsində aldığımız məlumatlar isə təbii resursların davamlı idarə olunması və ekoloji risklərin qiymətləndirilməsi üçün mühüm elmi əsas yaradır".

Alimin sözlərinə görə, milli parkların yaradılmasına 2003-cü ildən başlanılsa da, həmin ərazilər daha əvvəlki dövrlərdə də xüsusi qoruq rejimi ilə mühafizə olunub. Bu da milli parklarımızın özünəməxsus təbii şəraitinin, flora və faunasının hazırkı dövrümüzə qədər qorunub saxlanılmasına imkan verib. Məsələn, Hirkan Milli Parkı dünya miqyasında nadir hesab olunan relikt və endemik meşə ekosistemlərinin qorunub saxlandığı unikal təbiət ərazisidir. Ərazi üçün xarakterik olan dəmirağacı, şabalıdyarpaqlı palıd, Hirkan şümşadı kimi bitki növləri milyon illər əvvəl formalaşmış floranın bugünədək gəlib çatmış canlı nümunələridir. Bu milli park həm də fauna müxtəlifliyi ilə seçilir. Burada nadir heyvan növlərindən olan bəbir günümüzə qədər qorunub saxlanılıb. Hazırda istər dövlət səviyyəsində, istərsə də müxtəlif təbiəti mühafizə təşkilatları tərəfindən bəbirlərin populyasiyasının bərpası istiqamətində işlər görülməkdədir.

E.Cəbrayılov qeyd etdi ki, Şahdağ və Şirvan Milli parkları da müəyyən dərəcədə öz ekoloji xüsusiyyətlərini qoruyub saxlamış ərazilərdəndir. Ümumilikdə milli parkların özünəməxsusluğunun qorunması yalnız təbii amillərdən ibarət deyil, idarəetmə səviyyəsindən və ictimai nəzarətdən birbaşa olaraq asılıdır.

### Azərbaycanda geopark və biosfer qoruqları da yaradıla bilər

Alim işğaldan azad olunmuş ərazilərdə bu istiqamətdə görüləcək işlərdən də danışdı. O dedi ki, hazırda Qarabağ zonasında rəsmi olaraq "milli park" statusu verilmiş sahələr olmasa da, bu regionda belə parklarım yaradılması ideyası davam edir: "Ekologiya və Təbii Sərvətlər Nazirliyindən bildirilmişdi ki, Xankəndi və Şuşa şəhərləri ilə yanaşı, Ağdərə və Xocalı rayonlarının ərazilərini də əhatə edəcək yeni milli park layihəsinin ilk xəritəsi hazırlanıb və aidiyyəti dövlət qurumları ilə razılaşdırılıb. Bundan əlavə, Qarabağ və Şərqi Zəngəzur regionlarında yerləşən Bəsitçay və Qaragöl Dövlət Təbiət qoruqlarında, həmçinin Laçın, Bərdə, Qubadlı, Daşaltı Dövlət Təbiət yasaqlıqlarında mühafizə rejiminin gücləndirilməsi, monitorinqlərin davamlı olaraq həyata keçirilməsi, elmi tədqiqat işlərinin aparılması olduqca böyük əhəmiyyət kəsb edir. Coğra-



fiya İnstitutunun əməkdaşlarının Qarabağda apardıqları tədqiqatların nəticəsi olaraq Tutqunçay və Levçayın hövzəsində qoruqların, Həkəri və Araz-Vejnəli təbiət yasaqlıqlarının yaradılması təklif edilib. Hazırda Qarabağda daha çox infrastruktur və sosial-ekoloji bərpa işləri üstünlük təşkil edir. Xankəndidə Zəfər parkının yaradılması tarixi və mədəni simvolik məzmunla yanaşı, şəhərin yaşıllaşdırılmasını nəzərdə tutur".

E.Cəbrayılov xüsusi mühafizə olunan ərazilərdə görülən işlər barədə bildirdi ki, yeni milli parkların yaradılması, işğaldan azad edilmiş ərazilərdə qorunan təbiət ərazilərinin təşkili, infrastrukturun yaxşılaşdırılması, ekoturizm marşrutlarının inkişaf etdirilməsi, nəzarət və monitorinqlərin gücləndirilməsi, bərpa və reintroduksiya layihələri və digər işlər həyata keçirilib. 2025-ci ilin iyulunda iki yeni milli parkın - Axar-Baxar və İlisu Milli parklarının rəsmi olaraq yaradılması qorunan ərazilərin sahəsinin artmasına və bioloji müxtəlifliyin qorunmasına böyük töhfə verib. "Müxtəlif heyvan növlərinin milli parklarda reintroduksiya layihələri həyata keçirilir. Məsələn, ceyranların müxtəlif ərazilərə köçürülməsi, Avropa bizonunun ölkəmizə gətirilməsi buna nümunə ola bilər. Bu kimi addımlar ekosistemlərin bərpasına və nəsli kəsilməkdə olan növlərin qorunmasına xidmət edir. UNESCO səviyyəsində geopark və biosfer qoruqları yaratmaq üçün işlər də aparılmaqdadır. Belə qorunan ərazilərin yaradılması təbiət abidələrinin beynəlxalq statusunu gücləndirməklə, yerli geoloji irsin beynəlxalq səviyyədə tanınmasına imkan verəcək", - deyə alim əlavə etdi.

### İqlim dəyişikliklərinin milli parklara və qoruqlara təsirləri

İqlim dəyişikliklərinin mənfi təsirləri demək olar ki, bütün sahələrdə özünü göstərir. Nəticədə ekosistemin tarazlığı pozulur, növlər məhv olmaq təhlükəsi ilə üz-üzə qalır. Həmçinin təbii fəlakətlər ətraf mühitin məhvinə gətirib çıxarır. Bu baxımdan qlobal istiləşmənin xüsusi mühafizə olunan ərazilərə təsirlərini də öyrəndik.

Alim bildirdi ki, iqlim dəyişikliyi son illərdə milli parkların ekoloji vəziyyətinə birbaşa və ya dolayı yolla təsir göstərməkdədir. Temperaturun artması, yağıntı rejiminin dəyişməsi bir çox təbii ekosistemin tarazlığını pozur. Bu proseslər xüsusilə dağ, meşə və yarımsəhra ekosistemlərini əhatə edən milli parklarda daha aydın müşahidə olunur. Dağlıq ərazilərdə qar örtüyünün azalması və buzlaqların sürətlə əriməsi su ehtiyatlarının mövsümi paylanmasına təsir edir. Bu isə çayların qidalanma rejimini dəyişir, bəzi ərazilərdə yay aylarında su qıtlığı, digərlərində isə sel və daşqın riskinin artmasına səbəb olur. Apardığımız tədqiqatlar əsasında son 35 il ərzində yüksək dağlıqda buzlaq ehtiyatlarımızın 80 faizindən çoxunun itirildiyi məlum olub. Bununla belə milli parklar iqlim dəyişikliyinə qarşı təbii adaptasiya zonası rolunu da oynayır. Bu səbəbdən milli parkların qorunmasını iqlim dəyişikliyinə qarşı mübarizənin ayrılmaz hissəsi kimi qəbul etmək lazımdır.

E.Cəbrayılov vurğuladı ki, turizmin inkişafı milli parklar üçün həm imkanlar, həm də risklər yaradır: "Düzgün planlaşdırılmış və nəzarət olunan turizm milli parklarda təbiətin qorunmasına əlavə maliyyə mənbələri formalaşdırır. Eyni zamanda yerli əhali üçün alternativ məşğulluq imkanları yaradır ki, bu da təbiətə təzyiqin azalmasına səbəb olur. Turizmin digər mühüm müsbət təsiri ekoloji maarifləndirmə ilə bağlıdır. İnsanların milli parklarda təbiətlə birbaşa təması ətraf mühitin qorunmasına münasibəti dəyişir, cəmiyyətdə ekoloji məsuliyyət hissini artırır. Bununla belə düzgün planlaşdırılmadıqda turizmin mənfi təsirləri də olur. Nəzarətsiz və kütləvi turizm torpaq və bitki örtüyünün tapdanması, tullantıların artması, səs-küy çirklənməsi kimi problemlərə yol aça bilir. Bu hallar heyvanların davranışına təsir göstərir, onların yaşayış areallarında, miqrasiya proseslərində problemlər yaradır. Həssas ekosistemlərdə, xüsusilə dağlıq ərazilərdə bu təsirlər daha ciddi nəticələr doğura bilir. Həmçinin turizm infrastrukturu düzgün planlaşdırılmadıqda landşaftın təbii görünüşü pozulur və ekosistemlərdə təhlükə riski artır. Nəticə olaraq, turizmin milli parklara təsiri onun idarəolunma səviyyəsindən çox asılıdır. Davamlı turizm prinsiplərinə əsaslanan və elmi əsaslarla planlaşdırılan turizm milli parklar üçün faydalı ola bilər. Əks halda ərazilərin qorunma funksiyası zəifləyə bilər".

Coğrafiya İnstitutunun əməkdaşı dedi ki, milli parklar və qoruqlar insan təsirini minimuma endirmək məqsədi daşıyır, lakin onları insan amilindən tamamilə uzaq saxlamaq da real deyil və məqsədəuyğun sayılmır. Müasir təbiəti mühafizə yanaşması təbiətlə insan arasında idarəolunan və balanslı qarşılıqlı əlaqəni əsas götürür. Xüsusilə milli parklar yalnız mühafizə funksiyası daşımır, həm də elmi tədqiqat, ekoloji monitorinq, maarifləndirmə və ekoturizm kimi fəaliyyətlər üçün nəzərdə tutulur. Bu fəaliyyətlər olmadan ekosistemlərdə baş verən dəyişiklikləri vaxtında aşkar etmək, riskləri qiymətləndirmək və adaptiv idarəetmə tədbirləri görmək çətindir. Elmi əsaslandırılmış zonalaşdırma, ziyarətçi yükünün tənzimlənməsi, daimi monitorinq və ictimai nəzarət təmin olunduğu halda insan fəaliyyəti təbiətin qorunmasına zidd deyil, əksinə, onu dəstəkləyə bilər.

### Yeni milli parkların yaradılması üçün təkliflər

"Milli parklar və qoruqlar olmadan biomüxtəlifliyin qorunması mümkündürmü?" sualına cavabında elmi işçi qeyd etdi ki, milli parklar və qoruqlar olmadan bu proses effektiv və davamlı şəkildə təmin edilə bilməz: "Əgər bu ərazilər olmasaydı, biomüxtəliflik əsasən kənd təsərrüfatı, urbanizasiya, sənaye və nəqliyyat kimi antropogen təzyiqlər altında ciddi risklərlə üz-üzə qalardı. Xüsusilə həssas ekosistemlər olan dağ, meşə, bataqlıq və yarımsəhra landşaftları qorunmadan uzunmüddətli sabitliyi saxlamaq mümkün deyil. Qoruqlarda insan fəaliyyəti ciddi şəkildə məhdudlaşdırıldığından nadir növlərin çoxalma, qidalanma və miqrasiya prosesləri daha stabil şəkildə gedir. Digər mühüm məqam ondan ibarətdir ki, milli parklar və qoruqlarda yalnız ayrı-ayrı növlər deyil, bütün ekosistem qorunur. Müxtəlif fauna və flora növlərinin mövcudluğu onların yaşayış mühitinin sağlamlığından çox asılıdır. Buna görə də ekosistemlərin bütövlükdə mühafizəsi nadir növlərin qorunmasında ən effektiv yanaşma hesab olunur. Məsələn, Şirvan Milli Parkı yaradıldıqdan sonra ekosistemlərin mühafizəsi və bərpası nəticəsində ceyranların populyasiyası sabitləşib. Naxçıvanda yerləşən Zəngəzur Milli Parkı isə bezoar keçisi və digər nadir dağ fauna növləri üçün strateji əhəmiyyət daşıyır".

Alim qeyd etdi ki, Azərbaycanda biomüxtəlifliyin və landşaft müxtəlifliyinin yüksək olması yeni milli parkların yaradılması üçün geniş potensial yaradır: "İlk növbədə, Kiçik Qafqazın yüksək dağlıq və meşəlik əraziləri həm nadir flora-fauna, həm də təbii landşaftların bütövlüyü baxımından xüsusi əhəmiyyət daşıyır. Göygöl Milli Parkının sahəsinin Gamışdağ istiqamətində genişləndirilməsi məqsədəuyğundur. Digər vacib istiqamət Böyük Qafqazın şimal-şərq və cənub yamaclarıdır. Burada dağ-meşə və subalp ekosistemlərinin qorunması üçün mövcud qorunan ərazilərin genişləndirilməsi və ya yeni milli park formatında birləşdirilməsi təklif oluna bilər. Kür-Araz ovalığı və yarımsəhra zonaları da diqqətdən kənarda qalmamalıdır. Bu ərazilər torpaq deqradasiyası, iqlim dəyişikliyi və səhralaşma risklərinə daha həssasdır. Burada yaradılacaq mühafizə olunan ərazilər həm ekosistemlərin qorunmasına, həm də landşaft səviyyəsində bərpa tədbirlərinə xidmət edə bilər. Məsələn, Sarısu gölü, Mahmudçala ərazilərində xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması əlverişlidir. Eyni zamanda Xəzər dənizi sahilyanı və su-bataqlıq ekosistemləri, xüsusilə köçəri quşların dayanacaq və qışlama əraziləri olan zonalar yeni qorunan ərazilər şəbəkəsinə daxil edilməlidir. Bu, beynəlxalq ekoloji öhdəliklər baxımından da əhəmiyyətlidir. Məsələn, Abşeron Milli Parkının Cilov adası istiqamətdə sahəsinin genişləndirilməsini, Kürün deltasında mühafizə zonasının formalaşdırılmasını təklif edə bilərik".

Deyilənlər də göstərir ki, bu gün iqlim dəyişiklikləri və antropogen təsirlər fonunda biomüxtəlifliyin qorunması çətinləşsə də, xüsusi mühafizə olunan ərazilərin genişləndirilməsi ekoloji məsuliyyəti artırmaqla insanları təbiətin mühafizəsində fəal iştiraka sövq edir, eyni zamanda müəyyən fəaliyyətlərin qarşısı alınmaqla nadir heyvan və bitkilər üçün təbii mühit qorunub saxlanılır. Bu baxımdan milli parkların yaradılması üçün böyük potensiala malik olan, həmçinin turizmin cəlbediciliyinin artırılmasına önəm verən ölkəmizdə daha çox belə parkların yaradılması mümkündür və gələcəkdə saylarının artırılması gözlənilir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Azərbaycanın turizm siyasəti sistemli, çoxşaxəli və strateji baxışa əsaslanır



**Turizm sektoru iqtisadiyyatın şaxələndirilməsi, regional inkişafın sürətləndirilməsi və beynəlxalq imicin möhkəmləndirilməsi baxımından strateji əhəmiyyət daşıyan sahələrdən biridir. Azərbaycanda da turizm inkişafın prioritet istiqaməti kimi müəyyən edilib, həm ənənəvi, həm də yeni turizm növlərinin inkişafı üçün sistemli addımlar atılıb.**

Ölkəmizin turizm potensialı əlverişli coğrafi mövqeyi, zəngin mədəni-tarixi irsi, təbiət və iqlim müxtəlifliyi, eləcə də regional və qlobal miqyasda təhlükəsiz ölkə imici ilə səciyyələnir. Azərbaycanda turizmin inkişafının əsas təkanverici amilləri kimi həm də təhlükəsizlik və sabitlik faktorları xüsusi yer tutur. Avropa və Asiya qovşağında yerləşməsi, tranzit imkanlarının genişliyi və doqquz iqlim tipinin mövcudluğu ölkəmizin turizm potensialının nə qədər böyük olduğunu göstərir. Bunlar xarici turistlərin seçimində əsas meyar kimi çıxış edir.

Statistik göstəricilər bu potensialın real nəticələrə çevrildiyini nümayiş etdirir. Belə ki, 2025-ci ildə Azərbaycanın turizm sektorunda 8,9 faiz artım qeydə alınıb, ölkəyə gələn əcnəbilərin sayı 2,3 milyona, gecələmələrin sayı isə 7,287 milyona çatıb. Turizm sahəsinə 349 milyon manat investisiya yönəldilib, nəticədə 6,4 min yeni iş yeri açılıb. Bu göstəricilər turizmin sosial-mədəni və mühüm iqtisadi sahə kimi formalaşdığını təsdiqləyir.

Prezident İlham Əliyevin yanvarın 5-də yerli telekanallara verdiyi müsahibədə diqqətə çatdırdığı məsələlər Azərbaycanın turizm siyasətinin konseptual əsaslarını və uzunmüddətli baxışını aydın şəkildə ortaya qoydu. Dövlət başçısı turizmin cəlbediciliyini müəyyən edən əsas meyarlar barədə deyib: "Birincisi, təbii ki, təhlükəsizlik və sabitlikdir. Bu gün dünyada insanlar səyahət etmək qərarına gəldikdə onlar hər zaman ölkənin təhlükəsizliyini və sabitliyini nəzərə alırlar". Prezident İlham Əliyev Azərbaycanın qlobal miqyasda ən təhlükəsiz məkanlardan biri kimi qəbul edildiyini vurğulayıb. Coğrafi mövqe, mədəni irs və təbiət müxtəlifliyi məsələsinə toxunan dövlət başçısı bildirib ki, ölkəmiz həm Asiyaya, həm də Avropaya yaxındır, bir növ onların qovuşduğu yerdədir və bu üstünlük zəngin mədəniyyət, tarixi abidələr, doqquz iqlim tipi və inkişaf etmiş paytaxtla tamamlanır.

Qeyd edək ki, ölkəmizdə qış turizmi istiqamətində Şahdağ Turizm Kompleksi və Tufandağ Qış-Yay Turizm İstirahət Kompleksi xüsusi əhəmiyyət kəsb edir. Şahdağda 37 xizək yamacı və 45 kilometr uzunluğunda xizək trası fəaliyyət göstərir. 2025-ci ildə bu mərkəz 300 mindən çox ziyarətçi qəbul edib. Tufandağ kompleksi isə 12 kilometrdən artıq xizək sahəsi və 4 kanat xətti ilə ilboyu turizm imkanları təqdim edir. Həmçinin Kəlbəcər Dağ Turizm Mərkəzi iki fazalı layihə çərçivəsində gələcəkdə 3 kanat yolu və 18 yamacla fəaliyyət göstərəcək ki, bu da azad edilmiş ərazilərin turizm xəritəsində mühüm yer tutacağını göstərir.

Bununla yanaşı, çimərlik turizmi, meşə landşaftları və milli mətbəx Azərbaycanın turizm imkanlarını rəqabətədavamlı edir. Beynəlxalq tədbirlərin turizmin inkişafında rolu böyükdür. Prezident İlham Əliyev "Formula-1" yarışlarını "yarım milyard auditoriyası olan birnömrəli idman tədbiri" kimi xarakterizə edərək bu yarışların artıq on ildən çoxdur ki, ölkəyə minlərlə turist cəlb etdiyini vurğulayıb. Eyni zamanda Şahdağda keçiriləcək Xizəksürmə üzrə dünya çempionatının Azərbaycanın beynəlxalq idman-turizm təqvimində mövqeyini gücləndirəcəyi bildirilib.

Dövlət başçısı diqqətə çatdırıb ki, hazırda Azərbaycanda həm milli, həm də xarici hava şirkətləri fəaliyyət göstərir, uçuş coğrafiyası isə davamlı şəkildə genişlənir. Heydər Əliyev Beynəlxalq Aeroportunda isə yeni terminalın tikintisi planlaşdırılır. Prezident bildirib: "Bizə 15 milyonluq, ola bilsin 20 milyonluq sərnişin tutumlu terminal lazım olacaq. Bir sözlə, biz burada yeni terminalın yeni konsepsiyası üzərində artıq işləyirik".

Yeni turizm istiqamətləri sırasında biznes və səhiyyə turizmi xüsusi perspektiv kimi qiymətləndirilir. Prezident İlham Əliyev bu barədə deyib: "Biz biznes turizmi və potensial qaydada sağlamlıq turizmi haqqında düşünə bilərik. Hazırda onun üzərində çalışırıq". Mövcud istirahət və müalicə mərkəzləri, Naftalan, Qalaaltı, Duzdağ və digər məkanlar bu istiqamətdə möhkəm baza yaradır.

İşğaldan azad edilmiş ərazilər Azərbaycanın turizm strategiyasında yeni mərhələnin əsas dayaqlarından biri kimi çıxış edir. Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzuru "təbii cənnət" adlandıraraq, bu bölgələrdə turizmin inkişafının prioritet istiqamət olduğunu vurğulayıb. İşğaldan azad edilmiş ərazilərdə mehmanxana infrastrukturunun yaradılması regional turizmin canlanmasına xidmət edir.

Xəzər sahilində həyata keçirilən "Sea Breeze" layihəsi isə müasir turizm imkanları təqdim edir. Dövlət başçısı qeyd edib ki, öz həcminə, miqyasına və gözəlliyinə görə nadir olan "Sea Breeze" böyük tikinti layihəsi həyata keçirilir. Dünyanın heç bir yerində buna oxşar layihə yoxdur. 6,5 kilometr sahil boyunca yerləşən, 40-dan çox binanı əhatə edən bu kompleks həm qonaqlama, həm əyləncə, həm də yaşayış funksiyalarını bir məkanda birləşdirərək ölkəmizin turizm konsepsiyasına yeni keyfiyyət gətirir.

Azərbaycanın turizm siyasəti sistemli, çoxşaxəli və uzunmüddətli strateji baxışa əsaslanır. Təhlükəsizlik, sabitlik, infrastrukturun inkişafı, beynəlxalq tədbirlər və azad edilmiş ərazilərin reinteqrasiyası turizmin inkişafına xidmət edən faktorlar kimi çıxış edir. Mövcud göstəricilər və planlaşdırılan layihələr fonunda Azərbaycanda turist sayının ortamüddətli perspektivdə 5-6 milyon nəfərə çatdırılması əsas hədəflərdən biridir. Bu mənada turizm sektorunun inkişafı bundan sonra da ölkəmizin iqtisadi və sosial reallıqlarının formalaşmasında mühüm rol oynayacaq.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Tərtər artıq 5 ildən çoxdur cəbhə bölgəsi sayılmır

## İndi rayonun qarşısında duran vəzifələr də fərqlidir

**Bu gün hər birimiz azad və müstəqil, qalib və qüdrətli, firavan həyat və xoş güzəran üçün zəruri əsasların bərqərar olduğu, sabit, inkişaf edən, beynəlxalq aləmdə söz sahibinə çevrilən Azərbaycan adlı bir dövlətin vətəndaşı olmağımızla qürur duyuruq. Müstəqillik tariximizin son 20 ili xalqımızın Ümummilli Lideri Heydər Əliyev siyasi kursunun layiqli davamçısı İlham Əliyevin adı ilə bağlıdır.**



Prezident İlham Əliyev bu illər ərzində dövlətin daxili və xarici siyasətini böyük müdriklik və siyasi uzaqgörənliklə yönəldərək bir zamanlar əlçatmaz hesab edilən siyasi və iqtisadi hədəfləri fəth etmiş, müzəffər sərkərdə qüdrəti ilə nankor qonşularımızın - Ermənistan silahlı qüvvələrinin 30 il işğal altında saxladığı Qarabağ və Şərqi Zəngəzuru azad edərək öz xilaskar adını tarixə qızıl hərflərlə yazmışdır.








Dövlət başçısı yeni ilin ilk yaddaqalan görüşünü jurnalistlərlə keçirərək yerli televiziya kanallarına geniş müsahibə vermişdir. Müxtəlif suallara verdiyi tutarlı cavablar, siyasətçi peşəkarlığı ilə apardığı təhlillər, dünyaya verdiyi mesajlar, sosial-iqtisadi inkişafımızın yeni istiqamətləri, Qarabağ və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması, uğurla reallaşan Böyük qayıdışın detalları ölkə daxilindəki ictimai rəydə, eləcə də beynəlxalq mediada gündəm effekti yaratmışdır.

Müsahibədə səslənən fikirlər, qarşıya qoyulan yeni hədəflər hər yerdə olduğu kimi, Tərtərdə də maraqla qarşılanmışdır. Prezident İlham Əliyevin Tərtərə və tərtərlilərə münasibətinin fərqli olduğunu deyə bilərik. Tərtər Vətən müharibəsi illərində düşmənlə təmas xəttinə yaxın bir ərazidə yerləşdiyindən şiddətli hücumlara, ağır raket və artilleriya zərbələrinə, böyük dağıntılara və itkilərə məruz qalmışdır. Prezident çətin və ağrılı günlərdə dəfələrlə Tərtərə səfər etmiş, rayon əhalisinin yanında olmuş, tərtərlilərdən zəruri qayğı və dəstəyini əsirgəməmişdir. Ozamankı reallığı dəyərləndirən dövlət başçısı demişdir ki, Tərtər sakinləri qəhrəmandırlar. Onlar burada döyüş bölgəsində, düşmənlə üz-üzə möhkəm dayanıblar və evlərinə düşən mərmilər onların iradəsinə zərrə qədər təsir etməmişdir. Dövlət başçısının qəhrəman Tərtərin fədakar övladlarına verdiyi yüksək dəyər sakinlərin yaddaşına əbədi həkk olunmuşdur.

Yeni ilin ilk günləri Tərtərdə xoş ovqat yaşanır. 2025-ci il böyük nailiyyətlərlə başa vurulub. Taxıl, pambıq, digər kənd təsərrüfatı məhsulları istehsalında əvvəlki illə müqayisədə xeyli artıma nail olunub. Nəzərdə tutulan sosial-iqtisadi layihələr uğurla reallaşıb. Rayon sakinlərinin güzəranı, dolanışığı daha da yaxşılaşıb. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, rayon rəhbərliyi şəhid ailələrinə, qazilərə, müharibə veteranlarına qayğını diqqət mərkəzində saxlayır. Şəhid ailələrində elə məclis, elə əlamətdar gün olmur ki, rayon rəhbərliyi orada iştirak etməsin.

Yeni il Tərtərə yeni əhval gətirib. Niyyətləri bolluq, firavanlıq olan, qurub-yaratmaq həvəsli tərtərlilərin hər sözünün, hər söhbətinin əsas mövzusu Prezidentin məlum müsahibəsində səslənən fikirlər, müəyyən edilən yeni fəaliyyət istiqamətləridir. Rayonda müxtəlif peşə, fərqli dünyagörüşlü sakinlərlə görüşüb həmsöhbət olduq.

Tərtər şəhər sakini, şəhid atası Bəhruz İskəndərov dedi ki, müsahibəni qəzetdən oxudum: "Prezidentin səsləndirdiyi fikirlərin məna yükü çox böyükdür. Mənim üçün ən çox diqqət çəkən bir əsas məqamdır. Prezident dedi ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bax, bu bir cümlə məncə müsahibənin bütün qayəsini, məqsəd və məramını əhatə edir. Prezident İlham Əliyev dəfələrlə və dönə-dönə vurğulayıb ki, dövlət xalq üçün, vətəndaşların xoş güzəranı, firavan həyatı üçün çalışmalıdır. Bu məqsədlə də məmurlara tapşırıq verir ki, insanların arasında olun, vətəndaşların müraciətlərinə həssas yanaşın, hər kəsə qayğı və diqqət göstərin. Bir şəhid atası olaraq minnətdarlıqla deyə bilərəm ki, mənə göstərilən münasibətdən razıyam".

Tərtərdə nüfuzlu ziyalı kimi tanınan, Sarıcalı kənd tam orta məktəbinin direktoru Vəsilə Mehdiyeva müsahibədən aldığı təəssüratı bizimlə bölüşərək bildirdi ki, Prezident müxtəlif sualları cavablandırarkən bir məqama xüsusi diqqət yetirdi: "Bu, dilimizlə bağlıdır. Dövlət başçısı bütün dünyaya ünvanladığı mesajda qeyd etdi ki, biz böyük xalqıq, dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Uzun illər boyu müxtəlif imperiyaların tərkibində yaşasaq da, dilimizi zamanın çətin sınaqlarından qoruyub saxlaya bilmişik". Vəsilə xanım əlindəki qəzeti açıb dövlət başçısının müsahibəsindən sitat da gətirdi: "Yəni bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin və çox metodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da, çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür".



Vəsilə Mehdiyeva sözünə davam edərək bildirdi ki, biz müəllimlər Prezidentin doğma ana dili haqqında səsləndirdiyi fikirlərdən nəticə çıxararaq məktəblərimizdə Azərbaycan dilinin tədrisinə diqqəti artırmalıyıq.

Taleyini torpağa, halal zəhmətə bağlayan fermer Fazil Vəliyev təkcə Bəyimsarov kəndində deyil, bütün Tərtərdə adlı-şanlı pambıqçı kimi tanınır. Fədakar əməyi yüksək dövlət təltifləri ilə qiymətləndirilib. Ötən il də yaxşı nəticələr qazanıb, hər hektardan orta hesabla 50 sentnerə yaxın pambıq götürüb. Deyir ki, Zəfərdən sonra üstümüzə gün doğub: "5 ildir sülh şəraitində yaşayırıq. Nə xoş ki, daha bölgədə toplar guruldamır. İndi torpaqlarımız da rahat nəfəs alır. 30 illik işğal dövründə Sərsəng su anbarı erməni işğalında olduğundan suya həsrət qalmışdıq. Çox zəhmət çəksək də, alın təri axıtsaq da, torpaqları suvara bilmirdik, əlimiz boş qalırdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı erməni işğalından azad edən qəhrəman Azərbaycan əsgərinə ömürboyu borcluyuq. Beş ildir ki, bizim üçün həyatın dadı dəyişib".

Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsinə münasibət bildirən Fazil Vəliyev dedi ki, torpaq namusdur, qeyrətdir: "Vətən torpaqla var olur. Dövlət başçısının jurnalistin torpaqla bağlı verdiyi suala cavabı bir kənd adamı kimi ürəyimdən xəbər verdi. Qələbəyə aparan yolun çətinliklərini xatırladım. Şəhidlərimizin qanı tökülən torpağın müqəddəsliyini bir daha hiss etdim. Sualı cavablandırarkən fikrini belə yekunlaşdırdı ki, hər an ayıq olmalıyıq, güclü olmalıyıq, hazır olmalıyıq və əminəm ki, bundan sonra heç vaxt bir qarış torpağımız heç kimin tapdağı altına düşməyəcək. Bunun üçün həm güc var, həm iradə var, xalqın birliyi var. Güclü Azərbaycan dövləti var".

Dövlətə, dövlətçiliyə bağlı olan tərtərlilər beləcə sabaha inamla baxır, yenilməz gücümüzün mənbəyi olan xalq-dövlət birliyinin sarsılmazlığına yeni töhfələr vermək üçün səfərbər olduqlarını nümayiş etdirirlər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***



# Dünya olduğu kimi

## "Samsung Ballie" layihəsi dayandırılıb

**"Samsung"un uzun illərdir konsept kimi təqdim etdiyi və "ağıllı evlərin gələcəyi" adlandırılan "Ballie" robotu satışa buraxılmayacaq.**



Şirkət əvvəlcə 2025-ci ilin yayında bazara çıxarılması planlaşdırılan bu məhsulla bağlı qərarını dəyişərək layihəni qeyri-müəyyən müddətə dayandırıb, sonra isə ondan tamamilə imtina edib. Şirkət rəsmilərinin bildirdiyinə görə, "Ballie" bundan sonra yalnız daxili texnoloji araşdırmalar üçün istifadə olunacaq. Robot "Samsung"un ağıllı ev ekosistemi, kontekstual süni intellekt, məkan əsaslı xidmətlər və məxfiliyə fokuslanan dizayn həlləri üzrə təcrübə qazanmasına xidmət edəcək.

İlk dəfə 2020-ci ildə CES texnologiya sərgisində ictimaiyyətə təqdim edilən "Ballie" sonrakı illərdə daha inkişaf etdirilmiş və funksional versiyaları ilə diqqət mərkəzində olmuşdu. Buna baxmayaraq, şirkət bu robotu artıq geniş istehlakçı bazarı üçün perspektivli məhsul hesab etmir. Ekspertlərin fikrincə, layihənin dayandırılmasında artan istehsal xərcləri mühüm rol oynayıb. Xüsusilə yaddaş, sensorlar və digər texnoloji komponentlərin bahalaşması "Ballie"nin kütləvi istehsalını iqtisadi baxımdan səmərəsiz edib. Nəticədə "Samsung" sözügedən robotu kommersiya məhsulu kimi deyil, innovativ texnologiyaların sınaq platforması kimi saxlamağa üstünlük verib.

## "Waymo"nun robotaksisi yeni adla təqdim olunur

**"Waymo" şirkəti Çin avtomobil istehsalçısı "Zeekr" tərəfindən hazırlanan robotaksi modelini sınaqdan keçirib və təkmilləşdirib. Kommersiya mərhələsinə keçid ərəfəsində isə avtomobilin adının dəyişdirildiyi açıqlanıb.**



İndiyədək "Zeekr RT" adı ilə tanınan robotaksi bundan sonra "Ojai" adlanacaq. Bu, ABŞ-nin Los-Ancelesə yaxın ərazidə yerləşən, yaradıcı mühit və sağlam həyat tərzi ilə seçilən Ojai yaşayış məntəqəsinin adıdır. Ad "oh-hi" kimi tələffüz olunur.

"Waymo"nun rəsmi nümayəndəsi Kris Bonelli bildirib ki, bu addımın əsas məqsədi Amerika ictimaiyyətinin "Zeekr" brendini kifayət qədər tanımamasıdır. Rebrendinq sərnişinlərlə ünsiyyətə də təsir edəcək, gələcəkdə robotaksi istifadəçiləri avtomobil tərəfindən "Oh-hi" ifadəsi və adları ilə qarşılanacaq.

"Waymo" və "Zeekr" arasında əməkdaşlıq 2021-ci ildən davam edir. 2022-ci ildə Los-Ancelesdə keçirilən təqdimat zamanı sükan çarxı olmayan konsept robotaksi nümayiş olunmuşdu. Lakin CES 2026 sərgisində təqdim edilən "Ojai" modelində artıq sükan mövcuddur.

"Ojai" Finiks və San-Fransisko şəhərlərində genişmiqyaslı sınaqlardan keçirilib. Avtomobil 13 kamera, 4 lidar, 6 radar, xarici səs qəbulediciləri və sensorlar üçün xüsusi mini şüşəsilənlərlə təchiz olunub. Texniki göstəricilər əvvəlki kimi qalsa da, dizaynda dəyişiklik edilib və avtomobilin rəngi mavi tonlardan daha çox gümüşü çalara keçib.

"Waymo" hazırda ABŞ-nin Atlanta, Austin, Los-Anceles, Finiks və San-Fransisko şəhərlərində fəaliyyət göstərir. Şirkət növbəti il ərzində Denver, Las-Veqas və London daxil olmaqla daha 12 yeni şəhərdə robotaksi xidmətini işə salmağı planlaşdırır.

## Yeni kamera texnologiyası

**Fotoqrafiya sahəsində inqilab yarada biləcək yeni kamera texnologiyası təqdim edilib. Karnegi Mellon Universitetinin alimləri tərəfindən hazırlanan eksperimental kamera məsafədən asılı olmayaraq, səhnədəki bütün obyektləri eyni vaxtda tam aydınlıqla təsvir edə bilir. Bu yenilik ənənəvi kamera sistemlərinin əsas məhdudiyyətini aradan qaldırır.**



Mövcud kameralarda obyektiv yalnız bir fokus nöqtəsinə köklənə bildiyi üçün həmin nöqtədən kənarda qalan, istər ön, istərsə də arxa planda olan obyektlər bulanıq görünür. Tam kəskin görüntü əldə etmək məqsədilə adətən müxtəlif fokus məsafələrində çəkilmiş bir neçə şəkil sonradan birləşdirilir. Yeni texnologiya isə bu mərhələyə ehtiyacı tamamilə aradan qaldırır.

Tədqiqatçılar tərəfindən hazırlanmış "məkan üzrə dəyişən avtofokus" (spatially-varying autofocus) sistemi kameraya kadrın müxtəlif hissələrində fərqli dərinliklərdə fokuslanmaq imkanı verir. Bu yanaşma elə bir təsir yaradır ki, sanki hər pikselin özünə məxsus və müstəqil şəkildə tənzimlənən obyektivi mövcuddur. Sistem "hesablama obyektivi" (computational lens) texnologiyasına əsaslanır. Burada bir-birinə nisbətən hərəkət edən iki əyri kubik faza əsaslı işıq modulyatoru ilə birlikdə işləyir. Bu modulyator işığın hər piksel səviyyəsində necə yönləndiriləcəyini dəqiq tənzimləyir və nəticədə kamera eyni anda bir neçə dərinlik müstəvisində fokuslana bilir. Texnologiya həm kontrast əsaslı fokuslama, həm də faza aşkarlama üsullarını bir arada tətbiq edir.

Mütəxəssislər bildirirlər ki, bu yenilik kameraların ətraf aləmi qavrama üsulunu köklü şəkildə dəyişə bilər. Hələlik texnologiya kommersiya məqsədli kameralarda tətbiq olunmur və bazara çıxması üçün müəyyən vaxt tələb edilir. Bununla belə, alimlər bu yanaşmanın yalnız fotoqrafiya ilə məhdudlaşmayacağını vurğulayırlar. Yeni obyektiv texnologiyası mikroskopiyada daha dəqiq görüntülərin əldə olunmasına, virtual reallıq eynəklərində dərinlik hissinin artırılmasına, eləcə də avtonom avtomobillərin ətraf mühiti daha dəqiq analiz etməsinə geniş imkanlar aça bilər.

## Formaca boyunbağı, məzmunca süni intellekt

**"Motorola" şirkəti "CES 2026" sərgisində diqqətçəkən konsept cihazını ictimaiyyətə nümayiş etdirib. Boyunbağı formasında hazırlanan bu innovativ qurğu "Qira" adlı süni intellekt köməkçisi ilə işləyir.**



Ekransız və fiziki idarəetmə düymələri olmayan bu ağıllı aksesuar smartfonla sinxron şəkildə fəaliyyət göstərir. Cihaz ətraf mühiti tanıya, obyektləri ayırd edə, məlumatları analiz edib qısa icmal şəklində təqdim edə və istifadəçi əmrlərini yerinə yetirə bilir.

Mirvarini xatırladan işıqlı dizayna malik cihaz qabaqcıl sensorlar və bulud texnologiyası üzərindən çalışan süni intellekt modelləri sayəsində ətrafda baş verənləri "görə" və dərk edə bilir. "Qira" çap materiallarındakı mətnləri oxuyub şərh edir, həmçinin istiqamət tapmaq üçün avtomatik şəkildə "Google Maps" üzərindən naviqasiya funksiyasını işə salır.

Şirkət "ağıllı boyun" aksesuarının texniki göstəriciləri və satış qiyməti ilə bağlı detalları açıqlamayıb və məhsulu hələlik eksperimental texnologiya kimi təqdim edir. İstehsalçının əsas məqsədi real istifadə ssenarilərində süni intellektlə təchiz olunmuş bu cihazın insanlar tərəfindən necə qəbul edildiyini müşahidə etmək və istifadəçi rəyləri toplamaqdır.

## Emosional robot



**"Ludens AI" şirkəti insanlarla emosional ünsiyyət qura bilən yeni nəsil robotlarını təqdim edib. Şirkət klassik humanoid modellərdən fərqli olaraq insanlara yoldaşlıq və yaxınlıq hissi verən robot konsepsiyasını ön plana çıxarıb.**

Təqdim olunan robotlardan biri "Cocomo" adlanır. Bu model ev daxilində sərbəst hərəkət edən, səs və toxunuşa reaksiya verən avtonom "robot-pet"dir. Yumru və tüklü dizayna malik "Cocomo" ayı balasını xatırladan görüntüsü ilə seçilir. O, təkərlər üzərində hərəkət etsə də, qucaqda daşınması üçün kiçik ayaqlarla da təchiz olunub.

Yeni cihazın fərqləndirici cəhətlərindən biri istilik xüsusiyyətidir. Robotun səthi insan bədəninə yaxın temperaturda saxlanılır və yaxın təmas zamanı daha da isinərək real hissi yaradır. Danışıq əvəzinə səslər və jestlərlə ünsiyyət quran "Cocomo" zaman keçdikcə sahibinin davranışlarına uyğunlaşaraq emosional əlaqə formalaşdırır.

## Fırlanan ekranlı noutbuk



"Lenovo" innovativ funksiyaları ilə seçilən yeni noutbuk modelini nümayiş etdirib. "ThinkBook Plus Gen 7 Auto Twist" adlanan cihaz səsli əmrlərlə idarə olunan və motorlu mexanizm vasitəsilə hərəkət edən ekranı ilə diqqət çəkir. Yeni modelin bu ilin iyununda satışa çıxarılması planlaşdırılır.

Cihaz 14 düymlük toxunma ekran ilə təchiz olunub və bu ekran xüsusi motorlu menteşə sayəsində avtomatik şəkildə hərəkət edə bilir. İstifadəçi ekranın mövqeyini həm əl ilə, həm də səsli komandalar vasitəsilə dəyişə bilər. "Hey Tiko" səsli əmri ilə ekranı açmaq, bağlamaq və ya planşet rejiminə keçirmək mümkündür. Ekran sağ istiqamətdə 90, sol tərəfə isə tam 180 dərəcə dönmə qabiliyyətinə malikdir.

Noutbukun fərqləndirici xüsusiyyətlərindən biri də 10 meqapiksellik ağıllı veb-kameradır. Bu kamera istifadəçinin üz hərəkətlərini izləyir və kadrdan çıxma hallarında ekranın mövqeyini avtomatik tənzimləyir. Belə imkan xüsusilə onlayn iclaslar, təqdimatlar və videozənglər zamanı istifadə rahatlığını xeyli artırır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

BEYNƏLXALQ HƏYAT

# Qəzzada Sülh Şurasına bolqarıstanlı diplomat rəhbərlik edəcək

O, Bolqarıstanın keçmiş müdafiə və xarici işlər naziri olmuş, BMT-nin İraqdakı nümayəndəsi vəzifəsində çalışmış, 2015-2020-ci illərdə BMT-nin Yaxın Şərq üzrə sülh elçisi təyin edilmişdir

**İsrailin Baş naziri Benyamin Netanyahu ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan və Qəzza zolağında sülh prosesinə nəzarət etmək funksiyası daşıyan Sülh Şurasının baş direktoru vəzifəsinə bolqarıstanlı diplomat Nikolay Mladenovun seçildiyini açıqlayıb.**



Hökumət başçısı bu xəbəri N.Mladenovla Qüdsdə görüşdükdən sonra açıqlayıb və diplomatın əsas vəzifəsinin atəşkəsin ikinci və daha mürəkkəb mərhələsinin həyata keçirilməsinə nəzarət etmək olduğunu bildirib. Qeyd olunub ki, bu təyinat D.Trampın İsrail və HƏMAS arasında iki ildən çox davam edən müharibəyə son qoyan oktyabr atəşkəsindən bəri donmuş Yaxın Şərq sülh planı üçün böyük bir addımdır. D.Trampın bu ayın sonunda şura üzvlərini təyin etməsi, N.Mladenovun isə onların Qəzzada nümayəndəsi olması gözlənilir.

Təyinat rəsmi olaraq açıqlanmadığı üçün anonimlik şərti ilə danışan yüksəkvəzifəli ABŞ rəsmisi N.Mladenovun Sülh Şurasına rəhbərlik etmək üçün D.Tramp administrasiyası tərəfindən seçildiyini təsdiqləyib. ABŞ Prezidentinin planına görə, şura yeni texnokratik Fələstin hökumətinin yaradılmasına, HƏMAS-ın tərk-silah edilməsinə, beynəlxalq təhlükəsizlik qüvvələrinin yerləşdirilməsinə, əlavə İsrail qoşunlarının çıxarılmasına və Qəzzanın yenidən qurulmasına nəzarət etməlidir.

Xatırladaq ki, Bolqarıstanın sabiq müdafiə və xarici işlər naziri Nikolay Mladenov sonradan BMT-nin İraqdakı nümayəndəsi vəzifəsində işləmiş və 2015-ci ildən 2020-ci ilə qədər BMT-nin Yaxın Şərq üzrə sülh elçisi təyin olunmuşdur. Bu müddət ərzində o, tez-tez İsrail ilə HƏMAS arasında gərginliyi azaltmaq üçün çalışmışdır.

Xatırladaq ki, keçən il oktyabrın 10-da başlayan atəşkəsin birinci mərhələsi hərbi əməliyyatların dayandırılmasına və HƏMAS tərəfindəki girovların İsrail tərəfindən saxlanılan yüzlərlə fələstinli ilə dəyişdirilməsinə imkan yaratdı. Razılaşma əsasən qüvvədə qalıb, baxmayaraq ki, qarşılıqlı ittihamlarla bəzən pozulmuşdur. HƏMAS hələ də sonuncu girovun - 7 oktyabr 2023-cü ildə müharibəyə səbəb olan işğal zamanı öldürülən bir İsrail polisinin cəsədini qaytarmayıb.

Yanvarın 7-də Qahirədə görüşən Misir və Avropa İttifaqı liderləri oktyabr atəşkəsini izləmək üçün Qəzzaya beynəlxalq sabitləşdirmə qüvvələrinin yerləşdirilməsini tələb ediblər.

"Vəziyyət son dərəcə ağırdır. HƏMAS tərk-silah olmaqdan imtina edir və sülh planının növbəti mərhələsinə doğru irəliləyişi əngəlləyir. İsrail isə beynəlxalq QHT-lərin fəaliyyətini məhdudlaşdırmaqla humanitar yardıma çıxışı ciddi şəkildə təhlükə altına alır", - deyə Aİ-nin Xarici Siyasət üzrə rəhbəri Kaya Kallas bildirib. O vurğulayıb ki, Qəzzada humanitar vəziyyətin hazırkı səviyyəyə qədər pisləşməsi üçün heç bir səbəb yoxdur.

Bu arada BMT-nin Fələstin Qaçqınları üzrə Yardım və İşlər Agentliyinin (UNRWA) baş komissarı Filip Lazzarini Ankarada jurnalistlərə bildirib ki, başqa heç bir təşkilatın bu ərazilərdə səhiyyə, təhsil və sosial xidmətlər göstərmək qabiliyyəti və ya "icma etibarı" yoxdur. Qəzzaya humanitar yardımın çatdırılmasının yaxşılaşdırılması ilə bağlı rəsmilərlə danışıqlar aparmaq üçün Türkiyəyə yollanan F.Lazzarini deyib: "Əgər agentlik Qəzzada və ya Qərb sahilindəki fəaliyyətini dayam edə bilməsə və ya ona məcbur edilsə, bu, böyük bir boşluq yaradacaq".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ABŞ ordusu Karib dənizində daha bir neft tankerini ələ keçirib

Bu barədə ABŞ Cənub Komandanlığı açıqlama yayıb. Bildirilir ki, səhərə qədər davam edən "Olina" adlı gəminin tutulması əməliyyatı ABŞ dəniz piyadaları və donanması tərəfindən həyata keçirilib.

Daxili təhlükəsizlik katibi Kristi Noem bildirib ki, "Olina" sanksiyalar altında olan "kölgə donanması"na məxsus tanker gəmisidir. Qeyd olunur ki, gəmi saxta şəkildə Timor Lestedə qeydiyyatdan keçirilib.

Bu, son həftələrdə ABŞ tərəfindən ələ keçirilən beşinci tankerdir.




# Bilmək istəyirəm

*Bilmək istəyirəm, media orqanı hansı hallarda təkzib verməyə borcludur?*

***Kamran HƏSƏNOV,***
***Sumqayıt şəhəri***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, qaldırdığınız məsələ "Media haqqında" qanun, Mülki və İnzibati Xətalar məcəllələri ilə tənzimlənir. Belə ki, əgər mediada fiziki şəxsin şərəf və ləyaqətini, fiziki və hüquqi şəxsin işgüzar nüfuzunu ləkələyən, böhtan və təhqir xarakterli məlumatlar yayıldıqda, yaxud fikirlər təhrif olunduqda, həmin şəxs və ya nümayəndəsi media subyektindən həqiqətə uyğun olmayan məlumatın təkzib olunmasını tələb edə bilər və media subyekti bu tələbi yerinə yetirməyə borcludur. Bundan əlavə, cinayət işləri üzrə icraatın mahiyyəti və nəticələri barədə həqiqətə uyğun olmayan və ya təhrif edilmiş məlumatlar verildikdə, cinayət prosesini aparan orqan da təkzib tələb edə bilər və media subyekti bu tələbi icra etməlidir. Mülki Məcəlləyə əsasən, əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar mediada yayılmışsa, həmin mediada təkzib edilməlidir. Təkzibin verilməməsi və ya qanunla müəyyən edilmiş qaydalara əməl edilməməsi inzibati məsuliyyət yaradır və media subyektləri cərimə (vəzifəli şəxslər üç yüz manatdan altı yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə) oluna bilər. Praktikada, təkzib tələbi daxil olduqda media orqanı bir ay müddətində bu tələbi yerinə yetirməlidir və təkzib, cavab və ya düzəliş üçün ödəniş tələb etmək qadağandır.

*Tanışlarımdan birinə iki ilə yaxındır ki, borc pul vermişəm, amma indiyə qədər qaytarmayıb. İstəyəndə də deyir ki, isbat elə ki, mənə pul vermisən. Kiminsə mənə olan borcunu necə sübut edə bilərəm?*

***Mehdi HƏŞİMOV,***
***Hacıqabul rayonu***

✓ - Qaldırdığınız məsələ ilə bağlı bildiririk ki, borcun mövcudluğunu sübut etmək üçün əsas vasitə yazılı borc müqaviləsi, borc sənədi və ya pulun verilməsi faktını təsdiqləyən digər sənədlərdir. Borcun qaytarılması və ya verilməsi nağdsız qaydada baş veribsə, bank çıxarışları və ya hesabdan çıxarışlar da sübut kimi istifadə oluna bilər. Əgər yazılı sənəd yoxdursa, məhkəmədə şahid ifadələri və digər sübutlar təqdim oluna bilər. Amma yazılı sübutlar üstün hesab olunur və məhkəmə əsasən bu cür sənədlərə istinad edir. Praktikada, borcun sübutu üçün ən etibarlı yol yazılı müqavilə və ya ödənişi təsdiq edən bank sənədləridir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



Azercell

## abunəçilərinin nəzərinə!

Rouminq internet paketlərində yenilik!

Göstərilən xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, mobil internetə olan ehtiyacın daim artdığı mühitdə müştərilərə təklif olunan tariflərin optimallaşdırılması, abunəçilərə daha əlverişli və rahat istifadə imkanının təmin edilməsi məqsədi ilə 23 dekabr 2025-ci il tarixdən etibarən "Azercell Telekom" MMC daha sərfəli və abunəçilərin istifadə tələblərinə uyğun yenilənmiş rouminq internet paketlərini istifadəyə təqdim edir.

**Yeni rouminq internet paketləri**

| İnternet həcmi | İstifadə müddəti | Qiymət (AZN, ƏDV daxil) |
|---|---|---|
| 500 MB | 3 gün | 10 |
| 2 GB | 10 gün | 25 |
| 5 GB | 30 gün | 50 |
| 10 GB | 30 gün | 75 |

10 fevral 2026-cı il tarixdən etibarən, yuxarıda sadalananlardan başqa digər rouminq internet paketlərinə yeni qoşulmalar dayandırılacaq. Eyni zamanda 10 GB rouminq internet paketi çərçivəsində təqdim olunan limitsiz "WhatsApp" yazışma imkanı ləğv olunacaq.

**Qeyd:** Abunəçilər rouminq xidməti, tarifləri, həmçinin rouminqdə internet paketlərin sifarişi və istifadə şərtləri, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com**), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər. Korporativ abunəçilər xüsusi Müştəri Xidmətlərinə ((012)4904940 - şəhər telefonundan, 6050 - mobil telefondan (1 zəng - 0,1 AZN) Bazar ertəsi - Cümə, 09:00 - 18:00) müraciət edərək mövcud tariflər, kampaniyalar və xidmətlər haqda məlumat öyrənə, müxtəlif əməliyyatlar həyata keçirə və texniki dəstək ala bilərlər.


# Hava əsasən yağmursuz keçəcək

Azərbaycanda yanvarın 10-na gözlənilən hava proqnozu açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin yanvarın 9-dan 10-na keçən gecə və axşam bəzi yerlərdə çiskinli yağış yağacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi axşama doğru mülayimləşəcək. Havanın temperaturu gecə 5-7, gündüz 8-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 752 millimetr civə sütunundan 761 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 80-85 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə yağıntıların intensivləşəcəyi ehtimalı var. Axşam qərb rayonlarından başlayaraq tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 8-12 dərəcə isti, dağlarda gecə 2-7 dərəcə şaxta, gündüz 2 dərəcə şaxtadan 3 dərəcəyədək isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərliyi və əməkdaşları iş yoldaşları Sevinc Məmmədovaya atası

**RAFİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi "Azəralüminium" MMC-nin "Gəncə İstehsalat Kompleksi"nin direktoru, Azərbaycan Texnologiya Universitetinin Kimya və metallurgiya kafedrasının professoru

**CƏMİL İLDIR OĞLU SƏFƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3129**
**Sifariş 5**

**Qiyməti 60 qəpik**